# ƏZİZ QADINLAR, BAYRAMINIZ MÜBARƏK!

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 44 (10064) 7 mart 2026-cı il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Azərbaycan xalqı qadın adını hər zaman zərifliyin, gözəlliyin, ülviyyətin rəmzi bilmişdir

### 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına təbrik

Hörmətli xanımlar!

Sizi Beynəlxalq Qadınlar Günü münasibətilə səmimi-qəlbdən təbrik edir, hamınıza cansağlığı, səadət və işlərinizdə müvəffəqiyyətlər arzulayıram.

Azərbaycan xalqı qadın adını hər zaman zərifliyin, gözəlliyin, ülviyyətin rəmzi bilmiş və ona dərin ehtiram göstərmişdir. Mübarizələrlə dolu böyük keçmişimiz qadınlarımızın müdrikliyi, fədakarlığı və qəhrəmanlığının parlaq nümunələri ilə zəngindir. Hər bir azərbaycanlının qəlbində məhz Ana məfhumu daim doğma yurdla, Vətən torpağı ilə bağlı işıqlı duyğular yaradır. Bəşər mədəniyyəti xəzinəsinə töhfəmiz olan milli-mənəvi dəyərlərimizin bir bütöv halında qorunub saxlanılmasında, dilimizin əsrlərin sınağından çıxaraq layiqincə yaşadılmasında analarımızın misilsiz xidməti vardır.

Ölkəmizdə tarixən qadının cəmiyyət həyatında fəal iştirakına həmişə rəğbət və hörmətlə yanaşılmışdır. Azərbaycan qadınlarının bir çox qabaqcıl dünya ölkələri qadınlarından daha əvvəl seçib-seçilmək hüququ əldə etmələri bu mütərəqqi münasibətin ifadəsidir. Ötən illərdə sosial-mədəni təşəbbüskarlıqları ilə yüksək ictimai mövqe və nüfuz sahibi olmuş qadınlarımız təhsil, mədəniyyət, səhiyyə və elm sahələrində bu gün də uğurla çalışmaqdadırlar. Maarifpərvər sələflərinin ənənələrini davam etdirən xanımlarımızın ölkənin müasir simasının müəyyənləşməsinə yönəlmiş çoxsaylı nailiyyətləri müstəqillik salnaməmizin qürurverici səhifələridir.

Əminəm ki, qadınlarımız gənc nəslin Vətənə və milli ideallara sədaqət ruhunda tərbiyəsi üçün bundan sonra da qüvvələrini əsirgəməyəcək, ictimai-mənəvi mühitimizə yeni töhfələr bəxş edəcəklər.

*Əziz xanımlar!*

*Bayramınız mübarək olsun!*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 mart 2026-cı il*

## Çexiya Azərbaycanla həmrəydir

### Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident!

Martın 5-də Naxçıvana dron hücumu ilə bağlı xəbəri böyük narahatlıqla qarşıladım. Bu hücum zamanı hava limanı da daxil olmaqla, mülki obyektlərə zərbələr endirilib, dronlar məktəbin yaxınlığında yerə düşüb və bir neçə nəfər yaralanıb.

Bu hücum beynəlxalq hüququn kobud şəkildə pozulması və qəbuledilməz zorakılığın artması deməkdir. Sizin haqlı olaraq terror hücumu kimi qiymətləndirdiyiniz bu akt bütün regionun sabitliyinə və təhlükəsizliyinə ciddi təhdid yaradır.

Bu hücumu Çex Respublikası Hökuməti adından qəti şəkildə pislədiyimizi bildirmək istərdim. Biz Azərbaycanla həmrəy olduğumuzu bildirir, onun vətəndaşlarının təhlükəsizliyinin təmin edilməsi, eləcə də regionda sülhün və sabitliyin qorunması istiqamətində bütün səyləri dəstəkləyirik.

Zati-aliləri, Sizə olan ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Andrey BABİŞ,***
***Çex Respublikasının Baş naziri***

## Prezident İlham Əliyev göstərdiyi dəstəyə və həmrəyliyə görə Çexiyanın Baş nazirinə minnətdarlığını bildirib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İranın Naxçıvana dron hücumlarından sonra Azərbaycana verdiyi dəstəyə görə Çex Respublikasının Baş naziri Andrey Babişə minnətdarlığını bildirib.**

AZƏRTAC xəbər verir ki, Prezidentin "X" hesabında bununla bağlı paylaşım edilib.

Paylaşımda deyilir: "İran dövlətinin Azərbaycan ərazisinə dron hücumlarından sonra Çex Respublikasının nümayiş etdirdiyi güclü dəstək və həmrəylik mesajına görə Baş nazir cənab Andrey Babişə dərin minnətdarlığımı bildirirəm.

Bu bəyanat Azərbaycan ilə Çexiya arasında dostluq məcrasında inkişaf edən sıx münasibətlərin və beynəlxalq hüquqa sadiqliyin parlaq təcəssümüdür".



# İlham Əliyevin mövqeyi qəti və prinsipialdır

### Heç bir qüvvə ölkəmizlə təzyiq və hədə dilində danışa bilməz

Prezident İlham Əliyev İranın dron təxribatına sərt etirazını bildirməklə kifayətlənmədi, həm də suverenliyimizə qəsd edən qüvvələrə qarşı xəbərdarlıq mahiyyətində kəskin mesajlar verdi. Dövlət başçısı bədxahlara xatırlatdı ki, 44 günlük Vətən müharibəsində Ermənistanı diz çökdürən iradə eyni güclə istənilən digər təhdidə qarşı da işə düşə bilər. "Bizim gücümüzü sınamasınlar. Gücümüzü sınamaq istəyənlərin başı "dəmir yumruq" vasitəsilə yarıldı" deyən dövlət başçısı 44 günlük Vətən müharibəsinin nəticələrini xatırladaraq eyni aqibətin istənilən təcavüzkarı gözlədiyini bəyan etdi: "Necə ki, Ermənistan işğalına son qoymuşuq, istənilən şər qüvvəyə qarşı öz gücümüzü göstərməyə hazırıq və İranda bunu unutmasınlar".

Ali Baş Komandan həmçinin Naxçıvana xain dron hücumunu aşkar şəkildə İran tərəfindən Azərbaycan dövlətinə qarşı törədilmiş terror aktı kimi xarakterizə etdi. Çünki Naxçıvan Beynəlxalq Hava Limanının və mülki obyektlərin hədəfə alınması hücumun hərbi mahiyyətdə olmadığını, birbaşa mülki əhaliyə qarşı psixoloji və fiziki təzyiq məqsədi daşıdığını göstərir.

Prezidentin çıxışındakı ən təsirli məqam Azərbaycanın İrana göstərdiyi humanitar dəstək fonunda Tehranın Naxçıvanı vurması faktının ifşası idi. Bu, Bakının səbrinin tükəndiyini və qarşı tərəfin nankorluğuna yalnız güc dili ilə cavab veriləcəyinin dünyaya bəyanı idi: "İranın xarici işlər nazirinin müavini Bakıya zəng edir, xahiş edir ki, İran səfirliyinin Livanda qalmış əməkdaşlarının təxliyəsinə Azərbaycan kömək etsin. Çünki onların imkanı yoxdur. Mənə məruzə edildi. Mən dərhal göstəriş verdim ki, kömək göstərin, təyyarə göndərin. Hətta onlar dedilər ki, biz bunun pulunu da verməyə hazırıq. Dedim ki, lazım deyil, indi dar gündə biz kömək göstərməsək, bəs nə vaxt kömək göstərməliyik? Bütün bunların müqabilində çirkincə, namərdcə, nakişi kimi Naxçıvana zərbə endirmək?! Bu ləkə onların çirkin və eybəcər simasından heç vaxt silinməyəcək". Azərbaycan lideri ölkəmizin nə qədər alicənab, İranın isə nankor olduğunu faktlarla ortaya qoydu. Diplomatik dildə, adətən, "təəssüf", "narahatlıq" şəklində yumşaq ifadələr işlədilir. Lakin Prezidentin "namərd" və "nakişi" kimi kəskin ifadələr seçməsi qarşı tərəfin hərəkətinin beynəlxalq hüquqla yanaşı, həm də mənəvi-etik dəyərlərə sığmadığını göstərir. Ölkə rəhbəri üçün vətəndaşlarımızın təhlükəsizliyi və dövlətin şərəfi hər cür diplomatik nəzakətdən üstündür.

6

## İrandan Azərbaycana və Azərbaycandan İrana qayıdan yük avtomobillərinin buraxılışına başlanılıb

Məlumat verildiyi kimi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 5 mart tarixli 66 nömrəli qərarına əsasən Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında dövlət sərhədindən bütün növ nəqliyyat vasitələri üçün yüklərin daşınması məqsədilə giriş-çıxış (o cümlədən tranzit məqsədilə giriş-çıxış) müvəqqəti olaraq dayandırılıb.



Nazirlər Kabinetindən AZƏRTAC-a bildirilib ki, bununla əlaqədar hazırda İran İslam Respublikasından Azərbaycana qayıdan Azərbaycan Respublikasına məxsus yük avtomobillərinin, həmçinin Azərbaycan Respublikasından İrana qayıdan İran İslam Respublikasına məxsus yük avtomobillərinin Astara, Biləsuvar və Culfa dövlət sərhəd buraxılış məntəqələrindən buraxılışına başlanılıb.

## TÜRKPA Naxçıvandakı mülki obyektlərə PUA hücumları ilə bağlı bəyanat yayıb

Türk Dövlətləri Parlament Assambleyasının (TÜRKPA) baş katibi səfir Ramil Həsən İran İslam Respublikası ərazisindən Azərbaycanın Naxçıvan Muxtar Respublikasındakı mülki obyektlərinə həyata keçirilən pilotsuz uçuş aparatlarının (PUA) hücumları ilə bağlı bəyanat yayıb.

AZƏRTAC xəbər verir ki, TÜRKPA-nın bəyanatında İranın bu hücumu qətiyyətlə pislənilib.

Bu cür hərəkətlərin mülki təhlükəsizlik və regional sabitliyə ciddi təhdid yaratdığını vurğulayan baş katib oxşar hadisələrin qarşısının alınmasının vacibliyini bildirərək regionda vəziyyətin daha da gərginləşməməsi üçün təmkinli olmağa çağırır.

"TÜRKPA sülh və sabitlik diləyi ilə Azərbaycan Respublikasının Hökuməti və Azərbaycan xalqının yanındadır", - deyə bəyanatda vurğulanıb.

## İlham Əliyev ilə Aleksandar Vuçiç arasında telefon danışığı olub



Martın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç arasında telefon danışığı olub.

Söhbət zamanı Yaxın Şərqdəki mövcud vəziyyət barədə fikir mübadiləsi aparılıb, vəziyyətin daha da gərginləşməsindən narahatlıq ifadə olunub.

Telefon danışığı zamanı İran tərəfindən Naxçıvana qarşı törədilən dron hücumları pislənilib.

Söhbət zamanı Prezident İlham Əliyev Serbiyanın dövlət başçısını ad günü münasibətilə təbrik edib.

Aleksandar Vuçiç göstərilən diqqətə görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirib.

Dövlət başçıları ölkələrimiz arasında dostluq və strateji tərəfdaşlıq münasibətlərinin inkişafını məmnunluqla vurğulayıb, əməkdaşlığın perspektivlərini müzakirə ediblər.

***Prezidentin Mətbuat Xidməti***

## Məhəmməd Şahbaz Şərif İlham Əliyevə zəng edib



Martın 6-da Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Pakistanın Baş naziri İranın Azərbaycana qarşı hərbi hücumunu və terror aktlarını qınadığını bildirib, bu çətin gündə Pakistan dövləti və ordusunun Azərbaycan dövləti və ordusunun yanında olduğunu qeyd edib, Azərbaycanın Pakistana hər zaman güvənə biləcəyini deyib. Məhəmməd Şahbaz Şərif Azərbaycan-Pakistan dostluğu və qardaşlığının davam edəcəyini vurğulayıb.

Dövlətimizin başçısı göstərilən dəstəyə və həmrəyliyə görə minnətdarlığını bildirib. Prezident İlham Əliyev Azərbaycanın qardaş Pakistanın haqq işini hər zaman müdafiə edəcəyini deyib. Dövlətimizin başçısı qeyd edib ki, İran tərəfindən Azərbaycana qarşı törədilmiş bu terrorun Pakistan tərəfindən şiddətlə qınanılması Azərbaycan-Pakistan dostluğunu bir daha əks etdirir.

Azərbaycan Prezidenti və Pakistanın Baş naziri yaxşı və çətin günlərdə ölkələrimizin daim bir-birinin yanında olduqlarını və istənilən qarşılıqlı dəstəyi verməyə hazır olduqlarını vurğulayıblar.

***Prezidentin Mətbuat Xidməti***

## Prezident İlham Əliyev göstərdiyi dəstəyə görə Albaniyanın Baş nazirinə minnətdarlıq edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Albaniya Respublikasının Baş naziri Edi Ramaya İranın Naxçıvana etdiyi dron hücumlarından sonra Azərbaycana göstərdiyi dəstəyə görə minnətdarlıq edib.**



AZƏRTAC xəbər verir ki, bu barədə Prezidentin "X" hesabında paylaşım edilib.

Paylaşımda deyilir: "Mən Albaniyanın Baş naziri Edi Ramaya İran dövləti tərəfindən Naxçıvan Muxtar Respublikasına edilən dron hücumlarından sonra Azərbaycana göstərilən sarsılmaz dəstəyə görə ən dərin minnətdarlığımı bildirmək istəyirəm. Xalqımız nümayiş etdirdiyiniz qəti mövqeyi, həmrəyliyi və birliyi yüksək qiymətləndirir".

# Moldova İranın pilotsuz uçuş aparatları ilə Azərbaycana qarşı törətdiyi hücumları qətiyyətlə qınayır

## Prezident İlham Əliyev Moldovanın Baş nazirinin müavinini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 6-da Moldova Respublikasının Baş nazirinin müavini, xarici işlər naziri Mixay Popşoini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, qəbula görə dövlətimizin başçısına təşəkkür edən Mixay Popşoi Moldova Prezidenti Maya Sandunun salamlarını Prezident İlham Əliyevə çatdırdı.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Maya Sanduya çatdırmağı xahiş etdi. Prezident İlham Əliyev beynəlxalq təşkilatlar çərçivəsində Moldovanın dövlət başçısı ilə görüşlərini və aparılmış müzakirələri məmnunluqla xatırladı.

Mixay Popşoi İranın pilotsuz uçuş aparatları ilə Azərbaycana qarşı törətdiyi hücumları Moldovanın qətiyyətlə qınadığını dedi, bu məsələdə ölkəmizlə həmrəy olduqlarını vurğuladı. O, hücum zamanı xəsarət alanların tezliklə sağalmasını arzuladı.

Xalqlarımız arasında dostluq münasibətlərinin mövcud olmasını məmnunluqla qeyd edən qonaq dedi ki, Moldovanın çətin günlərində Azərbaycanın dəstəyini həmişə xatırlayırlar və bunu yüksək qiymətləndirirlər.

Prezident İlham Əliyev nümayiş olunan mövqeyə görə təşəkkür etdi.

Söhbət zamanı Azərbaycanın və Moldovanın daim bir-birilərinin ərazi bütövlüyünü və suverenliyini dəstəklədikləri məmnunluqla qeyd olundu, ikitərəfli münasibətlərimizin inkişafı, o cümlədən siyasi, iqtisadi-ticari, enerji və digər sahələrdə əməkdaşlığın dərinləşdiyi vurğulandı, müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin əlaqələrimizin genişlənməsində roluna toxunuldu. Bu xüsusda Mixay Popşoinin səfərinin uğurlu olacağına əminlik bildirildi.

Söhbət zamanı beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, siyasi dialoqun intensivləşdirilməsi və qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparıldı.

## Qana Respublikasının Prezidenti zati-aliləri cənab Con Dramani Mahamaya

Hörmətli cənab Prezident!

Qana Respublikasının milli bayramı-Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Qana arasında münasibətlərin inkişafı, əməkdaşlığımızın genişlənməsi yolunda birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu bayram günündə Sizə ən xoş arzularımı çatdırır, dost Qana xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 mart 2026-cı il*

## Slovakiya İranın hücumunu qətiyyətlə pisləyir

### Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident!

Naxçıvan Muxtar Respublikasında mülki infrastruktura qarşı pilotsuz uçuş aparatları ilə həyata keçirilmiş hücum, həmçinin mülki əhalini təhlükə altına qoyan bu hadisə ilə əlaqədar Slovakiya Respublikası adından və şəxsən öz adımdan səmimi həmrəyliyimi bildirmək istəyirəm.

Biz bu hücumu qətiyyətlə pisləyirik. Bu cür davranış qəbuledilməzdir, beynəlxalq hüququn pozulmasıdır və vəziyyətin daha da gərginləşməsi riskini təhlükəli şəkildə artırır.

Slovakiya Respublikası gərginliyin azaldılmasına və məsələnin sülh yolu ilə həllinə yönəlmiş bütün səyləri dəstəkləyir.

Eyni zamanda icazə verin, Tehrandan təxliyə olunmuş diplomatlarımıza göstərdiyiniz yardıma və qonaqpərvərliyə görə hakimiyyət orqanlarınıza səmimi təşəkkürümü bildirim. Bu çətin vəziyyətdə hakimiyyət orqanlarınızın göstərdiyi dəstəyi yüksək qiymətləndiririk.

Cənab Prezident, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Peter PELLEQRİNİ,***
***Slovakiya Respublikasının Prezidenti***

## Azərbaycan regionda sabitliyin, inkişafın və əməkdaşlığın təşviqi istiqamətində ardıcıl siyasət yürütmüşdür

### Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

İran İslam Respublikasının Azərbaycan Respublikasının ərazisinə etdiyi hücumlarla əlaqədar Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü qismində Sizə tam dəstəyimi və həmrəyliyimi ifadə edirəm. Biz bu hücumları qəti şəkildə qəbuledilməz və dərin narahatlıq doğuran hal hesab edirik. Həmin hücumlar regional sabitlik və təhlükəsizlik üçün ciddi təhdiddir. Sizin rəhbərliyiniz altında Azərbaycan regionda sabitliyin, inkişafın və əməkdaşlığın təşviqi istiqamətində ardıcıl siyasət yürütmüşdür, buna görə də belə əməllər xüsusilə ədalətsizdir.

Bu çətin şəraitdə zati-alinizlə və dost Azərbaycan xalqı ilə qəti həmrəy olduğumuzu bir daha bildiririk.

Bakıya qarşıdan gələn səfərimi və yenidən görüşümüzü səbirsizliklə gözləyirəm. Bu görüşü xalqlarımız arasında mövcud olan dostluq münasibətlərinin və əməkdaşlığın daha da möhkəmləndirilməsi üçün mühüm fürsət kimi qiymətləndirirəm.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Jelka TSVİYANOVİÇ,***
***Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü***

## Azərbaycanın Baş naziri ilə Türkiyənin vitse-prezidenti arasında telefon danışığı olub

**Martın 6-da Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ilə Türkiyə Respublikasının vitse-prezidenti Cevdet Yılmaz arasında telefon danışığı olub.**




Nazirlər Kabinetindən AZƏRTAC-a verilən məlumata görə, telefon danışığında İran İslam Respublikası tərəfindən martın 5-də Azərbaycan Respublikasına qarşı dron hücumları ilə bağlı kəskin etiraz bildirilib, bu hücumların beynəlxalq hüququn norma və prinsiplərinə zidd olduğu vurğulanıb.

Ə.Əsədov qeyd edib ki, ölkəmizə qarşı dron hücumları nəticəsində Naxçıvan Beynəlxalq Hava Limanı, məktəb və digər istiqamətlər İran tərəfindən atəşə məruz qalıb, bir neçə mülki şəxs xəsarət alıb, hava limanının terminal binasına ziyan dəyib.

Hadisədən sonra Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Prezident İlham Əliyevə zəng edərək dərhal Azərbaycan xalqına dəstəyini bildirməsi iki ölkə arasında mövcud sarsılmaz qardaşlığın və həmrəyliyin bariz təzahürü olduğu vurğulanıb.

Baş nazir Naxçıvan istiqamətində həyata keçirilən aviareyslərin yaranmış vəziyyətlə bağlı təhlükəsizliyini təmin etmək məqsədilə uçuşların müvəqqəti olaraq İğdır hava limanına təşkil edilməsi üçün göstərilən operativ dəstəyə görə qardaş Türkiyə tərəfinə təşəkkür edib.

Telefon danışığı zamanı, həmçinin mövcud vəziyyətdən irəli gələrək gündəlikdə duran aktual məsələlər müzakirə olunub.

## Azərbaycan və Belarus Baş nazirləri arasında telefon danışığı olub

**Martın 6-da Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ilə Belarus Respublikasının Baş naziri Aleksandr Turçin arasında telefon danışığı olub.**




Nazirlər Kabinetindən AZƏRTAC-a verilən məlumata görə, telefon danışığı əsnasında iki ölkə prezidentlərinin birgə səyləri nəticəsində müxtəlif sahələrdə Azərbaycan-Belarus çoxşaxəli tərəfdaşlığının dinamik inkişafı qeyd edilib.

Hökumət başçıları regiondakı mövcud vəziyyəti müzakirə ediblər. Naxçıvanda baş vermiş insidentlə bağlı narahatlıq ifadə olunub.

Ə.Əsədov İranın pilotsuz uçuş aparatlarından istifadə etməklə Azərbaycana qarşı həyata keçirdiyi hücumlar barədə məlumat verib.

Telefon danışığı zamanı, həmçinin Azərbaycan ilə Belarus arasında qarşılıqlı faydalı əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub.

## Yüksək siyasi əlaqələr müxtəlif sahələr üzrə əməkdaşlığın inkişafı üçün yaxşı imkanlar yaradır

**Milli Məclisin Sədri Sahibə Qafarova martın 6-da Moldova Respublikası Baş nazirinin müavini, xarici işlər naziri Mixay Popşoi ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə bildirilib ki, ölkələrimiz arasında mövcud olan yüksəksəviyyəli siyasi əlaqələr müxtəlif sahələr üzrə əməkdaşlığın inkişafı üçün yaxşı imkanlar yaradır. Tərəflər ölkələrimiz və xalqlarımız arasında əlaqələrin dərinləşməsində dövlət başçılarının və hökumət rəsmilərinin qarşılıqlı səfərlərinin əhəmiyyətini qeyd ediblər. Ölkələrimizin beynəlxalq təşkilatlarda da qarşılıqlı dəstək nümayiş etdirməsindən məmnunluq ifadə edilib.

Mixay Popşoi Moldova Parlamentinin Sədri İqor Qrosunun salamlarını Azərbaycan parlamentinin Sədrinə çatdırıb. Milli Məclisin Sədri onun da salamlarını Moldova parlamentinin spikerinə çatdırmağı xahiş edib. Sahibə Qafarova İqor Qrosunun ölkəmizə səfərini və onunla müxtəlif tədbirlər çərçivəsində keçirdiyi görüşləri məmnunluqla xatırlayaraq, Azərbaycanla Moldovanın qanunverici orqanları arasında mövcud əməkdaşlıq əlaqələri və bu əlaqələrin inkişaf perspektivləri barədə fikirlərini bölüşüb, qarşılıqlı parlamentlərarası dostluq qruplarının fəaliyyətini xüsusi qeyd edib. Spiker bildirib ki, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığımız uğurla davam edir və bu qurumlarda deputatlarımız bir-birinə qarşılıqlı dəstək verirlər.

Söhbət zamanı spiker Sahibə Qafarova İran tərəfindən Azərbaycanın Naxçıvan Muxtar Respublikası istiqamətində həyata keçirilən dron hücumlarını pisləyərək, ölkəmizə qarşı törədilən bu hücumların qəbuledilməz olduğunu və Azərbaycan xalqı tərəfindən hiddətlə qarşılandığını bildirib.

Mixay Popşoi isə Moldovanın bu xain hücumları qətiyyətlə qınadığını söyləyərək, bu məsələdə ölkəmizlə həmrəy olduqlarını bildirib.

Qeyd olunub ki, Azərbaycan da zaman-zaman Moldovanın yanında olub, ərazi bütövlüyü və suverenlik məsələlərində ölkələrimiz bir-birinə qarşılıqlı dəstək verib. Mixay Popşoi, həmçinin Moldovada baş vermiş enerji böhranı zamanı Azərbaycanın göstərdiyi dəstəyə görə təşəkkürünü bildirib.

Milli Məclisin Sədri Sahibə Qafarova qonağa Azərbaycan ilə Ermənistan arasında davam edən normallaşma və sülh prosesi barədə məlumat verib. Qonaq, ölkəsinin sülh prosesində Azərbaycanın təşəbbüs və liderliyini alqışladıqlarını bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

## "Hüquqi şəxslərin dövlət reyestrinin aparılması, istifadəsi və mühafizəsi Qaydaları"nın, habelə hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestrinin aparılması ilə bağlı sənədlərin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 13 aprel tarixli 70 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 65** **Bakı şəhəri, 5 mart 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 21 iyun tarixli 215-VIIQD nömrəli Qanununun tətbiqi və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 aprel tarixli 48 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 21 iyul tarixli 447 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Hüquqi şəxslərin dövlət reyestrinin aparılması, istifadəsi və mühafizəsi Qaydaları"nın, habelə hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestrinin aparılması ilə bağlı sənədlərin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 13 aprel tarixli 70 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 4, maddə 384 (Cild I); 2024, № 1, maddə 111, № 3, maddə 303, № 9, maddə 1090; 2025, № 7, maddə 713, № 9, maddə 858; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 16 yanvar tarixli 18 nömrəli Qərarı) aşağıdakı dəyişikliklər edilsin:

1. Həmin Qərarla təsdiq edilmiş "Hüquqi şəxslərin dövlət reyestrinin aparılması, istifadəsi və mühafizəsi Qaydaları" üzrə:

1.1. 2.3.1-ci yarımbəndə "ləğv edilməsi" sözlərindən sonra ", iflas prosesində olması" sözləri əlavə edilsin;

1.2. aşağıdakı məzmunda 3.1.10-2-ci yarımbənd əlavə edilsin:

"3.1.10-2. qurumun iflas prosesində olması;";

1.3. 4.10-cu bəndə "LP) qurumun ləğvetmə prosesində olması barədə məlumat;" yarımbəndindən sonra "İP) qurumun iflas prosesində olması barədə məlumat;"yarımbəndi əlavə edilsin.

2.Həmin Qərarla təsdiq edilmiş "Xarici qeyri-kommersiya hüquqi şəxslərinin filial və nümayəndəliklərinin dövlət reyestr kitabı"nın və "Qeyri-kommersiya hüquqi şəxslərinin dövlət reyestr kitabı"nın I hissələrinin 2-ci sütunlarında "LP)" yarımbəndindən sonra aşağıdakı məzmunda "İP)" yarımbəndi əlavə edilsin:

"İP) qurumun iflas prosesində olması barədə məlumat".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında dövlət sərhədindən bütün növ nəqliyyat vasitələri üçün yüklərin daşınması məqsədilə giriş-çıxışın (o cümlədən tranzit məqsədilə giriş-çıxışın) müvəqqəti olaraq dayandırılması haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 66** **Bakı şəhəri, 5 mart 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 sentyabr tarixli 499 nömrəli Fərmanının 28.5-ci bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. 2026-cı il 5 mart tarixindən etibarən Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında Azərbaycan Respublikasının dövlət sərhədindən buraxılış məntəqələrinə bütün növ nəqliyyat vasitələri üçün yüklərin daşınması məqsədilə giriş-çıxış (o cümlədən tranzit məqsədilə giriş-çıxış) müvəqqəti olaraq dayandırılsın.

2. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi bu Qərardan irəli gələn məsələləri həll etsinlər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Milli Məclisin Komissiyası İranın Naxçıvana PUA hücumlarına dair Bəyanat qəbul edib

**Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı Komissiyası Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasına İran İslam Respublikası ərazisindən olunan PUA hücumlarına dair Bəyanat qəbul edib. AZƏRTAC Bəyanatı təqdim edir.**

Bəyanatda deyilir: "2026-cı il martın 5-də Naxçıvan Muxtar Respublikasına İran İslam Respublikasının ərazisindən partlayan döyüş başlığı ilə təchiz edilmiş pilotsuz uçuş aparatları (PUA) ilə hücumlar həyata keçirilib.

PUA-lardan biri Naxçıvan Beynəlxalq Hava Limanının terminal binasını zədələyib, digəri isə Babək rayonunun Şəkərabad kəndində orta məktəb binasının yaxınlığına düşüb. Hücumlar zamanı dörd nəfər mülki şəxsin xəsarət aldığı müəyyən edilib.

Muxtar Respublikanın yeganə beynəlxalq hava qapısı olan hava limanının və mülki infrastrukturun hədəfə alınmasını beynəlxalq hüququn norma və prinsiplərinin pozulması, dövlətimizin ərazi bütövlüyü və suverenliyinə yönəlmiş qəsd və terror aktı kimi qiymətləndiririk.

Komissiya İran tərəfindən həyata keçirilən, özündə hərbi, siyasi və informasiya komponentlərini birləşdirən bu xain hərəkəti həm də hibrid hücum əməliyyatı hesab edir. Eyni zamanda Azərbaycanın sosial media seqmentində İranın bu fəaliyyətini dəstəkləyən informasiya kampaniyasının aparıldığı və manipulyativ fikirlərin yayıldığı müşahidə olunur.

Bu hücumların vətəndaşlarımız arasında çaşqınlıq və qorxu yaratmaq, müvafiq dövlət qurumlarına olan etimadı sarsıtmaq, Azərbaycanın regional mövqeyinə və beynəlxalq nüfuzuna zərər vurmaq məqsədilə edildiyi şübhə doğurmur.

Azərbaycan tərəfi beynəlxalq hüquq çərçivəsində müvafiq cavab tədbirləri görmək hüququnu özündə saxlayır.

Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı komissiya vətəndaşlarımızı və xaricdə yaşayan soydaşlarımızı dövlətimizin gücünə və rəsmi məlumatlara inanmağa çağırır".

## İranın Naxçıvana etdiyi dron hücumları ilə bağlı Beynəlxalq Mülki Aviasiya Təşkilatına hesabat təqdim edilib

**İran İslam Respublikası ərazisindən Naxçıvan Muxtar Respublikasının Naxçıvan Beynəlxalq Hava Limanına, onun terminal binasına pilotsuz uçuş aparatlarının hücumları həyata keçirildiyi üçün Beynəlxalq Mülki Aviasiya Təşkilatına hesabat təqdim edilib.**

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, "Beynəlxalq Mülki Aviasiya haqqında" 1944-cü il 7 dekabr tarixli Konvensiyaya, o cümlədən Konvensiyaya 17 nömrəli Əlavə - "Aviasiya təhlükəsizliyi" sənədinin beynəlxalq standartlarına uyğun olaraq, hava limanına qanunsuz müdaxilə aktı baş verdikdə üzv dövlət tərəfindən hazırlanmış ilkin hesabat Beynəlxalq Mülki Aviasiya Təşkilatına (ICAO) göndərilməlidir.

Beynəlxalq standartlardan irəli gələrək Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində "Dövlət Mülki Aviasiya Agentliyi" publik hüquqi şəxsi "ICAO"ya müvafiq ilkin hesabat göndərib.



# Moldovanın Baş nazirinin müavini Şəhidlər xiyabanını ziyarət edib

**Moldova Respublikasının Baş nazirinin müavini, xarici işlər naziri Mixay Popşoi martın 6-da Şəhidlər xiyabanını ziyarət edib.**

AZƏRTAC xəbər verir ki, Baş nazirin müavini Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda mübarizədə canlarını qurban vermiş qəhrəman Vətən övladlarının əziz xatirəsini ehtiramla anıb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Sonra Bakının mənzərəsini seyr edən qonağa Azərbaycan paytaxtında aparılan abadlıq-quruculuq işləri barədə məlumat verilib.



# Moldovanın Baş nazirinin müavini Zəfər parkını ziyarət edib

**Moldova Respublikasının Baş nazirinin müavini, xarici işlər naziri Mixay Popşoi martın 6-da Bakıda Zəfər parkını ziyarət edib.**

AZƏRTAC xəbər verir ki, burada ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Moldovanın Baş nazirinin müavini, xarici işlər naziri Zəfər abidəsinin önünə əklil qoyub.

Sonra qonağa Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə yaradılmış Zəfər parkı barədə ətraflı məlumat verilib.



# DTX SEPAH-ın Azərbaycanda terror planlarını ifşa edib



**Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti (DTX) kompleks əks-kəşfiyyat tədbirləri nəticəsində İran İslam Respublikasının xüsusi xidmət orqanı olan SEPAH tərəfindən Azərbaycanda həyata keçirilməsi planlanan terror təxribatlarının və kəşfiyyat xarakterli məlumatların toplanılmasının qarşısını alıb.**

AZƏRTAC xəbər verir ki, cəmiyyət arasında vahimə yaratmaq, ölkəmizin beynəlxalq nüfuzuna xələl gətirmək məqsədilə strateji obyekt olan Bakı-Tbilisi-Ceyhan neft boru kəməri, İsrailin Azərbaycandakı səfirliyi, Dağ yəhudiləri dini icmasının rəhbərlərindən biri və Aşkenazi sinaqoqu hədəf alınıb. Ölkə ərazisinə üç ədəd partlayıcı qurğu keçirilib, amma həmin partlayıcıların zərərsizləşdirilərək digər şəxsə ötürülməsinin qarşısı alınıb. İran xüsusi xidmət orqanlarının ölkəmizdə maraq göstərdiyi strateji obyektlər, hədəflər, həmçinin onlarla əməkdaşlıq edən şəxslərin müəyyən olunması məqsədilə əməliyyat-axtarış tədbirləri təşkil edilib.

Məlum olub ki, İran İslam Respublikası vətəndaşları Rüstəmzadə Behnam Sahibali və Zankiyan Yaser Rahim qabaqcadan əlbir olaraq ölkə ərazisinə partlayıcı qurğu keçirmək üçün Quliyev Tərxan Tərlan oğlu ilə cinayətkar əlaqə yaradıb. İran İslam Respublikası vətəndaşı Zankiyan Yaser Rahimin tapşırığı ilə Səbail rayonu Şıx qəsəbəsi yaxınlığında qoyulmuş bir ədəd naməlum konteyner müəyyən edilib. Konteynerə baxış zamanı içərisində obyektlərin, eyni zamanda beton qurğuların partladılması üçün nəzərdə tutulmuş 7 kiloqram 730 qram ağırlığında olan C-4 partlayıcı maddənin olduğu aşkarlanıb.

Daha ətraflı məlumatı DTX-nin "Yutub" kanalında izləyə bilərsiniz.

# Azərbaycan İranın dron hücumları ilə bağlı beynəlxalq dəstəyə görə təşəkkür edib

**Azərbaycanın Xarici İşlər Nazirliyi (XİN) İran tərəfindən Azərbaycan ərazisinə qarşı həyata keçirilmiş dron hücumlarından sonra beynəlxalq tərəfdaşlardan daxil olan dəstək bəyanatları, məktublar və telefon zənglərinə görə minnətdarlığını bildirib.**

AZƏRTAC-ın xəbərinə görə, XİN-in məlumatında qeyd olunub ki, Azərbaycanla nümayiş etdirilən həmrəylik, eləcə də ölkənin suverenliyinə, ərazi bütövlüyünə və sərhədlərinin toxunulmazlığına göstərilən açıq dəstək yüksək qiymətləndirilir.

Bildirilib ki, bu müddətdə Azərbaycanla həmrəylik nümayiş etdirən bütün ölkələrə və beynəlxalq təşkilatlara təşəkkür edilir, onların davamlı dəstəyi və əməkdaşlığı yüksək dəyərləndirilir.

# Ceyhun Bayramov moldovalı həmkarını Naxçıvana edilən dron hücumları barədə məlumatlandırıb

**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Moldovanın Baş nazirinin müavini, xarici işlər naziri Mixay Popşoi arasında təkbətək və geniştərkibli görüşlər keçirilib.**

AZƏRTAC xəbər verir ki, nazirlər ikitərəfli siyasi dialoqun davam etdirilməsi və genişləndirilməsi yollarını, iqtisadiyyat, enerji, nəqliyyat və humanitar sahələrdə əməkdaşlığın daha da inkişaf etdirilməsini, həmçinin Birləşmiş Millətlər Təşkilatı və ATƏT də daxil olmaqla, beynəlxalq təşkilatlar çərçivəsində birgə fəaliyyətin əlaqələndirilməsi məsələlərini müzakirə ediblər.



Nazirlər həmçinin Yaxın Şərqdə formalaşan gərgin və dəyişkən təhlükəsizlik vəziyyətinə də toxunublar. C.Bayramov martın 5-də İran tərəfindən Azərbaycanın Naxçıvan Muxtar Respublikasına həyata keçirilən dron hücumları ilə bağlı ciddi narahatlığımızı ifadə edib. Hücum nəticəsində mülki infrastruktur obyektlərinə, o cümlədən hava limanına və məktəb binasına ziyan dəydiyini, mülki şəxslərin yaralandığını qonağın diqqətinə çatdırıb.

Nazir həmçinin moldovalı həmkarına Azərbaycan ilə Ermənistan arasında davam edən normallaşma və sülh prosesi barədə məlumat verib.

# Mədəniyyət komitəsinin iclası keçirilib

**Martın 6-da Milli Məclisin Mədəniyyət komitəsinin iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasda "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi ikinci oxunuşda müzakirə olunub.**

Komitənin sədri Polad Bülbüloğlu qeyd edib ki, qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasında geniş müzakirə olunaraq qəbul edilib.

Parlament Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev deputatların müzakirələrdə səsləndirdikləri fikirləri və təklifləri diqqətə çatdırıb. Qeyd olunub ki, "mədəniyyət sənayesi" anlayışının "mədəni və yaradıcı sənaye" anlayışı ilə əvəz edilməsi beynəlxalq terminologiyaya uyğundur. Vurğulanıb ki, "mədəni və yaradıcı sənayelər" ifadəsi yeni anlayış deyil, milli qanunvericilik aktlarında bu öz əksini tapıb. Həmçinin "Normativ-hüquqi aktlar haqqında" Konstitusiya qanununun "Normativ-hüquqi aktın mətninə dair üslub tələbləri" adlanan 56-cı maddəsində imperativ norma kimi təsbit olunub ki, normativ-hüquqi aktın mətnində eyni mənada müxtəlif anlayışların (terminlərin) işlədilməsinə yol verilmir.

İclasda iştirak edən mədəniyyət nazirinin müavini Səadət Yusifova "Mədəniyyət haqqında" qanuna mədəniyyət sahəsində layihələrin maliyyələşdirilməsi ilə bağlı təklif olunan yeni 45.4-cü maddə ilə bağlı məlumat verib. O, bildirib ki, təklif edilən dəyişiklik mədəniyyət sahəsində keçirilən tədbirlərin qrant maliyyələşdirilməsi mexanizminin genişləndirilməsini nəzərdə tutur. Belə ki, qeyri-hökumət təşkilatları ilə yanaşı, hüquqi şəxslərin digər növlərinin, eləcə də fiziki şəxslərin bu prosesdə iştirakının tənzimlənməsi üçün xüsusi qaydanın təsdiqi nəzərdə tutulub. Nazir müavini bu istiqamətdə görülən işlər barədə də məlumat verib.

Müzakirələrdə deputatlar Əlibala Məhərrəmzadə, Şahin Seyidzadə, Tənzilə Rüstəmxanlı, Cavanşir Feyziyev, Novruzəli Aslanov, Sahib Alıyev, Əqli Mülkiyyət Agentliyi Aparatının rəhbəri Xudayət Həsənli çıxış edərək dəyişikliklərlə bağlı rəy və təkliflərini söyləyiblər.

Qanun layihəsi ikinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə edilib.

*"Azərbaycan"*

# Ceyhun Bayramovun həmkarları ilə telefon danışığı olub









Martın 6-da İtaliya Respublikasının Baş nazirinin müavini, xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Antonio Tayani Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramova zəng edib.

Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, telefon danışığı zamanı tərəflər regionda yaranmış təhlükəsizlik vəziyyəti, xüsusilə də İran tərəfindən Azərbaycan ərazisinə qarşı həyata keçirilmiş dron hücumları ilə bağlı fikir mübadiləsi aparıblar.

Nazir Ceyhun Bayramov Azərbaycan ərazisinə qarşı həyata keçirilmiş bu cür hücumların qəbuledilməz olduğunu vurğulayaraq, ölkəmizin suverenliyi və ərazi bütövlüyünə qarşı yönəlmiş hər hansı addımın beynəlxalq hüquqa zidd olduğunu qeyd edib. Bildirib ki, mülki əhali və infrastruktur üçün risk yaradan bu kimi hərəkətlər regionda təhlükəsizlik və sabitliyə ciddi təhdid doğurur.

Nazir Antonio Tayani mövcud vəziyyətlə bağlı narahatlığını ifadə edərək, həmrəyliyini bildirib. O, regionda sabitliyin bərpa olunmasının əhəmiyyətini qeyd edib.

Antonio Tayani İtaliya vətəndaşlarının Azərbaycan Respublikasının ərazisindən istifadə etməklə təxliyəsinə yaradılmış şəraitə görə Azərbaycan tərəfinə təşəkkürünü ifadə edib. Göstərilmiş dəstəyin yüksək qiymətləndirildiyini bildirib.

Telefon danışığı zamanı tərəflər, həmçinin iki ölkə arasında strateji tərəfdaşlıq çərçivəsində əməkdaşlığın perspektivlərini müzakirə ediblər.

* * *

Martın 6-da Monteneqronun Baş nazirinin müavini və xarici işlər naziri Ervin İbrahimoviç Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramova zəng vurub.

Xarici İşlər Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, telefon danışığı zamanı regional təhlükəsizlik məsələləri geniş müzakirə olunub. Tərəflər Yaxın Şərqdə mövcud vəziyyətin gərginləşməsi fonunda diplomatik səylərin artırılmasının və beynəlxalq hüququn norma və prinsiplərinə hörmətin qorunmasının vacibliyini qeyd ediblər.

Danışıq zamanı Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov həmkarına martın 5-də Naxçıvan Muxtar Respublikası ərazisinə qarşı İran İslam Respublikası tərəfindən həyata keçirilmiş dron hücumları barədə məlumat verib. Bu addımın ölkəmizin ərazi bütövlüyünə və beynəlxalq hüquqa zidd olduğu vurğulanıb.

Nazir Ervin İbrahimoviç İranın ölkəmizə qarşı etdiyi dron hücumlarını qətiyyətlə pisləyib, narahatlıq doğurduğunu bildirərək, Azərbaycanın mövqeyini anlayışla qarşıladığını və ölkəmizlə həmrəy olduğunu qeyd edib.

Telefon danışığı zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Martın 6-da Litvanın xarici işlər naziri Kestutis Budris Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramova zəng edib.

Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, telefon danışığı zamanı nazir Ceyhun Bayramov qarşı tərəfə İranın dron hücumları barədə ətraflı məlumat verib.

Azərbaycanın ərazisinə qarşı həyata keçirilmiş bu hücumun beynəlxalq hüququn norma və prinsiplərinin kobud pozuntusu olduğu və regionda gərginliyin artmasına xidmət etdiyi vurğulanıb.

Litva naziri Azərbaycanın ərazisinə qarşı dron hücumlarını pisləyib, bunun dərin narahatlıq doğurduğunu, ölkəmizlə həmrəy olduğunu bildirib. Bu kimi hücumların regionda gərginliyin daha da artmasına xidmət etdiyi vurğulanıb.

Telefon danışığı zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Martın 6-da Belarusun xarici işlər naziri Maksim Rıjenkov Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramova zəng vurub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, telefon danışığı zamanı nazirlər regionda baş verən son hadisələr ətrafında fikir mübadiləsi aparıblar. Hərbi eskalasiya ilə bağlı narahatlıq ifadə olunaraq, gərginliyin daha da artmasına səbəb ola biləcək addımlardan çəkinməyin vacibliyi vurğulanıb.

Ceyhun Bayramov belaruslu həmkarını martın 5-də İran İslam Respublikası tərəfindən Azərbaycanın Naxçıvan Muxtar Respublikasına qarşı həyata keçirilmiş dron hücumları barədə məlumatlandırıb.

Nazirlər həmçinin qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

* * *

Martın 6-da Mərakeş Krallığının xarici işlər, Afrika ilə əməkdaşlıq və xaricdəki mərakeşlilər naziri Nasser Bourita Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramova zəng edib.

Xarici İşlər Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, telefon danışığı zamanı nazir Ceyhun Bayramov həmsöhbətinə Naxçıvan Muxtar Respublikası istiqamətində İran İslam Respublikası tərəfindən həyata keçirilmiş dron hücumları barədə geniş məlumat verib.

Nazir qeyd edib ki, Azərbaycanın ərazisinə qarşı bu cür addımlar ölkənin suverenliyinə zidd olmaqla yanaşı, beynəlxalq hüququn norma və prinsiplərinin ciddi şəkildə pozulmasıdır və regionda gərginliyin artmasına xidmət edir.

Nazir Nasser Bourita Azərbaycanın ərazisinə qarşı dron hücumlarını qətiyyətlə pisləyib, bunun narahatlıq doğurduğunu bildirərək, ölkəmizlə həmrəyliyini ifadə edib.

Telefon danışığı zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Martın 6-da Sudanın xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Muhi Əl-Din Salem Ahmed Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramova zəng vurub.

Xarici İşlər Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, telefon danışığı zamanı nazir Ceyhun Bayramov martın 5-də İran İslam Respublikası tərəfindən Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ərazisinə qarşı dron hücumları həyata keçirdiyini bildirib. C.Bayramov bunun mülki infrastruktur və şəxslərə zərər verdiyini qeyd edib, dron hücumlarının suverenliyimizə və ərazi bütövlüyümüzə zidd olduğunu vurğulayıb.

İran İslam Respublikasından qeyd olunan hücuma aydınlıq gətirilməsini, izahat verilməsini, üzrxahlıq edilməsini, bu kimi halların təkrarlanmaması üçün zəruri təxirəsalınmaz tədbirlər görülməsini tələb etdiyimiz Sudan tərəfinin diqqətinə çatdırıb.

Nazir Muhi Əl-Din Salem Ahmed bu hücumlardan narahatlıq ifadə edib, mülki infrastrukturun hədəf alınmasının qəbuledilməz olduğunu bildirib.

Nazirlər həmçinin iki ölkə arasında əməkdaşlıq məsələlərini müzakirə ediblər.

# "TDT Azərbaycan Hökuməti və xalqı ilə tam həmrəyliyini bir daha vurğulayır"

**Türk Dövlətləri Təşkilatı (TDT) İran İslam Respublikasının pilotsuz uçuş aparatları (PUA) vasitəsilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasının mülki infrastruktur obyektlərinə hücumu ilə bağlı bəyanat yayıb.**

AZƏRTAC xəbər verir ki, TDT-nin baş katibi Kubanıçbek Ömüralıyevin imzası ilə yayımlanan bəyanatda bu hücumların kəskin şəkildə qınanıldığı bildirilir.

Baş katib bu cür hərəkətlərin təkrarlanmasının qarşısının alınmasının vacibliyini vurğulayaraq, regional vəziyyətin daha da pisləşməsinin və bölgədə gərginliyin artması ehtimalının qarşısını almaq məqsədilə təmkinli olmağa çağırır.

Ömüralıyev həmçinin TDT Katibliyinin Azərbaycan Respublikasının Hökuməti və qardaş Azərbaycan xalqı ilə tam həmrəyliyini bir daha vurğulayıb.

# Azərbaycan xalqı əmin olmalıdır ki, istənilən bəd qüvvə onlara qarşı bizim "dəmir yumruğ"umuzu görəcək



## "Dəmir yumruq" yerindədir: gücümüzü sınağa çəkməyin!

**Azərbaycan dövləti öz milli maraqlarını və suverenliyini hədəf alan hər bir xain əmələ qarşı həmişə sarsılmaz iradə nümayiş etdirib. Martın 5-də Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən Təhlükəsizlik Şurasının iclası bir daha təsdiqlədi ki, ölkəmizə qarşı yönələn heç bir təhdid cavabsız qalmayacaq. Dövlət başçısı ölkəmizin sarsılmaz qüdrətini bu sözlərlə bəyan etdi: "Biz öz ərazi bütövlüyümüzü qoruyuruq və qorumuşuq. Necə ki, Ermənistan işğalına son qoymuşuq, istənilən şər qüvvəyə qarşı öz gücümüzü göstərməyə hazırıq və İranda bunu unutmasınlar".**

Ölkəmiz hərbi təcavüzdən tutmuş terror aktlarına qədər istənilən çirkin plana layiqli cavab vermək iqtidarındadır. Heç bir ölkə Azərbaycanla təhdid və şantaj dilində danışa bilməz. Bu, illərdir regionda "şər yuvası" funksiyasını yerinə yetirən və hər fürsətdə nankorluq nümayiş etdirən İran molla rejiminə də şamil edilir.

Prezident İlham Əliyev iclasda qətiyyətlə vurğuladı ki, Azərbaycan dövləti bu çirkin terror aktını qətiyyətlə pisləyir, bunu törədənlər dərhal məsuliyyətə cəlb edilməlidir. Azərbaycan tərəfinə İran rəsmiləri tərəfindən izahat verilməlidir, üzr istənilməlidir və bu terror aktını törədənlər cinayət məsuliyyətinə cəlb edilməlidirlər.

### Mülki hədəflərə namərd hücumu

Martın 5-də İran tərəfinin Azərbaycan ərazilərini pilotsuz uçuş aparatları (PUA) ilə atəşə tutması bu ölkənin əsl xislətini bir daha üzə çıxardı. Naxçıvan Muxtar Respublikasında mülki obyektlərin - Naxçıvan Beynəlxalq Hava Limanının, onun terminal binasının, məktəb və digər ərazilərin hədəfə alınması birbaşa terror aktı və namərdlikdir.

Rəsmi Bakı İranda cərəyan edən hadisələrin sülh yolu ilə həllinə tərəfdar olduğunu bəyan edərək tərəfləri daim dialoqa səsləyib. Cəmi bir neçə gün əvvəl - martın 1-də Prezident İlham Əliyev İran Prezidenti Məsud Pezeşkiana ünvanladığı məktubda İran xalqına sülh və sabitlik arzulamış, başsağlığı vermişdi.

Eyni zamanda dövlətimizin başçısı İranın ölkəmizdəki səfirliyində olub, başsağlığı verib. Halbuki Azərbaycan Prezidentindən başqa heç bir dövlət başçısı İranın səfirliyinə getməyib.

Amma bu dostluq və humanizm jestlərinə cavab olaraq, İran rejimi öz nankor xislətinə sadiq qalaraq Azərbaycanın mülki şəxslərini yaralayıb.

Bu, İranın ilk xəyanəti deyil. Biz həm Birinci, həm də İkinci Qarabağ müharibələri zamanı bu "islam" ölkəsinin müsəlman qardaşlarının deyil, işğalçı Ermənistanın yanında durduğunu görmüşük. 30 il boyunca torpaqlarımızda məscidlərin dağıdılmasına səssiz qalan Tehran hər zaman Azərbaycanın uğurlarına düşmən kəsilib. Prezident İlham Əliyev bu xain davranışları belə xatırlatdı: "Birinci dəfə deyil ki, İran dövləti Azərbaycana və azərbaycanlılara qarşı terror aktları həyata keçirir. Hamımız yaxşı xatırlayırıq ki, bir müddət bundan əvvəl Azərbaycanın Tehrandakı səfirliyi terror aktına məruz qalmışdır... Bildiyiniz kimi, o vaxt Azərbaycan bu hadisəyə çox sərt reaksiya vermişdi, Azərbaycan səfirliyi İrandan təxliyə edilmişdi, bütün diplomatik əlaqələr dayandırılmışdı. İran tərəfi bizdən üzr istəməyə, öz günahını etiraf etməyə məcbur olmuşdu. O terror aktını törədənə bizim təkidimizlə ən ağır cəza da verilmişdi".

### İrana son xəbərdarlıq

İranın son terror aktı da cavabsız qalmayacaq. Rəsmi Bakı artıq lazımi mesajları verib. Prezident İlham Əliyev Silahlı Qüvvələrə konkret tapşırıqlar verərək bəyan etdi ki, Azərbaycan bu təcavüzlə heç vaxt barışmayacaq: "Silahlı Qüvvələrimizə təlimat verildi ki, cavab tədbirləri hazırlansın və həyata keçirilsin".

Azərbaycanın xarici siyasəti şəffaf və prinsipialdır. Rəsmi Bakı hər zaman bildirib ki, bizim ərazimizdən heç vaxt üçüncü tərəfə qarşı istifadə oluna bilməz.

Bu mövqe yanvarın 29-da xarici işlər naziri Ceyhun Bayramov tərəfindən iranlı həmkarına da çatdırılmışdı. Lakin görünən odur ki, İran tərəfi ədalətli qonşuluq münasibətlərini deyil, nankorluğu seçir.

Dron hücumları, şər-böhtan kampaniyaları Azərbaycanı məqsədindən döndərə bilməz. Milli maraqlarımıza əl uzadan istənilən güc diz çökdürüləcək. Dövlət başçısının Təhlükəsizlik Şurasının iclasındakı son xəbərdarlığı nankor qonşu üçün həlledici dərsin anonsudur:

"Bu şərəfsizlər, bizə qarşı bu terror aktını törədənlər peşman olacaqlar. Bizim gücümüzü sınamasınlar. Bizim gücümüzü sınamaq istəyənlərin başı "dəmir yumruq" vasitəsilə yarıldı. Bugünkü hadisə də eyni nəticəni hasil edəcək".

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## Prinsipial mövqenin göstəricisi

**"İran Silahlı Qüvvələri tərəfindən Naxçıvan Muxtar Respublikasına xain dron hücumu və bu məsələnin Prezident İlham Əliyevin sədrliyi ilə Azərbaycanın Təhlükəsizlik Şurasının iclasında müzakirə olunması rəsmi Bakının dövlət təhlükəsizliyi məsələlərinə nə qədər önəm verdiyinin təsdiqidir. Prezident İlham Əliyev tərəfindən səsləndirilən sərt mesajlar konkret hadisəyə münasibət olmaqla yanaşı, həm də İran başda olmaqla ölkəmizə qarşı təxribatçı mövqedə olan qüvvələrə xəbərdarlıq idi".**



Bunu Milli Məclisin deputatı Könül Nurullayeva qəzetimizə açıqlamasında bildirib. Deputat qeyd edib ki, coğrafi baxımdan blokada şəraitində yerləşən Naxçıvan eyni zamanda regionun mühüm geosiyasi hissəsi sayılır: "Belə bir əraziyə qarşı pilotsuz uçuş aparatı ilə həyata keçirilən hücum təkcə lokal insident deyil, Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə yönəlmiş təhlükəli presedent kimi qiymətləndirilməlidir. Rəsmi Bakı bu hadisəyə dərhal siyasi və diplomatik reaksiya verdi. Təhlükəsizlik Şurasının iclasında dövlət başçısı açıq şəkildə bildirdi ki, Azərbaycan öz sərhədlərinin toxunulmazlığını təmin etmək üçün bütün zəruri addımları atmağa qadirdir. Ali Baş Komandanın tapşırığı ilə Azərbaycan Silahlı Qüvvələrinin birnömrəli səfərbərlik halına gətirilməsi bunu sübut edir. Bu mövqe həm ölkə daxilində təhlükəsizlik sisteminin gücləndirilməsini göstərir, həm də region ölkələrinə açıq mesajdır".

Deputat qeyd edib ki, Azərbaycan İran tərəfindən məsələnin ciddi şəkildə araşdırılmasını və izahat verilməsini tələb edir. Rəsmi Bakı öz təhlükəsizliyini təmin etmək üçün bir daha iradəsini ortaya qoydu. Burada əsas məqsəd potensial təhlükələrin qarşısını almaqdır. Azərbaycanın xarici siyasətində əsas prinsiplərdən biri regional sabitliyin qorunmasıdır, lakin rəsmi Bakı açıq şəkildə göstərir ki, dövlət sərhədlərinə yönələn hər hansı təhdid cavabsız qalmayacaq.

Hadisənin Cənubi Qafqazda dəyişən geosiyasi balans fonunda baş verdiyini bildirən K.Nurullayeva vurğulayıb ki, Azərbaycanın son illərdə regionda artan siyasi və iqtisadi çəkisi, xüsusilə enerji və nəqliyyat layihələrində oynadığı rol yeni reallıqlar yaradıb: "Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən beynəlxalq enerji və nəqliyyat layihələri ölkəni Avrasiya məkanında mühüm strateji tərəfdaşa çevirib. Bu baxımdan regionda baş verən hər hansı təhlükəsizlik insidenti təkcə Azərbaycan üçün deyil, geniş coğrafiya üçün də ağır nəticələrə səbəb ola bilər. Azərbaycan milli təhlükəsizlik məsələlərində prinsipial mövqe tutur. Prezident İlham Əliyevin çıxışı dövlətin milli maraqlarının qorunmasının prioritet olduğunu açıq şəkildə ortaya qoydu. Bu, bir daha göstərir ki, müasir beynəlxalq münasibətlər sistemində dövlətlərin təhlükəsizliyi yalnız diplomatik bəyanatlarla deyil, güclü siyasi iradə və effektiv müdafiə sistemi ilə təmin olunur".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# İran terrorçu xislətini bir daha nümayiş etdirdi

**İranın martın 5-də Naxçıvan Muxtar Respublikasına, o cümlədən Beynəlxalq Hava Limanına və Şəkərabad kəndi yaxınlığındakı məktəb ərazisinə pilotsuz uçuş aparatları vasitəsilə hücum etməsi Cənubi Qafqazda ən təhlükəli hərbi təxribatlarından biri kimi tarixə yazıldı. Azərbaycanın dövlət sərhədlərinə qarşı törədilən bu hücum, sadəcə, lokal sərhəd insidenti deyil, həm də İran hakimiyyətinin regional siyasətdə nə qədər riskli və avantürist bir yol seçdiyini sübut edən nümunədir.**

Bu hücum İranın uzun illər ərzində Azərbaycana qarşı sərgilədiyi qeyri-səmimi və düşmənçilik mövqeyinin növbəti təzahürüdür. Bir dövlətin suveren ərazisinə, xüsusən də mülki infrastruktura dronlarla zərbə endirilməsi beynəlxalq hüququn norma və prinsiplərinin, dövlətlərin ərazi bütövlüyünün kobud pozulmasıdır. Mülki şəxslərin xəsarət alması və ictimai təhlükəsizliyin təhdid altına düşməsi bu addımı "təsadüfi" izahlarla pərdələməyi imkansız edir. İran qəribə şəkildə hücumu təkzib etsə də, hadisə yerindən yayılan görüntülər, mülki şəxslərin yaralanması və dövlət qurumlarımızın rəsmi bəyanatları bunun əksini təsdiqləyir.

Azərbaycanın rəsmi mövqeyi bu hücumu çox sərt şəkildə qınadı. Prezident İlham Əliyev Təhlükəsizlik Şurasının iclasında İranın addımını açıq şəkildə terror aktı adlandırdı və bəyan etdi ki, Azərbaycanın ərazisinə qarşı həyata keçirilən bu hücum cavabsız qalmayacaq. Prezident vurğuladı ki, İranın pilotsuz aparatlarının Naxçıvanda mülki obyektləri, hava limanının terminalını və digər infrastrukturu hədəfə alması beynəlxalq hüququn kobud şəkildə pozulmasıdır. Dövlət başçısı həmçinin İran rəhbərliyindən rəsmi izahat və üzr tələb olunduğunu, bu hücuma görə məsul olan şəxslərin cinayət məsuliyyətinə cəlb edilməli olduğunu diqqətə çatdırdı: "Bu gün İran tərəfindən Azərbaycan ərazisinə qarşı, Azərbaycan dövlətinə qarşı terror aktı törədilmişdir. Naxçıvan Muxtar Respublikasının ərazisini İran dövləti pilotsuz uçuş aparatları ilə atəş altına salmışdır. Atəşin hədəfləri mülki obyektlər idi. Naxçıvan Beynəlxalq Hava Limanı, onun terminal binası, məktəb və digər istiqamətlər İran tərəfindən namərd atəşə məruz qalmışdır. Azərbaycan dövləti bu çirkin terror aktını qətiyyətlə pisləyir, bunu törədənlər dərhal məsuliyyətə cəlb edilməlidir. Azərbaycan tərəfinə İran rəsmiləri tərəfindən izahat verilməlidir, üzr istənilməlidir və bu terror aktını törədənlər cinayət məsuliyyətinə cəlb edilməlidir".

Dövlət başçısının bu bəyanatı Azərbaycanın İranın təxribatçı hərəkətlərinə qarşı tutduğu qətiyyətli, hüquqi və prinsipial mövqeyi ifadə edən ən yüksəksəviyyəli siyasi mesajdır. Prezident İran rəhbərliyi qarşısında konkret və yerinə yetirilməsi zəruri olan üç şərt qoydu: izahat, üzr və cəzalandırma. Rəsmi Tehran bu təcavüzün hansı səbəblə və kimin göstərişi ilə baş verdiyini mütləq açıqlamalıdır. Dövlət səviyyəsində istəniləcək üzr, qarşı tərəfin öz səhvini və ya məsuliyyətsizliyini etiraf etməsi deməkdir. Bu, sadəcə, diplomatik ritorika deyil, hüquqi tələbdir. Hücumu planlaşdıran və icra edən şəxslərin cəzalandırılması gələcəkdə oxşar halların qarşısının alınması üçün ən təsirli mexanizmdir.

Prezidentin bu məqamı xüsusi vurğulaması Azərbaycanın öz ərazi bütövlüyünü və hər bir qarış torpağının təhlükəsizliyini qorumaqda nə qədər həssas və qətiyyətli olduğunu dünyaya göstərir. Ona görə də rəsmi Bakı haqlı olaraq İrandan bu insidentin araşdırılmasını, izahat verilməsini və gələcəkdə belə halların təkrarlanmaması üçün təxirəsalınmaz tədbirlər görülməsini tələb edir.

İran hakimiyyəti anlamalıdır ki, Azərbaycan müstəqil və suveren bir dövlətdir və onun təhlükəsizliyi heç bir kənar qüvvə tərəfindən təhdid edilə bilməz. Dövlət başçısı İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi, Azərbaycan bu növ təcavüzkar hərəkətləri cavabsız qoymayacaq və dövlətin suverenliyini qorumaq üçün bütün lazım olan tədbirləri görəcək. Naxçıvanın hədəf seçilməsi də təsadüfi deyil. Bu bölgəyə hərbi təcavüz faktiki olaraq bölgənin hüquqi-siyasi balansına qarşı yönəlmiş təxribatdır və İranın bu addımı təkcə Azərbaycana yox, bütövlükdə regional təhlükəsizlik memarlığına meydan oxumaq cəhdidir. Bu hücum İranın beynəlxalq hüquq prinsiplərini kobud şəkildə tapdalaması və regionda sülhə qarşı yönəlmiş məsuliyyətsiz siyasətin birbaşa nəticəsidir.



Prezident İlham Əliyev iclasda xüsusi qeyd etdi ki, Azərbaycan İran əleyhinə heç bir hərbi əməliyyatda iştirak etməyib və etməyəcək. Bakı dəfələrlə Tehrana təminat verib ki, Azərbaycan ərazisindən heç bir qonşu dövlətə qarşı istifadə olunmayacaq. Buna baxmayaraq, İranın Azərbaycanın ərazisinə pilotsuz aparatlarla hücum etməsi nə diplomatik etikaya, nə də dövlətlərarası münasibətlərin elementar normalarına sığır: "Dəfələrlə İran tərəfinə, xüsusilə keçən il baş vermiş toqquşmalardan sonra bildirilmişdir ki, Azərbaycan ərazisindən heç bir qonşu dövlətə qarşı istifadə olunmayacaq. Biz buna imkan verməyəcəyik, necə ki, heç vaxt bu günə qədər imkan verməmişik. Düzdür, keçən ilin yay aylarında və ondan sonrakı dövrdə İrandan bizə əsassız ittihamlar irəli sürülürdü. İranın dövlət qurumlarının nəzarətində olan media resursları Azərbaycanı ləkələmək, İranda yaşayan soydaşlarımızın fikrini dəyişdirmək üçün Azərbaycana qarşı çirkin, şər-böhtan kampaniyası aparırdı. Çünki yaxşı bilirlər ki, bu gün müstəqil Azərbaycan dövləti İranda yaşayan bir çox azərbaycanlılar üçün də ümid yeridir".

Ümumiyyətlə, Tehranın ABŞ və İsraillə olan qarşıdurmasını qonşu dövlətlərə yönəltməsi narahatedici tendensiyadır. İranın hazırkı rejimi region ölkələrə qarşı aqressiv və idarəolunmaz addımlar atmaqla mövcud gərginliyi maksimum həddə çatdırır. Ərəb dövlətlərinin İran tərəfindən intensiv raket və pilotsuz uçuş aparatları vasitəsilə hücumlara məruz qalması bu vəziyyətin ciddiliyini göstərir. Bir müddət öncə ehtimal edilirdi ki, daxili böhran yaşayan rəsmi Tehran Azərbaycan və Türkiyəni də hədəfə ala bilər. Lakin rasionallıq çərçivəsində belə bir addımın atılması absurd və məntiqsiz hesab olunurdu. Buna baxmayaraq, Türkiyənin Hatay və Azərbaycanın Naxçıvan bölgələrinə edilən PUA hücumları molla rejiminin beynəlxalq hüququ və real vəziyyəti gözardı etdiyini təsdiqləyir.

Azərbaycanın hərbi əməliyyatlarda neytral mövqe tutmasına baxmayaraq, belə bir addımın atılması rəsmi Tehranın bölgədə sabitliyi pozmaqda maraqlı olduğunu aşkara çıxarır. Ölkəmiz daim regiondakı genişmiqyaslı münaqişələrdə neytral və təmkinli mövqe nümayiş etdirib. Bakı nə İran-ABŞ gərginliyinin, nə də Yaxın Şərqdə cərəyan edən digər böhranların tərəfi olub. Əksinə, Azərbaycan rəhbərliyi dəfələrlə bəyan edib ki, regional problemlər yalnız qarşılıqlı dialoq və əməkdaşlıq çərçivəsində həll olunmalıdır. Buna baxmayaraq, Tehranın Azərbaycana qarşı bu cür aqressiv davranışları İranın reallıqlardan daha çox, süni siyasi qorxularla hərəkət etdiyini göstərir.

Bu hücum həm də İranın daxili siyasi sistemindəki dərin çatların nəticəsi kimi qiymətləndirilə bilər. İranın dövlət idarəçiliyində ciddi nüfuza malik olan İslam İnqilabı Keşikçiləri Korpusu (SEPAH) uzun illərdir ki, regional siyasətdə əsas hərbi amil kimi çıxış edir. Bu qurumun hərbi, iqtisadi və siyasi alətlərinin geniş olması zaman-zaman dövlət siyasətinin daha radikal və destruktiv məcraya yönəlməsinə şərait yaradır. Naxçıvana qarşı reallaşdırılan bu hücum da avantürist yanaşmanın təzahürü kimi görülür. Əks halda Azərbaycanın ABŞ və İsrailin İrana qarşı hərbi addımlarında iştirak etmədiyi və heç bir dəstək vermədiyi bir şəraitdə Naxçıvan aeroportunun hədəfə alınması tamamilə anlaşılmaz və qəbuledilməzdir.

İranın bu təxribatı Azərbaycanın regiondakı artan nüfuzunu, Zəngəzur dəhlizinin (TRIPP) açılması perspektivini və ölkəmizin müstəqil xarici siyasət kursunu həzm edə bilməməkdən irəli gəlir. Bu, həm də türk dünyasının güclənməsinə qarşı İranın qısqanclıq və regional oyunçu kimi nüfuzunu qorumaq üçün göstərilən hikkəli bir cəhddir. Bu narahatlıq bəzən destruktiv xarakter alaraq, Tehranın Bakıya qarşı "qırmızı xətlər" çəkmək cəhdləri və hətta təxribatçı addımları ilə müşayiət olunur. Azərbaycanın İrandakı səfirliyinə qarşı törədilmiş terror aktı da bu gərginliyin bariz nümunələrindən idi. Terrorçunun layiqli cəzasına çatdırılması İranın xoş niyyəti deyil, məhz Azərbaycan dövlətinin və Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsinin nəticəsi idi.

Nəticə etibarilə rəsmi Tehranın bu destruktiv xətti onun regional siyasətdəki uğursuzluqlarını pərdələmək cəhdindən başqa bir şey deyil. İran hakimiyyəti anlamalıdır ki, Azərbaycanla münasibətləri gərginləşdirmək, dövlət sərhədlərini və suverenliyi hədəf almaq Tehranın özünə qarşı çevrilən bumeranq effekti yaradır. Tarixi reallıqlar və regiondakı qüvvələr nisbəti göstərir ki, Bakıya qarşı aparılan şər-böhtan kampaniyaları və ya hərbi təxribatlar Azərbaycanın müstəqil xarici siyasət kursunu zəiflədə bilməz. Əksinə, belə addımlar rəsmi Bakını öz təhlükəsizlik sistemini daha da gücləndirməyə, müttəfiqlik münasibətlərini dərinləşdirməyə və regional təhlükəsizliyin qarantı kimi mövqeyini möhkəmləndirməyə vadar edir. Məhz Bakının prinsipial siyasətinin və qətiyyətinin nəticəsidir ki, İran tərəfi Prezidentimizin sərt bəyanatından dərhal sonra təxribatın araşdırılacağına söz verib. Sülh və sabitlik istəyən Azərbaycan üçün diplomatik kanallar hər zaman açıqdır, ancaq dövlətimiz öz təhlükəsizliyini qorumaq üçün hər hansı bir güzəştə getmək niyyətində deyil.

***Asif ƏSGƏROV,***
***Milli Məclisin deputatı***

## Medianın İnkişafı Agentliyi informasiya təxribatını pisləyib

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin açıqlaması sosial şəbəkələrdə Azərbaycana qarşı sistemli dezinformasiyanı pisləyən bəyanat yayıb.**

AZƏRTAC xəbər verir ki, bəyanatda deyilir: "Son dövrlər sosial şəbəkələrdə özünü "Qəzetçi" kimi təqdim edən səhifə tərəfindən Azərbaycanla bağlı sistemli şəkildə dezinformasiya xarakterli məlumatların tirajlanması müşahidə olunmaqdadır.

İctimai rəydə çaşqınlıq yaradan, əsas missiyası xaricdən ölkəmizin informasiya mühitini çirkləndirmək olan bu "resurs" guya 150 nəfər həkim və feldşerin hərbi səfərbərliyə cəlb edilərək İranla sərhəddə yerləşən Astara və Füzuli rayonlarına göndərildiyinə dair həqiqətə uyğun olmayan məlumat yaymışdır.

Bu kimi informasiya təxribatlarını qəti şəkildə pisləyir və bəyan edirik ki, belə pozuculuq fəaliyyəti hüquqi məsuliyyət yaradır.

Bütün media subyektlərini, jurnalistləri, ictimai fəalları fəaliyyətlərində yalnız rəsmi mənbələrə istinad etməyə, cəmiyyətdə təşviş doğuran paylaşımlardan çəkinməyə çağırırıq".

# Azərbaycan xalqı əmin olmalıdır ki, istənilən bəd qüvvə onlara qarşı bizim "dəmir yumruğ"umuzu görəcək

## Prezident İlham Əliyevin İranın Azərbaycana dron hücumuna dair fikirləri dünya mediasının diqqət mərkəzindədir

**Azərbaycan Prezidenti İlham Əliyevin martın 5-də İranın Naxçıvana dron hücumu ilə bağlı Təhlükəsizlik Şurasında sərt çıxışı dünyanın aparıcı media orqanlarının diqqət mərkəzindədir.**

AZƏRTAC xəbər verir ki, Almaniya mediası dövlətimizin başçısının çıxışından əsas məqamları işıqlandırıb. "Morgenpost", "Börsen News", "FLZ. News", Tagesspiegel", "Frankfurter Rundschau", "Wirthschau Woche", "Die Zeit", "Ad Hoc News", "Cash Sarganserlander", "Ostfriezen Zeitung" qəzet və portallarının materiallarında Azərbaycanın Naxçıvan Muxtar Respublikasında aeroportun, məktəb binasının və digər mülki obyektlərin dron hücumuna məruz qaldığı diqqətə çatdırılıb. Qeyd olunub ki, Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən Təhlükəsizlik Şurasının iclasında bu hücum sərt şəkildə pislənilib, həmçinin İran səfiri insidentlə bağlı Azərbaycan Xarici İşlər Nazirliyinə çağırılıb. Azərbaycan lideri İranın hücumunu "terror aktı" adlandırıb və onun göstərişi ilə Azərbaycan Silahlı Qüvvələri yüksək döyüş hazırlığına gətirilib.

Britaniya mediası Azərbaycan Prezidenti İlham Əliyevin İranın Naxçıvana pilotsuz uçuş aparatları ilə hücumu barədə səsləndirdiyi fikirləri işıqlandırıb.

Britaniyanın "The Independent" nəşri yazır ki, Azərbaycan Prezidenti dron hücumlarından sonra ölkənin təhlükəsizliyinə təhdid yaradan qüvvələrə qarşı qətiyyətli mövqe nümayiş etdirəcəyini bəyan edib.

Nəşr Prezident İlham Əliyevin "Azərbaycanın gücünü sınayanlar "dəmir yumruq"la əziləcək" sözlərinə yer verib. "The Independent" qeyd edir ki, dronlardan biri Naxçıvanda hava limanı terminalı yaxınlığında partlayıb. Həmçinin məktəb yaxınlığında baş verən partlayış nəticəsində bir neçə nəfərin xəsarət aldığı bildirilir.

Britaniyanın "Daily Mail" nəşri yazır ki, İran tərəfindən buraxılan dronlar Azərbaycanın ərazisinə düşərək partlayışlara səbəb olub. Məqalədə qeyd olunur ki, Prezident İlham Əliyev hadisəni "terror aktı" kimi qiymətləndirərək Azərbaycanın cavab tədbirləri görmək hüququnu özündə saxladığını bildirib.

Qazaxıstan mediası da Azərbaycan Prezidenti İlham Əliyevin Təhlükəsizlik Şurasının iclasındakı çıxışını işıqlandırıb. "Orda.kz" nəşri Azərbaycan Prezidentinə istinadla Naxçıvan ərazisinə edilən dron hücumunun mülki obyektlərə zərər verdiyini bildirib.

"Ulysmedia.kz" yazır ki, dövlət başçısı İrandan izahat və üzr istəməyi tələb edib. Məqalədə qeyd edilir ki, Prezident İlham Əliyev Azərbaycana qarşı terror hücumunu Bakının bundan əvvəlki bütün addımları fonunda həddindən artıq nankorluq aktı adlandırıb.

"Arbatmedia.kz" nəşri isə bildirir ki, Azərbaycan Prezidenti İran tərəfindən izahat tələb edib. Məqalədə o da qeyd olunur ki, dövlət başçısı Azərbaycanın İrana qarşı hər hansı əməliyyatda iştirakını istisna edib.

"Nur.kz" yazır ki, Azərbaycan Prezidenti İranın hücumundan sonra təcili olaraq Təhlükəsizlik Şurasının iclasını çağırıb. Məqalədə vurğulanıb ki, Prezident İlham Əliyev İran tərəfindən Azərbaycana qarşı terror aktının törədildiyini bildirib.

İsveçin "Dagens Nyheter" nəşri yazır ki, Azərbaycan hakimiyyəti ölkə ərazisinə pilotsuz uçuş aparatları ilə endirilən zərbələrə cavab vermək niyyətində olduğunu bəyan edib. Məlumatda qeyd olunur ki, Prezident İlham Əliyevin sözlərinə görə, ordu tam döyüş hazırlığı vəziyyətinə gətirilib və cavab tədbirləri hazırlamaq əmri alıb.

Vurğulanır ki, Bakıda bu hadisə Azərbaycana hücum kimi qiymətləndirilib və İrandan təcili izahat tələb olunub. İranın səfiri Xarici İşlər Nazirliyinə çağırılıb. Həmçinin məlumatda bildirilir ki, hakimiyyət orqanlarının məlumatına görə, insident nəticəsində dörd nəfər yaralanıb, belə ki, bir pilotsuz uçuş aparatı məktəb ərazisinə, digəri isə regionun ən böyük hava limanının yaxınlığına düşüb. Azərbaycan cavab tədbirləri görmək hüququnu özündə saxladığını bəyan edib.




Norveçin "Aftenposten" nəşri yazır ki, Naxçıvanda pilotsuz uçuş aparatları ilə bağlı insidentdən sonra Azərbaycan izahat vermək üçün İran səfirini çağırıb.

Nəşrdə həmçinin bildirilir ki, Azərbaycan hakimiyyəti hadisə nəticəsində mülki şəxslərin zərər çəkdiyini, hava limanının binalarından birinin zədələndiyini açıqlayıb. Xarici İşlər Nazirliyində vurğulanıb ki, ölkə baş verənləri hücum kimi qiymətləndirir və "müvafiq cavab tədbirləri" görmək hüququnu özündə saxlayır. "Bildirilib ki, bu hadisə beynəlxalq hüquq normalarına ziddir və regionda gərginliyin artmasına səbəb olur", - deyə məlumatda vurğulanır.

Rusiya telekanalları və nəşrləri də Azərbaycan Prezidentinin çıxışını geniş işıqlandırır. RF-nin "Birinci" kanalının saytında dərc olunan "Prezident Əliyev Naxçıvana dron hücumunu "çirkin əməl" adlandırıb" sərlövhəli materialda qeyd olunur ki, dövlət başçısı bu insidentlə bağlı Təhlükəsizlik Şurasının iclasında Azərbaycan dövlətinin bu çirkin terror aktını qətiyyətlə pislədiyini, onu törədənlərin dərhal məsuliyyətə cəlb edilməli olduğunu bəyan edib. Prezident əlavə edib ki, İran Azərbaycan tərəfinə izahat verməli və üzr istəməlidir.

"İzvestiya" qəzetinin "İlham Əliyev qoşunların döyüş hazırlığı vəziyyətinə gətirilməsi əmrini verib" sərlövhəli məqaləsində bildirilir ki, İran ərazisindən Azərbaycanın Naxçıvan bölgəsinə dron hücumu ilə bağlı Təhlükəsizlik Şurasının iclasını keçirən Azərbaycan Prezidenti deyib: "Bizim Silahlı Qüvvələrimiz - Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, digər bütün Xüsusi Təyinatlı Qüvvələr birnömrəli səfərbərlik vəziyyətinə gətirilib və istənilən əməliyyatı keçirməyə hazır olmalıdırlar". Diqqətə çatdırılıb ki, dövlət başçısı İranın bu addımını "Azərbaycan dövlətinə qarşı terror aktı" adlandırıb və Tehranın məsuliyyət daşıdığını bildirib. Prezident vurğulayıb: "Bu gün İran tərəfindən Azərbaycan ərazisinə qarşı, Azərbaycan dövlətinə qarşı terror aktı törədilmişdir".

"Komsomolskaya pravda" qəzeti "Azərbaycan Prezidenti Əliyev Naxçıvanda dron insidentini terror aktı adlandırıb" sərlövhəli məqaləsində qeyd olunub ki, Azərbaycanın dövlət başçısı bu hücumu edənlərin məsuliyyətə cəlb olunmasını, habelə İranın Azərbaycandan üzr istəməsini tələb edib. O əlavə edib ki, Müdafiə Nazirliyi və digər güc strukturları birnömrəli səfərbərlik vəziyyətinə gətirilib və istənilən əməliyyatı keçirməyə hazır olmalıdır.

"Kommersant" qəzeti isə İranın Naxçıvana dron hücumu ilə bağlı Azərbaycan Müdafiə Nazirliyinin bəyanatını dərc edib. Nəşr diqqətə çatdırıb ki, bu bəyanatdan əvvəl Prezident İlham Əliyev insidenti pisləyib, onu "çirkin terror aktı" adlandırıb və İranın Azərbaycandan üzr istəməli olduğunu bildirib.

Rusiyanın NTV, RTR, RT telekanallarının saytında yerləşdirilən videomateriallarda da Azərbaycan Prezidenti İlham Əliyevin Naxçıvana dron hücumu ilə bağlı fikirləri yer alıb. Materiallarda vurğulanıb ki, dövlət başçısı ölkəsinin İran müharibəsi ilə bağlı mövqeyini ifadə edərək deyib: "Dəfələrlə İran tərəfinə, xüsusilə keçən il baş vermiş toqquşmalardan sonra bildirilmişdir ki, Azərbaycan ərazisindən heç bir qonşu dövlətə qarşı istifadə olunmayacaq. Biz buna imkan verməyəcəyik, necə ki, heç vaxt bu günə qədər imkan verməmişik".

Azərbaycan Prezidentinin Təhlükəsizlik Şurasının iclasında verdiyi bəyanatlar Rusiyanın "Arqumentı i faktı", "Sputnik", "News.ru", "Yamal media", "Vzqlyad.ru", "Life.ru", "Vedomosti.ru", "Versia.ru", "360.ru", "Fontanka.ru", "Osnmedia.ru", "TVC.ru", "VM.ru", "Radio 1.ru", "Qovorit Moskva.ru" və digər media orqanlarında geniş işıqlandırılıb.

Dövlətimizin başçısının çıxışı ərəb ölkələri mediasının da diqqət mərkəzində olub. "Dostor" və "Al Masr al Youm" nəşrlərinin dərc etdiyi "İranın Naxçıvana dron hücumundan sonra Azərbaycan Prezidenti bəyan etdi: "Qüvvələrimiz istənilən əməliyyatları həyata keçirməyə hazırdır" sərlövhəli məqalədə qeyd olunub ki, Azərbaycan Prezidenti İlham Əliyev Təhlükəsizlik Şurasının iclasında İranın dronlar vasitəsilə Azərbaycana qarşı terror aktı törətdiyini deyib. Materialda vurğulanıb ki, Prezident Əliyev İranın bu insidentlə bağlı Azərbaycana izahat verməli və üzr istəməli olduğunu bildirib. O, həmçinin vurğulayıb ki, Azərbaycan İrana qarşı əməliyyatlarda heç vaxt iştirak etməyib və etməyəcək.

Səudiyyə Ərəbistanının "Arab News" qəzetində dərc olunan məqalədə qeyd olunub ki, Azərbaycan Prezidenti İlham Əliyev cümə axşamı günü dörd nəfərin yaralanması ilə nəticələnən dron hücumlarından sonra İranı "terror aktı" törətməkdə ittiham edib. Materialda deyilir: "Bakı bildirib ki, günorta hücumları Azərbaycanın İranla həmsərhəd olan Naxçıvan anklavına daxil olan ən azı dörd pilotsuz təyyarə ilə bağlı olub. Prezident Əliyev təcili çağırılan Təhlükəsizlik Şurasının iclasında deyib: "Bu gün İran tərəfindən Azərbaycan ərazisinə qarşı, Azərbaycan dövlətinə qarşı terror aktı törədilmişdir. Naxçıvan Muxtar Respublikasının ərazisini İran dövləti pilotsuz uçuş aparatları ilə atəş altına salmışdır. Atəşin hədəfləri mülki obyektlər idi". O bildirib ki, Azərbaycan Ordusuna cavab tədbirləri hazırlamaq və həyata keçirmək tapşırılıb".

"Arab News" Azərbaycan Müdafiə Nazirliyinin İranın dron hücumu ilə bağlı məlumatını və Naxçıvanda yaralıların vəziyyəti haqqında informasiyanı da diqqətə çatdırıb.

"Azadlıq" radiosunun və BBC telekanalının fars dilində xidmətlərinin dərc etdikləri materiallarda diqqətə çatdırılıb ki, Azərbaycan Prezidenti İlham Əliyev İranın Naxçıvana dron hücumunu "terror aktı" adlandırıb. Qeyd olunub ki, Azərbaycan liderinin sözlərinə görə, Tehran bu çirkin əmələ görə Bakıdan üzr istəməli və onu törədənləri cinayət məsuliyyətinə cəlb etməlidir.

"Elasoboa" ərəbdilli portalın məqaləsində isə qeyd olunub ki, Azərbaycan Prezidenti İlham Əliyev İranın Naxçıvana dron hücumu ilə bağlı qətiyyətli mövqeyini ifadə edib: "...istənilən şər qüvvəyə qarşı öz gücümüzü göstərməyə hazırıq və İranda bunu unutmasınlar". O əlavə edib ki, bu ləkə onların çirkin və eybəcər simasından heç vaxt silinməyəcək. Ona görə diplomatik yollarla bütün lazımi tədbirlər görüləcək. "Bizim Silahlı Qüvvələrimiz - Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, digər bütün Xüsusi Təyinatlı Qüvvələr birnömrəli səfərbərlik vəziyyətinə gətirilib və istənilən əməliyyatı keçirməyə hazır olmalıdırlar", - deyə Azərbaycan lideri vurğulayıb.

"Mc-Doualiya", "Tahia Masr" portallarının materiallarında qeyd olunub ki, Azərbaycan Prezidenti İlham Əliyev cümə axşamı İranı səbəbsiz terror və təcavüz aktı törətməkdə ittiham edib və orduya cavab tədbirləri hazırlamaq və həyata keçirmək barədə göstəriş verib. Yazılarda Azərbaycan Müdafiə Nazirliyinin məlumatı və İran səfirinin XİN-ə çağırılması da diqqətə çatdırılıb.

"Khabarfoori" portalı dərc etdiyi geniş məqalədə diqqəti Azərbaycan Prezidentinin İranın Naxçıvana dron hücumu ilə bağlı çıxışının əsas məqamlarına çəkib. Müəllif qeyd edib ki, bu hücumu "terror aktı" və "çirkin əməl" adlandıran Prezident İlham Əliyev vurğulayıb: "Bunu törədənlər dərhal məsuliyyətə cəlb edilməlidir. Azərbaycan tərəfinə İran rəsmiləri tərəfindən izahat verilməlidir, üzr istənilməlidir və bu terror aktını törədənlər cinayət məsuliyyətinə cəlb edilməlidir".

"Khabarpu.com" saytında dərc olunan materialda diqqətə çatdırılıb ki, Azərbaycan Prezidenti ölkəsinin İrana qarşı əməliyyatlarda heç vaxt iştirak etmədiyini və etməyəcəyini bəyan edib. Bununla belə, dövlət başçısı martın 5-də İranın Azərbaycanın Naxçıvan bölgəsinə dronlar vasitəsilə hücumunu qətiyyətlə pisləyib, onu "terror aktı" adlandırıb və bu hadisəni törədənlərin məsuliyyətə cəlb olunmasını tələb edib.

"Alsumaria" portalı, "Mehr" və "Tasnim" xəbər agentliklərinin materiallarında bildirilib ki, Prezident İlham Əliyev Təhlükəsizlik Şurasının iclasında Azərbaycanın İrana qarşı hər hansı hərbi əməliyyatda iştirak etmədiyini və etməyəcəyini bəyan edib. Həmçinin diqqətə çatdırılıb ki, "Azərbaycan Respublikasının Naxçıvan hava limanına bir neçə pilotsuz uçuş aparatının hücumundan İranın səfiri Müctəba Dəmirçilu Xarici İşlər Nazirliyinə çağırılıb".

Türkiyənin "TRT World" beynəlxalq telekanalının saytında dərc olunan materialda qeyd edilib ki, martın 5-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Diqqətə çatdırılıb ki, Türkiyə Prezidenti İran İslam Respublikası tərəfindən Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasına edilən dron hücumunu qınadığını deyib, qardaş Azərbaycan xalqına dəstəyini ifadə edib.

"TRT World" həmçinin Prezident İlham Əliyevin İranın dron hücumu ilə əlaqədar keçirdiyi Təhlükəsizlik Şurasının iclasındakı çıxışının əsas məqamlarını dərc edib.

## Dövlət etikasına və insanlığa sığmayan əməl

**Uzun illərdir "din qardaşlığı" və "mehriban qonşuluq" maskası altında gizlənən İran rejimi bu dəfə birbaşa hərbi təcavüz yolunu seçərək Naxçıvan Muxtar Respublikasının dinc sakinlərini və mülki infrastrukturunu hədəf aldı. Naxçıvan ərazisinə dron zərbəsinin endirilməsi molla rejiminin nankorluğunu, riyakarlığını bir daha nümayiş etdirdi. Mülki infrastrukturlara - Hava limanına və məktəb binasına hücum təşkil edilməsi beynəlxalq hüququn norma və prinsiplərinə zidd olmaqla yanaşı, acizlik və qorxaqlıq əlamətidir. Bu həm də regionda gərginliyin artmasına rəvac verən addımdır. Bu, sadəcə, bir sərhəd pozuntusu deyil, suveren bir dövlətə qarşı törədilmiş açıq terror aktıdır.**



Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən Təhlükəsizlik Şurasının iclasında dövlət başçısı bu namərd hücumu sərt və qətiyyətli şəkildə pisləyərək qeyd etdi ki, İran tərəfindən Azərbaycan dövlətinə qarşı terror aktı törədilmişdir: "Naxçıvan Muxtar Respublikasının ərazisini İran dövləti pilotsuz uçuş aparatları ilə atəş altına salmışdır. Atəşin hədəfləri mülki obyektlər idi. Naxçıvan Beynəlxalq Hava Limanı, onun terminal binası, məktəb və digər istiqamətlər İran tərəfindən namərd atəşə məruz qalmışdır. Azərbaycan dövləti bu çirkin terror aktını qətiyyətlə pisləyir, bunu törədənlər dərhal məsuliyyətə cəlb edilməlidir. Azərbaycan tərəfinə İran rəsmiləri tərəfindən izahat verilməlidir, üzr istənilməlidir və bu terror aktını törədənlər cinayət məsuliyyətinə cəlb edilməlidir".

Bu hücum İranın illərdir apardığı anti-Azərbaycan siyasətinin məntiqi davamıdır. Uşaqların təhsil aldığı məktəbi və mülki sərnişinlərin istifadə etdiyi hava limanını hədəfə almaq yalnız terrorçu təfəkkürünün məhsulu ola bilər. İranın Azərbaycana qarşı düşmənçiliyi yeni deyil. Azərbaycan xalqı Tehrandakı səfirliyimizə edilən qanlı hücumu hələ də unutmayıb. Dövlətimizin başçısı həmin hadisəni xatırladaraq İranın terror siyasətini ifşa etdi: "Hamımız yaxşı xatırlayırıq ki, bir müddət bundan əvvəl Azərbaycanın Tehrandakı səfirliyi terror aktına məruz qalmışdır. Səfirliyə hücum çəkmiş İran xüsusi xidmət orqanları tərəfindən təlimatlandırılmış şəxs Azərbaycan vətəndaşlarına qarşı qanlı terror aktı törədib. Bunun nəticəsində bir vətəndaş həlak olub, bir vətəndaş isə ağır yaralanıb. Onu da bildirməliyəm ki, Azərbaycanın xüsusi xidmət orqanlarının əliyalın nümayəndəsi avtomat "Kalaşnikov"la, "Molotov" kokteyli və balta ilə silahlanmış terrorçunu zərərsizləşdirib. O vaxt da bizdə şübhə yox idi ki, bunu törədən İran dövlətidir... Aydın məsələ idi ki, Azərbaycanı qorxutmaq, Azərbaycana qarşı çirkin əməllərini həyata keçirmək üçün bu terror aktı İranın dövlət qurumlarının ən rəhbər mərtəbələrindən sifariş edilmişdir".

Səfirlikdə törədilən terror hadisəsində olduğu kimi, Naxçıvana hücumda da İranın məqsədi Azərbaycanı qorxutmaq, onun müstəqil xarici siyasətinə təsir etməkdir. Lakin Bakının cavabı hər zaman olduğu kimi, adekvat və sarsıdıcıdır. Səfirlikdə törədilən terrordan sonra Azərbaycanın qətiyyəti qarşısında geri çəkilən və cinayətkarı edam etməyə məcbur olan Tehranın molla rejimi görünür ki, bu hadisələrdən düzgün nəticə çıxarmayıb.

Prezident İlham Əliyevin çıxışında diqqətçəkən ən mühüm məqamlardan biri İranın nankorluğunun ifşası idi. Dövlətimizin başçısı bildirdi: "Livanda çətin vəziyyətdə qalan İran diplomatlarının təxliyəsi üçün İran tərəfi Azərbaycandan kömək istəmişdi. Azərbaycan öz təyyarəsini göndərməyə hazır olduğunu bildirmiş, humanitar prinsiplərdən çıxış edərək təmənnasız yardım təklif etmişdi. Bütün bunların müqabilində çirkincə, namərdcə, nakişi kimi Naxçıvana zərbə endirmək?! Bu ləkə onların çirkin və eybəcər simasından heç vaxt silinməyəcək". Bir tərəfdən yardım istəyib, digər tərəfdən kömək əli uzadan qonşunun mülki hədəflərinə PUA ilə zərbə endirmək heç bir dövlət etikasına, dini dəyərə və insanlığa sığmayan hərəkətdir. Bu, sadəcə, nankorluq nümunəsidir.

Azərbaycan dövləti heç bir təhdid qarşısında geri çəkilən deyil. 44 günlük Vətən müharibəsində Ermənistanı və onun havadarlarını diz çökdürən "dəmir yumruq" bu gün də hazır vəziyyətdədir. Prezident İlham Əliyevin tapşırığı ilə Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti və Xüsusi Təyinatlı Qüvvələr birnömrəli səfərbərlik vəziyyətinə gətirilib. Dövlət başçısının bu xüsusda xəbərdarlığı son dərəcə sərtdir: "Bizim gücümüzü sınamasınlar. Bizim gücümüzü sınamaq istəyənlərin başı "dəmir yumruq" vasitəsilə yarıldı. Bugünkü hadisə də eyni nəticəni hasil edəcək".

İranın bu təcavüzkar addımı beynəlxalq birlik tərəfindən dərhal kəskin reaksiya ilə qarşılanıb. Hadisə baş verən andan etibarən müxtəlif ölkələrin prezidentləri, xarici işlər nazirləri zəng edərək ölkəmizə dəstəklərini ifadə ediblər. Həmçinin BMT, Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı, bir sıra ölkələrin Bakıda akkreditə olunmuş səfirləri Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı yönəlmiş bu hadisəni pisləyərək, bizimlə həmrəyliklərini nümayiş etdiriblər.

Bu ölkədə yaşayan azərbaycanlılara qənim kəsilən, soydaşlarımızı bütün hüquqlardan məhrum edən, daim təzyiq altında saxlayan, azərbaycanlı fəalları təqib edən və cəzalandıran İran rejimi anlamalıdır ki, bu gün Azərbaycanın həm hərbi qüdrəti, həm də xalq-iqtidar birliyi istənilən xarici müdaxiləni dəf etməyə qadirdir. Müstəqil Azərbaycan öz suverenliyini qorumaq üçün hər bir addımı atıb və bundan sonra da atacaq.

Naxçıvana edilən hücum İranın regionda sülh tərəfdarı olmadığını nümayiş etdirdi. Bu təxribat Azərbaycanı zəiflətməyəcək, əksinə, xalqımızı dövlət ətrafında daha sıx birləşdirəcək. Bizə qarşı uzanan xəyanət əlləri hər zaman olduğu kimi kəsiləcək. Dövlətimiz sarsılmazdır, ordumuz qüdrətlidir və "dəmir yumruq" hər an düşmənin başını əzməyə hazırdır.

***Zaur ŞÜKÜROV,***
***Milli Məclisin deputatı***

# Azərbaycan xalqı əmin olmalıdır ki, istənilən bəd qüvvə onlara qarşı bizim "dəmir yumruğ"umuzu görəcək



# İlham Əliyevin mövqeyi qəti və prinsipialdır

## Heç bir qüvvə ölkəmizlə təzyiq və hədə dilində danışa bilməz

**Azərbaycan Prezidenti İlham Əliyevin Təhlükəsizlik Şurasının iclasında İranın Naxçıvanda törətdiyi hərbi təxribata sərt və adekvat reaksiyası dövlətimizin qətiyyətli və kəskin diplomatik-hərbi gedişlərindən biri kimi qiymətləndirilə bilər. Bu da təbiidir. İranın dronlarla ərazimizə təcavüzü adi sərhəd insidenti yox, Azərbaycanın suverenliyinə və xalqımızın təhlükəsizliyinə qarşı atılmış birbaşa təxribatçı addım idi.**

O səbəbdən dövlət başçısı İranın terror hücumuna kifayət qədər sərt üslubda münasibət sərgilədi. Azərbaycan liderinin çıxışı göstərdi ki, dövlətimiz üçün "qırmızı xətt" vətəndaşlarımızın təhlükəsizliyi və ərazi bütövlüyümüzdür. Heç bir qüvvə, məkrli dairə Azərbaycanla təzyiq, hədə dilində danışa bilməz.

Prezident İlham Əliyev İranın dron təxribatına sərt etirazını bildirməklə kifayətlənmədi, həm də suverenliyimizə qəsd edən qüvvələrə qarşı xəbərdarlıq mahiyyətində kəskin mesajlar verdi. Dövlət başçısı bədxahlara xatırlatdı ki, 44 günlük Vətən müharibəsində Ermənistanı diz çökdürən iradə eyni güclə istənilən digər təhdidə qarşı da işə düşə bilər. "Bizim gücümüzü sınamasınlar. Gücümüzü sınamaq istəyənlərin başı "dəmir yumruq" vasitəsilə yarıldı" deyən dövlət başçısı 44 günlük Vətən müharibəsinin nəticələrini xatırladaraq eyni aqibətin istənilən təcavüzkarı gözlədiyini bəyan etdi: "Necə ki, Ermənistan işğalına son qoymuşuq, istənilən şər qüvvəyə qarşı öz gücümüzü göstərməyə hazırıq və İranda bunu unutmasınlar".

Ali Baş Komandan həmçinin Naxçıvana xain dron hücumunu aşkar şəkildə İran tərəfindən Azərbaycan dövlətinə qarşı törədilmiş terror aktı kimi xarakterizə etdi. Çünki Naxçıvan Beynəlxalq Hava Limanının və mülki obyektlərin hədəfə alınması hücumun hərbi mahiyyətdə olmadığını, birbaşa mülki əhaliyə qarşı psixoloji və fiziki təzyiq məqsədi daşıdığını göstərir.

Prezidentin çıxışındakı ən təsirli məqam Azərbaycanın İrana göstərdiyi humanitar dəstək fonunda Tehranın Naxçıvanı vurması faktının ifşası idi. Bu, Bakının səbrinin tükəndiyini və qarşı tərəfin nankorluğuna yalnız güc dili ilə cavab veriləcəyinin dünyaya bəyanı idi: "İranın xarici işlər nazirinin müavini Bakıya zəng edir, xahiş edir ki, İran səfirliyinin Livanda qalmış əməkdaşlarının təxliyəsinə Azərbaycan kömək etsin. Çünki onların imkanı yoxdur. Mənə məruzə edildi. Mən dərhal göstəriş verdim ki, kömək göstərin, təyyarə göndərin. Hətta onlar dedilər ki, biz bunun pulunu da verməyə hazırıq. Dedim ki, lazım deyil, indi dar gündə biz kömək göstərməsək, bəs nə vaxt kömək göstərməliyik? Bütün bunların müqabilində çirkincə, namərdcə, nakişi kimi Naxçıvana zərbə endirmək?! Bu ləkə onların çirkin və eybəcər simasından heç vaxt silinməyəcək". Azərbaycan lideri ölkəmizin nə qədər alicənab, İranın isə nankor olduğunu faktlarla ortaya qoydu. Diplomatik dildə, adətən, "təəssüf", "narahatlıq" şəklində yumşaq ifadələr işlədilir. Lakin Prezidentin "namərd" və "nakişi" kimi kəskin ifadələr seçməsi qarşı tərəfin hərəkətinin beynəlxalq hüquqla yanaşı, həm də mənəvi-etik dəyərlərə sığmadığını göstərir. Ölkə rəhbəri üçün vətəndaşlarımızın təhlükəsizliyi və dövlətin şərəfi hər cür diplomatik nəzakətdən üstündür.

Prezidentin qətiyyəti dərhal verilən əmrlərdə də özünü büruzə verdi. Azərbaycan rəsmi Tehrandan izahatla yanaşı, açıq şəkildə üzr istənilməsini tələb etdi: "Azərbaycan tərəfinə İran rəsmiləri tərəfindən izahat verilməlidir, üzr istənilməlidir və bu terror aktını törədənlər cinayət məsuliyyətinə cəlb edilməlidir". Bu, dövlətlərarası münasibətlərdə Azərbaycanın özünü qürurlu tərəf kimi apardığının bariz nümunəsidir. Azərbaycan heç bir şəraitdə böyük güclərin qarşısında geri çəkilmir və öz şərtlərini diktə edir.

Tehrandakı səfirliyimizə mənfur terror hücumunu xatırladan və qatilin edam edildiyini vurğulayan Prezident İlham Əliyev Azərbaycanın öz istədiyinə nail olana qədər geri durmayacağını diqqətə çatdırdı: "Bildiyiniz kimi, o vaxt Azərbaycan bu hadisəyə çox sərt reaksiya vermişdi, Azərbaycan səfirliyi İrandan təxliyə edilmişdi, bütün diplomatik əlaqələr dayandırılmışdı. İran tərəfi bizdən üzr istəməyə, öz günahını etiraf etməyə məcbur olmuşdu. O terror aktını törədənə bizim təkidimizlə ən ağır cəza da verilmişdi. Hətta uzun müddət bu cəzanı həyata keçirməyə maraq göstərməyən, hətta cinayətkarı xilas etməyə çalışan İran dövləti məcbur olub terrorçunu Azərbaycan nümayəndələrinin gözü qarşısında edam etmişdi. Bu dəfə də cavab eyni olacaq".

Prezidentimizin tərəddüdsüz cəsarətli mövqeyi beynəlxalq ictimaiyyətin reaksiyasına da təkan verdi. Bir çox Avropa dövləti, ərəb dünyası və region ölkələri ardıcıl şəkildə İranın hərəkətini pislədi, ölkəmizin yanında olduqlarını bəyan etdilər. Bu mövqe Prezident İlham Əliyevin "hücum diplomatiyası"nın uğurudur. Azərbaycan bu gün hadisələrin qurbanı olmur, əksinə, mühüm proseslərə yön verərək, təcavüzkarları dünya ictimaiyyəti qarşısında ifşa edir.

Dövlət başçısının sarsılmaz qətiyyəti illərlə həyata keçirilən uzaqgörən uğurlu daxili-xarici siyasətə, iqtisadi müstəqilliyə, "güclü dövlət, güclü ordu və milli birlik" üçbucağına söykənir. Məhz Azərbaycanın heç bir gücdən asılı olmaması dövlətimizin liderinin ən sərt diplomatik və hərbi təzyiqlər qarşısında geri çəkilməməsinin nəticəsidir. Ali Baş Komandanın sarsılmaz əzmi və qətiyyətli duruşu göstərdi ki, Azərbaycan dövlətinin suverenliyinə və xalqımızın təhlükəsizliyinə uzanan hər bir əl kim tərəfindən uzadılmasından asılı olmayaraq kəsiləcək. Azərbaycanla təhlükəli oyun oynamaq siyasi intihara təşəbbüsdür, çünki Bakı özü bu gün proseslərə yön verən, regional layihələr icra edən, qlobal gündəmdə sülh və əməkdaşlıq modelini təsdiqləyən güclü tərəfdir.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# Azərbaycan istənilən təhdidə qətiyyətlə cavab vermək iqtidarındadır

**Azərbaycanın xarici siyasəti beynəlxalq hüquq normalarına, mehriban qonşuluq, qarşılıqlı hörmət və əməkdaşlığa əsaslanır. Ölkəmiz qonşu dövlətlərlə bərabərhüquqlu və qarşılıqlı maraqlara əsaslanan əlaqələrə böyük önəm verir. İran ətrafında baş verən proseslərlə bağlı dövlətimizin mövqeyi də bunun göstəricisidir. Lakin İranın Azərbaycana münasibətdə siyasəti heç də birmənalı deyil.**



Milli Məclisin deputatı Pərvin Kərimzadə "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, regionda sabitliyin təmin olunması, münaqişələrin dinc yolla həlli dövlətimizin prinsipial mövqeyidir. Yaxın regionda, qonşu dövlətlərin ərazilərində baş verən hərbi toqquşmalar ciddi narahatlıq doğurur: "Rəsmi Bakı tərəfləri maksimum təmkinli olmağa və problemləri danışıqlar yolu ilə həll etməyə çağırıb. Eyni zamanda Azərbaycan öz ərazisindən heç kimin İrana qarşı hərbi müdaxiləsi üçün icazə verməyəcəyini dəfələrlə bəyan edib. Çünki İran Azərbaycanın yaxın qonşusudur, bu ölkədə milyonlarla azərbaycanlı yaşayır. Belə olan halda, İranın Azərbaycanın Naxçıvan Muxtar Respublikasına dron hücumu anlaşılan deyil və qəbulolunmazdır. Bu hücum beynəlxalq hüquq normalarına zidd olmaqla yanaşı, İranın molla rejiminin riyakar mövqeyinin göstəricisidir. İran indiyədək dəfələrlə ölkəmizə qarşı təxribatlar edib, təhdidlər səsləndirib. Xüsusilə, dövlətimiz öz ərazi bütövlüyünü bərpa etdikdən sonra təhdidlər daha çox artıb. Çünki öz ərazilərini erməni işğalından azad edən Azərbaycan həm regionda, həm də dünyada mövqelərini gücləndirib. Eyni zamanda dövlətimiz regionda sülh və əməkdaşlıq müstəvisində önəmli təşəbbüslərlə çıxış edir. Bütün bunlar molla rejimini narahat edir. İranın ölkəmizə qarşı qərəzli, təhdid dolu münasibəti də bundan qaynaqlanır. Lakin molla rejimi Azərbaycan dövlətinin və onun liderinin qətiyyəti qarşısında geri çəkilməyə məcburdu".

Deputat bildirib ki, martın 5-də keçirilən Təhlükəsizlik Şurasının iclasında Prezident İlham Əliyev 2023-cü ilin yanvarında Tehranda Azərbaycan səfirliyinə edilən terror aktını da xatırladıb. Dövlətimizin başçısı demişdir: "O vaxt da bizdə şübhə yox idi ki, bunu törədən İran dövlətidir. Çünki bu terror aktı həm səfirliyin içində, həm səfirliyin ətrafında, təqribən 40 dəqiqəyə qədər davam edirdi. Bu 40 dəqiqə ərzində bir dənə də olsun nə təhlükəsizlik, nə polis nümayəndəsi səfirliyə yaxınlaşmayıb. Aydın məsələ idi ki, Azərbaycanı qorxutmaq, Azərbaycana qarşı çirkin əməllərini həyata keçirmək üçün bu terror aktı İranın dövlət qurumlarının ən rəhbər mərtəbələrindən sifariş edilmişdir. Bildiyiniz kimi, o vaxt Azərbaycan bu hadisəyə çox sərt reaksiya vermişdi, Azərbaycan səfirliyi İrandan təxliyə edilmişdi, bütün diplomatik əlaqələr dayandırılmışdı. İran tərəfi bizdən üzr istəməyə, öz günahını etiraf etməyə məcbur olmuşdu. O terror aktını törədənə bizim təkidimizlə ən ağır cəza da verilmişdi". Prezident bəyan edib ki, bu dəfə də cavab eyni olacaq. Azərbaycan bu terror aktı ilə, təcavüzlə heç vaxt barışmayacaq.

P.Kərimzadə xatırladıb ki, Azərbaycan Prezidenti İlham Əliyev İranın ali liderinin ölümü ilə bağlı başsağlığı verib, bu ölkənin səfirliyini ziyarət edib: "Halbuki Azərbaycan Prezidentindən başqa, heç bir dövlətin başçısı İran səfirliyinə gedərək başsağlığı verməyib. Ötən ilin iyun ayında İranla İsrail arasında 12 günlük hərbi toqquşma zamanı da Azərbaycan öz ərazisindən başqa ölkələrə İrana qarşı istifadə etməsi üçün icazə verməmişdi. Bu fakt göstərir ki, ölkəmiz mehriban qonşuluq siyasətinə hər zaman sadiqdir. Bunun müqabilində İranın Naxçıvana terror hücumu Azərbaycana qarşı düşmənçilik kimi qiymətləndirilə bilər. Bəs molla rejiminin bunları etməkdə məqsədi nədir? Bu sualın cavabını dövlətimizin başçısı çıxışı zamanı açıqlayıb. Cənab Prezident deyib: "İranın dövlət qurumlarının nəzarətində olan media resursları Azərbaycanı ləkələmək, İranda yaşayan soydaşlarımızın fikrini dəyişdirmək üçün Azərbaycana qarşı çirkin, şər-böhtan kampaniyası aparırdı. Çünki yaxşı bilirlər ki, bu gün müstəqil Azərbaycan dövləti İranda yaşayan bir çox azərbaycanlılar üçün də ümid yeridir. Yəni bizi ləkələmək, bizi şərləmək, gözdən salmaq İran ictimaiyyəti qarşısında bu məqsədi güdürdü".

Deputat deyib ki, İran tərəfindən Naxçıvan ərazisində mülki obyektlərin, mülki vətəndaşların istifadə etdiyi hava limanının hədəfə alınması dinc sakinlərə və mülki infrastruktura qarşı terror aktı kimi qiymətləndirilməlidir. Prezident İlham Əliyevin Təhlükəsizlik Şurasının iclasında dediyi kimi, Azərbaycana qarşı törədilmiş bu əsassız terror aktı ilə, təcavüzlə barışmayacağıq: "Silahlı Qüvvələrimizə təlimat verildi ki, cavab tədbirləri hazırlansın və həyata keçirilsin".

P.Kərimzadə vurğulayıb ki, Azərbaycan güclü dövlətdir və istənilən təhdidlərə qarşı qətiyyətlə cavab vermək iqtidarındadır. Ümid edirik ki, rəsmi Tehran bu insidentlə bağlı lazımi izahat verəcək, dövlətimizdən və xalqımızdan üzr istəyəcək. Eyni zamanda bu rejim soydaşlarımıza münasibəti dəyişməli, onların fundamental hüquqlarını təmin etməlidir. Milyonlarla soydaşımızın təməl hüquqlarının pozulması yolverilməzdir. Bundan əlavə, dünya ölkələrinin liderlərinin Azərbaycan Prezidentinə telefon zəngləri, verilən rəsmi bəyanatlar beynəlxalq birliyin İranın Naxçıvana hücumunu kəskin pislədiyini və ölkəmizlə həmrəy olduqlarını təsdiqləyir. Bu fakt, həm də Azərbaycanın və onun Liderinin yüksək beynəlxalq nüfuzunun göstəricidir. Ona görə də molla rejimi Azərbaycanın gücünü və qüdrətini unutmamalıdır.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Azərbaycana verilən beynəlxalq dəstək və həmrəylik mesajları ölkəmizin nüfuzunu və haqlı olduğunu göstərir

**Ölkəmiz hər zaman bütün dünyada sülhün, əmin-amanlığın bərqərar olmasına səy göstərir. Azərbaycan uzun illər ikili standartlarla, haqsızlıqlarla, ədalətsizliklə üzləşəndə də, açılmaz düyünə çevrilmiş problemlərinin həllində öz mövqeyini qoruyub saxlayıb. Müstəqilliyinə nail olduğu vaxtdan Azərbaycan dövləti beynəlxalq hüququn prinsiplərindən heç zaman kənara çıxmayıb.**

Mehribanlıq, qarşılıqlı maraq üzərində qurulan qonşuluq münasibəti Azərbaycan xalqının qədimdən bu günədək ruhunda daşıdığı, yaşatdığı ən yüksək keyfiyyətlərdəndir. Xalqımız heç zaman qonşusunun pisliyini istəməyib, onun ocağının sönməsini arzulamayıb. Azərbaycan dövləti də beynəlxalq münasibətlərdə bu prinsipi əsas götürüb. Mehriban qonşuluq, qarşılıqlı hörmət və əməkdaşlıq dövlətimiz üçün hər zaman prioritet məsələlərdən olub.

Bu mənada qonşu İran İslam Respublikası ilə münasibətlərdə də Azərbaycanın mövqeyi dəyişməz qalıb. ABŞ və İsrailin İrana birgə hərbi müdaxiləsindən sonra Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun iranlı həmkarı Abbas Əraqçiyə zəng etməsi, ölkəmizin ərazisindən heç bir qonşu və dost dövlətə, o cümlədən İrana qarşı istifadə edilməyəcəyi ilə bağlı Prezident İlham Əliyevin mövqeyini xatırlatması, İran səfirinin mətbuat konfransı keçirərək ölkəsinin mövqeyini ifadə etməsinə şərait yaradılması, həmin ölkənin ali rəhbərinin vəfatı zamanı dövlətimizin başçısının ilk olaraq başsağlığı verməsi, ardınca səfirliyi ziyarət etməsi və İrana humanitar yardım planlaşdırılması bunun təsdiqidir.

Bu münasibətin əvəzində martın 5-i günorta vaxtı Naxçıvan Muxtar Respublikasına İran İslam Respublikasının ərazisindən dron hücumlarının həyata keçirilməsi, nəticədə hava limanının binasına zərər dəyməsi və bir neçə mülki şəxsin xəsarət alması nəinki ölkəmiz tərəfindən kəskin hiddətlə qarşılanıb, eyni zamanda müxtəlif ölkələrin və beynəlxalq təşkilatların dövlət və hökumət başçılarının etirazına səbəb olub.

Bu hadisəni pisləyən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan İranı mehriban qonşuluğa çağırıb. Ankarada sənətkarlar və sahibkarlarla keçirilən iftar məclisində qardaş ölkənin Prezidenti Azərbaycan dövlətinin başçısı ilə telefon danışığından bəhs edib: "Qardaşım İlham Əliyevlə söhbətimdə Naxçıvan Muxtar Respublikasına edilən hücumdan təəssüfləndiyimi bildirdim və onu pislədim". Rəcəb Tayyib Ərdoğan martın 4-də Türkiyənin cənub sərhədi yaxınlığında İran raketinin vurulmasını da vurğulayıb: "Biz İran tərəfinin diqqətini Türkiyə ilə dostluğun əhəmiyyətinə çəkdik və mehriban qonşuluq münasibətlərinə xələl gətirəcək səhvlərə yol verməməyə çağırdıq".

Fransa hökuməti də İranın Naxçıvan Beynəlxalq Hava Limanına dron hücumunu ən sərt şəkildə pisləyib. Fransa Xarici İşlər Nazirliyinin portalında dərc olunan bəyanatda Naxçıvan Beynəlxalq Hava Limanının İran dronlarının hücumuna məruz qaldığı, hadisə nəticəsində dörd nəfərin yaralandığı xatırlanıb. Fransanın bu hadisə ilə bağlı Azərbaycanla tam həmrəy olduğu bildirilib. Vurğulanıb ki, Naxçıvan Beynəlxalq Hava Limanına qarşı həyata keçirilmiş dron hücumu Azərbaycanın suverenliyinin və beynəlxalq hüququn açıq şəkildə pozulmasıdır. Hücumu əsassız və qəbuledilməz addım kimi qiymətləndirən Fransa hökuməti regionda sabitliyin qorunmasının və beynəlxalq hüquqa hörmətin vacibliyini bir daha diqqətə çatdırıb.





İki İran dronunun Naxçıvana zərbə endirməsinin tamamilə qəbuledilməz olduğunu Böyük Britaniyanın Azərbaycandakı səfiri Ferqus Auld özünün "X" sosial media hesabında bildirib: "Böyük Britaniya Azərbaycanın təhlükəsizliyini təhdid edən istənilən hərəkəti qətiyyətlə pisləyir. Bu çətin məqamda Azərbaycanla və zərərçəkənlərlə tam həmrəyik. Səfirlik baş verənləri yaxından izləyir".

Beynəlxalq Mülki Müdafiə Təşkilatının (BMMT) Daimi Katibliyi ölkəmizə qarşı son hücumlarla bağlı yaydığı bəyanatda isə Azərbaycanın üzləşdiyi hadisə ilə əlaqədar dərin narahatlığını diqqətə çatdırıb, Azərbaycan hökuməti və xalqı ilə tam həmrəylik ifadə olunub. Bəyanatda Azərbaycanın mülki müdafiə və fövqəladə hallara hazırlıq sahəsində regional əməkdaşlığın gücləndirilməsinə töhfə verən ölkələrdən biri olduğu və bu istiqamətdə BMMT çərçivəsində mühüm rol oynadığı vurğulanıb. Təşkilat baş verən hadisələrdən zərərçəkən insanlara səmimi dəstəyini verərək bildirilib ki, bütün hallarda mülki əhalinin və həyati əhəmiyyətli xidmətlərin qorunması əsas prioritet olaraq qalmalı, heç bir mülki şəxs qeyri-sabitlik və zorakılığın qurbanına çevrilməməlidir.

İranın Türkiyə və Azərbaycanı hədəfə almaq cəhdini kəskin şəkildə qınayan ölkələrdən biri də Səudiyyə Ərəbistanı Krallığıdır. Səudiyyə Ərəbistanı XİN bu cür cəhdləri beynəlxalq qanunlara və qəbul olunmuş beynəlxalq normalara zidd olan düşmənçilik davranışı adlandırıb. Nazirlik bəyanatında hər iki ölkəyə qarşı edilən bu qorxaq cəhdlərin heç bir halda əsaslandırılası mümkün olmayan düşmənçilik mövqeyi kimi dəyərləndirib. Qeyd olunub ki, İranın region ölkələrinə qarşı bu cür davranışları gərginliyin daha da artmasına səbəb olur və regional təhlükəsizliyi və sabitliyi təhdid edir. Krallıq hökuməti və xalqının Türkiyə və Azərbaycanla tam həmrəy olduğu bəyanatda bir daha diqqətə çatdırılıb.

İsrail Dövlətinin xarici işlər naziri Gideon Saar Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramova zəng vurub. Telefon danışığı zamanı regionda artan təhlükəsizlik riskləri, xüsusilə hərbi gərginlik və bunun regional sabitliyə təsirləri ətrafında fikir mübadiləsi aparılıb. İsrail tərəfi İran tərəfindən Azərbaycanın Naxçıvan Muxtar Respublikası ərazisinə qarşı dron hücumlarının qəbuledilməz olduğunu qeyd edib və ölkəmizlə həmrəy olduğunu bildirib.

Misirin xarici işlər naziri Bədr Əbdülati Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallasla baş tutan telefon danışığında ölkəsinin Azərbaycana, Türkiyəyə və ərəb ölkələrinə hücumları qəbuledilməz hesab etdiyini, bu halların qınanılmalı olduğunu diqqətə çatdırıb. Bədr Əbdülati həmçinin zorakılıq dalğasının davam etməsinin və münaqişənin daha da genişlənməsinin regional və beynəlxalq sülh və sabitliyi təhdid edə biləcək fəlakətli və təhlükəli nəticələrə səbəb ola biləcəyi barədə xəbərdarlıq edib.

İran pilotsuz uçuş aparatlarının Naxçıvan Muxtar Respublikasının mülki obyektlərini hədəfə alan və mülki şəxslərin yaralanması ilə nəticələnən hücumlarını, hava limanının vurulmasını qəti şəkildə pisləyən dövlətlər arasında Qətər, Birləşmiş Ərəb Əmirliyi, Litva, Moldova , Küveyt, Özbəkistan, Gürcüstan, Qazaxıstan, Pakistan, Albaniya, Monteneqro, İspaniya, İordaniya, İtaliya, Avstriya və başqaları da var. Həmin dövlətlərin rəsmiləri İranın Azərbaycana qarşı həyata keçirdiyi bu cinayətin beynəlxalq hüququn norma və prinsiplərinin kobud pozuntusu olduğu və regionda gərginliyin artmasına xidmət etdiyini vurğulayıb, Azərbaycanla həmrəy olduqlarını bildiriblər.

Qeyd etdiyimiz kimi, Azərbaycanın qonşuları və beynəlxalq tərəfdaşları ilə qurduğu mehriban və qarşılıqlı hörmətə əsaslanan siyasətini, ölkəmizin sülhə və əmin-amanlığa sadiqliyini bir daha təsdiqləyir. Bu yanaşma həm də onu göstərir ki, hər hansı təxribat və zorakılıq aktları Azərbaycan xalqının birliyi və dövlətimizin gücü qarşısında heç bir nəticə verə bilməz.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# Qadın fəallığı - cəmiyyətin modernləşmə kodu

**Hər il 8 Mart - Beynəlxalq Qadınlar Günü ərəfəsində bütün dünyada gender bərabərliyi, qadın fəallığı, xanımlara bərabər imkanlar mühitinin yaradılması məsələləri gündəmə gəlir. Bu məsələlər dünyanın bütün sivil ölkələri kimi, Azərbaycan üçün də aktualdır. Azərbaycan tarixində qadın fəallığı heç vaxt təsadüfi proses olmayıb, cəmiyyətimizin modernləşmə instinktinin, milli özünüdərkin və sosial dinamizmin ayrılmaz hissəsi kimi nəzərə çarpıb. Bizdə qadın fəallığı kənardan gələn ideya deyil, onun kökləri milli maarifçilik hərəkatına gedib çıxır.**



## Maarif və tərəqqinin daşıyıcısı

XIX əsrin sonlarına doğru Azərbaycan maarifçilərinin qadın haqları ilə bağlı aktuallaşdırdıqları məsələlər və bunun ən parlaq nəticələrindən biri olaraq Həsən bəy Zərdabinin təşəbbüsü, Hacı Zeynalabdin Tağıyevin himayə və dəstəyi ilə ilk qızlar məktəbinin açılması, sadəcə, xeyriyyəçilik deyildi. Bu, bir sivilizasiya qərarı idi və o göstərirdi ki, Azərbaycan cəmiyyəti qadını yalnız ailə institutunun elementi kimi yox, maarifin və tərəqqinin daşıyıcısı kimi görmək istəyir.

Bu xətt daha sonra Azərbaycan Xalq Cümhuriyyəti dövründə özünün siyasi zirvəsinə yüksəldi. Cümhuriyyət qurucularının qadınlara seçki hüququ vermələri bütün Şərqdə modern dövlət modelinin elan edilməsi idi. Belə bir qərarla Azərbaycan qadını siyasi subyekt statusu qazandı. Burada bir maraqlı faktı da vurğulamaq çox vacibdir: Azərbaycanda qadın fəallığı hər zaman qarşıdurma üzərində deyil, məhz dövlət quruculuğu zəminində formalaşıb.

Sovet dövründə qadınların əmək bazarına və elmə kütləvi inteqrasiyası baş verdi. Bu mərhələ daha çox inzibati təşviq modeli olub müstəqil təşəbbüslərin məhdudluğu fonunda formalaşsa da, həmin dövrdə qadınlarımızın peşəkar kimliyi gücləndi, Azərbaycan qadınının həkim, müəllim, mühəndis, əmək qəhrəmanı, hətta təyyarəçi, gəmi kapitanı obrazı formalaşdı.

## Heydər Əliyev və Azərbaycanda qadın siyasəti

Keçmiş ittifaqda gender bərabərliyi rəsmi ideologiyanın bir hissəsi idi. Lakin ideologiya ilə real idarəetmə arasında həmişə fərqlər nəzərə çarpırdı. Bunu müsbət məqam kimi vurğulayaq ki, xüsusilə Ümummilli Lider Heydər Əliyevin sovet Azərbaycanına rəhbərliyi dövründə bu fərq məhz xanımların xeyrinə dəyişməyə başladı. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi həmin illərdə qadınların ictimai-siyasi və peşəkar fəallığı real olaraq daha da genişləndi. Bu dövr kadr siyasətində qadınlara inkişaf imkanlarının yaradılmasından daha çox sosial strukturun modernləşdirilməsi mərhələsi idi.

Ulu Öndərin diqqət və qayğısı sayəsində qadının əmək bazarında mövqeyi gücləndirildi. Məlumdur ki, Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə ölkədə sənayeləşmə, şəhərsalma və ali təhsilin genişləndirilməsi prioritet idi. Bu proseslər qızların ali məktəblərə qəbulunun artmasına, xüsusilə o dövrə qədər xanımlar üçün uyğunsuz sahə kimi qəbul edilən texniki və mühəndis ixtisaslarına daxil olmasına, səhiyyə və elm sahəsində rəhbər vəzifələrə irəliləməsinə real imkanlar yaratdı. Bu mərhələdə qadın artıq təkcə "əmək resursu" deyil, peşəkar kadr kimi qəbul olunmağa başladı.

Sovet sistemi mərkəzləşmiş olsa da, respublika səviyyəsində kadr seçimi ciddi siyasi iradə tələb edirdi. Heydər Əliyevin dövründə qadınların partiya və icra strukturlarında irəli çəkilməsi, onlara yüksək etimad göstərilməsi müşahidə olunurdu. Burada əsas məqam isə simvolik deyil, funksional iştirak idi. Qadın rəhbərlər sosial sahələrdə - təhsil, səhiyyə, mədəniyyətdə qərarvermə mexanizmlərinin tərkib hissəsinə çevrilmişdilər və bu, qadın fəallığının inzibati müstəvidə sabitləşməsi demək idi.

Təhsil strategiyası və qadın kapitalı məsələsi də bu dövr üçün aktual istiqamətlərdən idi. 1969-1982-ci illər ümumilikdə Azərbaycanın intellektual potensialının yüksəliş dövrü kimi xarakterizə olunur. Minlərlə azərbaycanlı gənc Ulu Öndərin təşəbbüsü və dəstəyi ilə keçmiş SSRİ-nin aparıcı ali məktəblərinə respublikamızda tələb olunan nadir ixtisaslar üzrə təhsil almağa göndərilirdilər və bu proqramlardan qızlar da geniş yararlanırdılar. Nəticədə Azərbaycanda yeni qadın elitası formalaşır, çoxsaylı gənc qadın alimlərin, həkimlərin, mühəndislərin, mədəniyyət xadimlərinin yetişərək cəmiyyətdə nüfuz qazanmasını ehtiva edən bu proses uzunmüddətli sosial investisiyaya çevrilirdi.

Heydər Əliyevin idarəçilik fəlsəfəsində sosial balans hər zaman xüsusi yer tuturdu. Bu fəlsəfədə qadınların ictimai həyatda fəallığı sosial sabitliyin dayaqlarından biri kimi qəbul edilirdi. Çünki qadının iqtisadi müstəqilliyi ailə institutunu gücləndirir, peşəkar qadın təbəqəsi orta sinfi genişləndirir, sosial sektorun keyfiyyətini artırır. Ümummilli Lider üçün bu yanaşma ideoloji şüar deyil, idarəetmə mexanizmi idi.

Nəticədə sovet sistemi qadınlara formal hüquqlar versə də, yerli rəhbərliyin siyasi iradəsi, məsələlərə strateji baxışı həmin hüquqların real institutlara çevrilməsinə şərait yaratdı. Məhz Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycanda qadın fəallığı ideoloji şüardan praktik mexanizmə keçdi, cəmiyyətimizdə peşəkar qadın təbəqəsi formalaşdı və qadın fəallığı məsələlərinə aydın münasibət yarandı, idarəetmədə institusional iştirak sabitləşdi. Bu mərhələ həmçinin müstəqillik dövründə qadınların dövlət quruculuğunda aktiv rol alması üçün sosial baza yaratdı.

## Vətəndaş cəmiyyəti mərhələsi

Azərbaycanın müstəqilliyi dövründə isə qadın fəallığı yeni mərhələyə - vətəndaş cəmiyyəti mərhələsinə transformasiya olundu. Qeyri-hökumət təşkilatları, sosial təşəbbüslər, sahibkarlıq layihələri, beynəlxalq platformalarda təmsilçilik - bütün bunlar qadın fəallığını hüquqi mərhələ çərçivəsindən çıxarıb inkişaf mərhələsinə transfer etdi. Bu da təsadüfi proses olmayıb müstəqil Azərbaycan dövlətinin artıq öz siyasi arxitekturasını qurmasından irəli gəlirdi. Həmin mərhələdə qadın fəallığı sosial siyasət elementi çərçivəsindən çıxaraq dövlət strategiyasının vacib tərkib hissəsinə çevrildi. Belə bir strateji transformasiyanın çox mühüm mərhələsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizə rəhbərliyi dövrünə təsadüf edir.

Azərbaycan Prezidentinin siyasi iradəsi, bu sahəyə xüsusi diqqəti sayəsində ölkəmizdə gender siyasəti hüquqi və institusional mexanizmlərlə möhkəmləndirildi. Gender bərabərliyi ilə bağlı qanunvericilik təkmilləşdirildi, məişət zorakılığına qarşı hüquqi mexanizmlərin tətbiqi gücləndirildi, eləcə də maarifləndirmə işləri geniş miqyas aldı. Dövlət proqramları, müvafiq dövlət institutlarının fəaliyyəti çərçivəsində qadın və uşaq siyasəti sistemləşdirildi. Bu mərhələdə qadın məsələsi dövlət siyasətinin davamlı istiqamətinə çevrildi. İdarəetmədə, o cümlədən parlamentdə, icra hakimiyyəti strukturlarında, məhkəmə sistemində zərif təbəqənin təmsilçiliyi artdı və bu, kvota siyasəti ilə deyil, idarəetmənin modernləşdirilməsi xətti ilə baş verdi. Artıq Azərbaycan qadını yalnız sosial sahələrdə deyil, iqtisadiyyat, diplomatiya və strateji planlama sahələrində də fəaldır. Bu isə keyfiyyət mərhələsi, yəni sadəcə, iştirakdan real təsirə keçiddir.

## Qadın fəallığının Mehriban xanım Əliyeva nümunəsi

Milli dövlətçilik tariximizdə qadın fəallığı ənənələrinin yeni və ən əhəmiyyətli mərhələsi məhz Mehriban xanım Əliyevanın adı ilə başlanır. Mehriban xanımın hələ ötən əsrin 90-cı illərinin ortalarından başlayan Azərbaycan Mədəniyyətinin Dostları Fondunun rəhbəri, Azərbaycan Gimnastika Federasiyasının prezidenti, sonrakı mərhələdə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, nəhayət, 2017-ci ildən ölkəmizin Birinci vitse-prezidenti kimi çoxşaxəli fəaliyyəti, beynəlxalq aləmdə qazandığı böyük nüfuz qadınların ictimai-siyasi, mədəni və sosial sahədə daha fəal, nüfuzlu və rol modeli kimi görünməsinə əhəmiyyətli təsir göstərdi.

Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu qısa müddətdə humanitar siyasətin vacib platformasına çevrildi. Onun təşəbbüsü və rəhbərliyi ilə qurumun həm Azərbaycanda, həm də dünyada həyata keçirdiyi təhsil, səhiyyə, mədəni irsin qorunması, sosial müdafiə layihələri və s. qadın liderliyinin idarəetmədə necə işlədiyini göstərən praktik nümunələrdir. Bu model empatiya və sosial həssaslıq, sistemli təşkilatlanma, uzunmüddətli strateji baxış kimi üç mühüm xüsusiyyəti özündə birləşdirir. Beləliklə, qadın fəallığı emosional təşəbbüsdən çıxaraq strukturlaşdırılmış sosial siyasətə çevrilir.

Bu da bir reallıqdır ki, istənilən cəmiyyətdə qadın fəallığının inkişafı yalnız qanunlarla ölçülmür, o həm də ictimai şüurda formalaşan obrazla bağlıdır. Mehriban xanım Əliyeva öz fəaliyyəti ilə Azərbaycan qadını üçün yeni model, yeni ictimai obraz formalaşdırdı. Milli dəyərlərə bağlılıq, müasirlik və qlobal ünsiyyət bacarığı, intellektual və mədəni kapital, sosial məsuliyyət bu obrazın xarakterik xüsusiyyətləridir. Belə bir model ənənə ilə modernliyin sintezi kimi qadın fəallığını radikal dəyişiklik kimi deyil, tarixi davamlılıq kimi ictimai şüura aşılayır.

## Etibarlı yol yoldaşı

Mənəvi-insani dəyərlərə sədaqət, xalqın arzu və amallarının həyata keçirilməsinə diqqət  Prezident İlham Əliyevin işıqlı qayəsidir. Azərbaycan Prezidentinin qarşıya qoyduğu, reallaşdırdığı ali məqsədlər yüksək ideallardır. Dövlətimizin başçısı bu məqsədlərə doğru aparan haqq yolunda ona görə bu qədər uğurludur ki, ən çətin məqamın hər addımında xalqın dəstəyindən güc alır. Bu qətiyyətli, möhtəşəm fəaliyyətin daha bir məntiqli səbəbi də ölkənin birinci xanımı Mehriban Əliyeva kimi silahdaşının, məsləkdaşının, etibarlı yol yoldaşının olmasındadır.

Mehriban xanım Əliyeva xalqımızın qürur duyduğu şəxsiyyətdir, millətin tərəqqisi üçün yeniləşən ideyalar sahibidir. Azərbaycanın Birinci vitse-prezidentinin inkişafa doğru hər addımı sosial reallığı dəyişən, daha gözəl, daha sağlam, hər kəs tərəfindən məmnunluqla qarşılanan yaradıcılıq məzmunu təqdim edir. Cəmiyyətin firavanlığına bu proseslərin əsas məqsədi kimi yanaşır, insanı müasir həyatımızın ən qiymətli dəyəri kimi qəbul edir. Heydər Əliyev Fonduna rəhbərliklə yanaşı, Yeni Azərbaycan Partiyası Sədrinin müavini, Milli Məclisin deputatı, Azərbaycan Gimnastika Federasiyasının prezidenti kimi fəaliyyəti, Avroviziya Beynəlxalq Mahnı Müsabiqəsi (2012), I Avropa Oyunları (2015), IV İslam Həmrəyliyi Oyunları (2017) kimi mötəbər beynəlxalq tədbirlərin təşkilat komitələrinə uğurla rəhbərliyi onun geniş idarəçilik bacarığını nümayiş etdirmiş, Mehriban xanıma həm ölkədə, həm də qlobal məkanda böyük rəğbət qazandırmışdır.

Bütün bunlar Azərbaycanın Birinci vitse-prezidenti kimi böyük ümid və gözləntiləri, bir o qədər də məsuliyyət doğuran ali vəzifəyə məhz Mehriban xanım kimi təcrübəli, nüfuzlu ictimai xadimin təyin olunmasını şərtləndirirdi. Çünki söhbət təkcə yeni bir postdan deyil, dövlət idarəçiliyində yüksək məsuliyyət və sistemli fəaliyyət tələb edən strateji mövqedən gedirdi. Mehriban xanım Əliyeva şəxsiyyətinə uzun illər ərzində formalaşmış ictimai etimad, onun uğurlu təşkilati təcrübəsinə inam Azərbaycan Prezidentinin bu qərarının əsasını təşkil etdi.

Bu gün ölkəmizin Birinci vitse-prezidentinin milli iqtisadiyyatın rəqəmsal modelə keçidinə cavabdeh olan şuraya rəhbərlik etməsi işgüzar dairələr və qlobal texnologiya şirkətləri üçün yüksəksəviyyəli siyasi zəmanət və investisiya risklərinin minimuma endirilməsi deməkdir.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın həyat fəlsəfəsinin əsasını humanizm və insanpərvərlik məfkurəsi təşkil edir. Çıxışlarında xüsusi vurğulayır: "Mən tam əminəm ki, mehribanlıq və səxavətlilik dünyamızı daha da yaxşılaşdıra bilər. Mən inanıram ki, humanizm, mərhəmət və sevgi bizim həyatımızı daha da xoşbəxt edir".

Böyük və mərhəmətli qəlb sahibi Mehriban xanım hazırda dünyamızda baş verən çox sayda münaqişə, müharibə, pandemiya, dəhşətli təbii fəlakətlər fonunda sülh və əmin-amanlığın, xeyriyyəçiliyin təmini üçün çoxşaxəli və yorulmaz fəaliyyət göstərir. İnsanların xoşbəxt olmaları, firavan yaşamaları üçün onlara həyatın bütün sahələrində əlindən gələni edir.

## İnam və güvən, əməllər və həqiqətlər

Azərbaycana xidmətlərinə görə vətəndaşlarımızın, ümumən bütün dünya azərbaycanlılarının böyük sevgi və ehtiramını qazanan ölkəmizin Birinci vitse-prezidenti çətin sınaq günlərində cəmiyyətimizdə milli həmrəyliyin əldə olunmasında misilsiz xidmətlər göstərdi. Müzəffər ordumuzun hər şanlı qələbəsindən sonra Mehriban xanımın müxtəlif sosial şəbəkələr üzərindən xalqımıza ünvanladığı təbrik sözləri, sevinc, qürur və ümid dolu fikirləri insanlar arasında qələbə əzmini daha da gücləndirdi. Onları vahid amala, milli hədəflərə doğru səfərbər etdi.

Azərbaycanın informasiya müharibəsindəki qələbələrində də Mehriban xanım Əliyevanın rolu çox böyükdür. Məlumdur ki, müharibə təkcə səngərlərdə, döyüş meydanlarında aparılmır. Müasir dünyamızda öz həqiqətlərini beynəlxalq aləmə düzgün çatdıra bilməyin, düşmənin informasiya təxribatlarının qarşısını almağın və bu sahədə də işğalçılara qalib gələ bilməyin ciddi önəmi var.

Ali Baş Komandan İlham Əliyev mahir sərkərdə və diplomat kimi ordumuzu düşmən üzərinə səfərbər etməklə bərabər, eyni zamanda müsahibələri vasitəsilə Azərbaycanın mövqeyini dünyanın siyasi dairələrinə, güc mərkəzlərinə, beynəlxalq ictimaiyyətə çatdırdığı kimi, Mehriban xanım Əliyeva da öz çağırışları, bəyanatları, tövsiyələri ilə hər bir cəmiyyət üzvünü, hər bir vətəndaşı düşmənlə informasiya savaşına səfərbər etməyə, haqq davamızda insanlarımızın öz imkanlarını birləşdirməsinə çalışırdı.

Mehriban xanım dövlətimizi Azərbaycan insanına doğmalaşdıran bir şəxsiyyətdir. O, vətəndaşların sevgi ünvanı, inam və güvən mənbəyidir. Buna böyük Zəfərimizlə nəticələnən 44 günlük Vətən savaşında hər birimiz şahid olduq. 30 illik işğaldan sonra torpaqlarımızın addım-addım düşməndən təmizləndiyi o qürur dolu günlərdə Birinci vitse-prezident öz qəhrəman övladlarının igidliyi ilə öyünən, nisgilli yurdlarımızın azadlığına sevinib fərəhlənən, amma eyni zamanda həm də döyüş meydanındakı övladlarımızın taleyinə görə həssas ana qəlbi ilə həyəcan keçirən, onların bu haqq savaşını sağ-salamat başa çatdırıb Zəfərlə geri dönməsini arzulayan, şəhid məzarları önündə, yaralanmış oğullarımızın mətinliyi, iradəsi qarşısında göz yaşlarını boğa bilməyən Azərbaycan analarının ümumi obrazı idi.

Ana adı və missiyası Mehriban xanım üçün çox əzizdir. Onun bütün çıxışlarından ananın səsi-sorağı gəlir, fədakar, eyni zamanda zərif zümrəyə dərin hörmət və ehtiramı duyulur, başladığı hər yeni layihəyə ana qəlbinin hərarətini qatır. Müstəqil Azərbaycan dövlətinin ötən əsrin 90-cı illərinin ortalarından bəri qazandığı nailiyyətlərdə Mehriban xanım Əliyevanın imzası, misilsiz xidmətləri insanlarımızda böyük qürur doğurur. Qadınlarımızın ölkənin ictimai-siyasi həyatında ilbəil artan rolu və mövqeyi isə bizim milli dövlətçilik tariximizin ən böyük uğurlarındandır.

Mehriban xanım Əliyeva Azərbaycan qadınının adını beynəlxalq aləmdə layiq olduğu yüksək mərhələyə ucaldır, qadın liderliyinin humanitar diplomatiyada dövlətimizə nə qədər mühüm töhfələr verə biləcəyini göstərir. Bu isə qadın fəallığının daxili sosial məsələ olmaqdan çıxaraq ölkənin beynəlxalq imicinin tərkib hissəsinə çevrilməsi deməkdir. Bu baxımdan Mehriban xanım Əliyevanın öz ali obrazı ilə yaratdığı dəyərlər simvolik səviyyədə qadın liderliyinin legitimləşməsi, institusional səviyyədə onların dövlət idarəçiliyində və sosial layihələrdə sistemli iştirakı, mədəni səviyyədə isə lider qadın modelinin müasir milli identikliyin mühüm bir hissəsinə çevrilməsi kimi xarakterizə edilə bilər.

Azərbaycan Prezidentinin tez-tez vurğuladığı və yürütdüyü siyasətin də möhkəm təməli kimi istinad etdiyi bir tezis var: güclü dövlət güclü cəmiyyət üzərində qurulur. Güclü cəmiyyət isə insan kapitalının maksimum səfərbərliyini tələb edir. Bu kontekstdə ölkəmizdə qadın fəallığı insan kapitalının yüksəlişi, sosial sabitliyin möhkəmləndirilməsi, uzunmüddətli inkişafın təmin edilməsi baxımından son dərəcə önəmlidir.

Bu gün inkişafın Azərbaycan modeli qadın fəallığını milli modernləşmənin tərkib hissəsi, sosial sabitliyin dayağı, idarəetmənin keyfiyyət göstəricisi kimi təqdim edir. Azərbaycanın gələcək inkişaf mərhələsində, xüsusilə rəqəmsal transformasiya, "yaşıl iqtisadiyyat" və innovasiya dövründə qadın fəallığı daha möhtəşəm nailiyyətlər yaradacaqdır.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*





# Zəriflərin Zəfəri

## Azərbaycan qadını mərhəmətin, peşəkarlığın və qəhrəmanlığın təcəssümüdür

**Tarixboyu qadın və ana adı qoşa çəkilib. Hər zaman şairlər onları vəsf edib, nəğmələrdə tərənnüm olunublar. Ən uca zirvələrin belə çata bilməyəcəyi bir məqama - müqəddəsliyə yüksəldiliblər. Təsadüfi deyil ki, cənnətin belə anaların ayaqları altında olması bəyan edilib, ləpirinin düşdüyü hər qarış yer müqəddəs sayılıb...**

Obrazlı ifadə etsək, qadın-ana Yaradanın yerdəki davamçısı, insanlara can bəxş edən, həyatı əbədiləşdirən əvəzedilməz varlıqdır...

### Mərhəmət dolu qəlb

Azərbaycan xalqının çoxəsrlik tarixində qadın obrazı həm də milli mənəviyyatın, siyasi iradənin və ictimai tərəqqinin hərəkətverici qüvvəsi kimi çıxış edib. Bizim cəmiyyətimizdə qadına münasibət, sadəcə, bir nəzakət qaydası deyil, min illərin süzgəcindən keçmiş dəyərlər sistemidir. Şərqdə ilk demokratik respublikanı quran və qadına seçki hüququnu bir çox Qərb dövlətindən daha öncə verən bir millətin təmsilçisi olaraq, Azərbaycan qadını bu gün də müasir dünyanın ən parlaq, intellektual və vətənpərvər simalarından hesab olunur.

Müasir Azərbaycan qadınının simvolu dedikdə, göz önünə ilk növbədə Birinci vitse-prezident, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın obrazı gəlir. Mehriban xanım öz fəaliyyəti ilə sübut etdi ki, qadın zərifliyi ilə dövlət idarəçiliyinin qətiyyəti bir nöqtədə birləşəndə böyük möcüzələr yaratmaq mümkündür.

Mehriban xanım Əliyeva həm ölkə daxilində, həm də beynəlxalq müstəvidə Azərbaycan mədəniyyətinin, humanizminin və xeyriyyəçilik ənənələrinin ən böyük himayədarıdır. Onun təşəbbüsləri sayəsində reallaşan təhsil, səhiyyə və sosial layihələr minlərlə insanın taleyini dəyişib. Lakin birinci xanımın ən böyük xidməti Azərbaycan qadınının cəmiyyətdəki yerini və rolunu yeni bir mərhələyə qaldırmasıdır. Mehriban xanım həm bir dövlət xadimi, həm bir ana, həm də xalqın dərdinə yanan bir vətəndaş kimi hər bir azərbaycanlı qadın üçün əsl nümunədir. Humanizm prinsiplərinə söykənən çoxşaxəli fəaliyyəti ilə dünya miqyasında adı ehtiram və hörmətlə çəkilən Mehriban xanım Əliyeva Azərbaycan qadınının mərhəmət dolu qəlbinin dövlət siyasətindəki inikasıdır.

### Evdə şəfqətli ana, işdə peşəkar mütəxəssis

Bu gün Azərbaycanda qadınlar elmin zirvələrindən tutmuş ağır sənayeyə, diplomatiyadan idmana qədər hər bir sahədə öz sözlərini qətiyyətlə deyirlər. Azərbaycan qadını artıq, sadəcə, bir icraçı deyil, həm də böyük layihələrin müəllifidir. Ölkəmizdə qadın deputatların, diplomatların, iş adamlarının və ictimai fəalların sayının durmadan artması dövlətimizin yürütdüyü gender siyasətinin və qadın zəkasına verilən yüksək qiymətin göstəricisidir.

Müasir Azərbaycan qadını öz zəhməti və biliyi ilə cəmiyyətimizin inkişafına misilsiz töhfələr bəxş edir. O, evdə şəfqətli ana, işdə isə prinsipial mütəxəssisdir.

Azərbaycan qadınının ən uca zirvəsi isə onun vətənpərvərliyidir. Tarixboyu Tomrislərdən başlayan bu yol davam etdi və İkinci Dünya müharibəsində olduğu kimi, Birinci və İkinci Qarabağ müharibələrində də özünün ən parlaq zirvələrinə ucaldı. Bizim qadınlarımız təkcə arxa cəbhədə deyil, bilavasitə döyüş meydanlarında da igidlikləri ilə tarix yazdılar.

Milli qəhrəmanlarımız Salatın Əsgərova, Gültəkin Əsgərova kimi şəhidlərimiz sübut etdilər ki, qəhrəmanlıq cinsiyyət tanımır. Onlar qələmi silaha dəyişən, xəstəxana palatalarını döyüş meydanına çevirən fədakarlıq timsallarıdır. Eyni zamanda 44 günlük Vətən müharibəsi zamanı da cəbhədə tibb bacısı kimi yaralı əsgərlərimizə can verən qadınlarımızın hər birinin xidməti əvəzolunmazdır. Vətən uğrunda şəhid olan Arəstə Baxışova qürur mənbəyimizdir.

Azərbaycan qadınının fədakarlıq hüdudları sonsuzdur. Bunun ən son və uca örnəklərindən biri Milli Qəhrəman Hökumə Əliyevadır. 2024-cü il dekabrın 25-də Rusiya səmasında sərnişin təyyarəmizin vurulması nəticəsində şəhidlik zirvəsinə ucalan Hökumə Əliyeva öz peşəsinə və insanlığa olan sadiqliyini canı bahasına sübut etdi. Onun bu faciəli hadisə zamanı nümayiş etdirdiyi mətanət Azərbaycan qadınının ən çətin sınaqlar qarşısındakı soyuqqanlılığını və cəsarətini bütün dünyaya nümayiş etdirdi.

Məhz həmin məşum dəqiqələrdə təyyarənin salonunda Hökumə Əliyevanın dilindən səslənən və bu gün də hər birimizin qulağında təkrarlanan "Hər şey yaxşı olacaq!" ifadəsi yaşamla ölüm arasında körpüyə çevrildi. Bu cümlə sərnişinlər üçün, sadəcə, təsəlli deyildi, bu, ümidin özü idi. Azacıq titrək, lakin son dərəcə inamlı səslə deyilən bu sözlər insanları həyata elə möhkəm bağladı ki…

Prezident İlham Əliyevin sərəncamı ilə "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülən Hökumə Əliyeva Salatın Əsgərova və Gültəkin Əsgərova kimi qəhrəmanlarımızın açdığı yolu yeni dövrün rəşadəti ilə davam etdirdi.

### Xalqımızın əbədi baharı, sönməyən işığı

Məğrur Azərbaycan qadınının simvolunu həm də şəhid analarının simasında görürük. Onlar Vətənə canından can vermiş qəhrəmanların yaradıcılarıdır.

Vətən müharibəsində şəhid anasının mətanəti, onun "Vətən sağ olsun!" deyərək tabutu qarşılaması Azərbaycan qadınının ruhunun sarsılmazlığını bir daha dünyaya nümayiş etdirdi. Bu analar təkcə öz övladlarını deyil, bütöv bir millətin qürurunu çiyinlərində daşıyırlar.

Otuz ilə yaxın yurd həsrəti ilə yaşayan, lakin ümidini heç vaxt itirməyən məcburi köçkün qadınlarımızın fədakarlığı da unudulmazdır. Onlar çadır şəhərciklərində, vaqonlarda, yataqxanalarda çətin şəraitdə övlad böyütdülər, ancaq o övladlara Şuşanı, Ağdamı, Kəlbəcəri elə sevdirdilər ki, həmin gənclər böyüyüb torpaqlarımızı azad etdilər.

Bəli, bu Zəfərin memarlarından biri də məhz o dözümlü qadınlardır.

Azərbaycan qadını həm elmdə, həm siyasətdə, həm də döyüş meydanında daim öz sözünü deyir. Lakin o, hər şeydən öncə anadır, vətənpərvər övladlar yetişdirən, evinin nuru ilə cəmiyyəti aydınladan müqəddəs varlıqdır.

8 Mart - təbiətin oyandığı, baharın ilk nəfəsinin duyulduğu bir bayram günüdür. Azərbaycan qadını da öz varlığı ilə cəmiyyətimizə bahar təravəti, ailəmizə hüzur, dövlətimizə güc qatır. Bu gün Azərbaycan bayrağı azad edilmiş torpaqlarda dalğalanırsa, bu vətən bütövdürsə, bu Zəfərdə məğrur qadınlarımızın da əməyi, duası və sarsılmaz ruhu var.

Bayramın mübarək, Azərbaycan Qadını! Sənin ucalığın Azərbaycanın ucalığıdır.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Şəfqət bacımız

**O, Mərkəzi Neftçilər Xəstəxanasına qədəm qoyanda çox gənc idi. Ağ xalatın məsuliyyətini çiyinlərinə götürərkən bəlkə də qarşıda onu necə uzun və şərəfli bir yolun gözlədiyini özü də tam təsəvvür etmirdi. Elə ilk günlərdən xəstələrə diqqəti, həssaslığı ilə seçildi, həmkarlarının və pasiyentlərin ürəyində məskən saldı.**



41 ilini insanların sağlamlığı keşiyində dayanmış şəfqət bacısı Elmira Xasmətova ömrünün gənclik illərini, xəyal dövrünü belə xatırlayır: "1983-cü ildə Qaradağ rayonu Sahil qəsəbəsindəki 228 nömrəli orta məktəbi bitirib, Tibb Texnikumuna qəbul oldum. Texnikumu fərqlənmə diplomu ilə başa vurmuşam. Müəllimlərim mənə təhsilimi davam etdirməyi, həkim olmağı məsləhət görürdülər. Arzum isə hələ uşaqlıqdan şəfqət bacısı olmaq idi. Ruhuma hakim kəsilən qəribə bir hiss mənə deyirdi ki, sən vəzifə borcunu yerinə yetirən adi bir tibb işçisi yox, əsl şəfqət bacısı olmalısan. Biz təhsil alan vaxt belə bir qayda vardı - xəstəxanaların baş həkimləri təhsil müəssisələrinə gedib bilikli, bacarıqlı kadrlar axtarırdılar. İndi işlədiyim xəstəxananın ozamankı baş həkmi, mərhum Həsənağa Əliyev də bizim məktəbdən məni seçdi. Həmin illərdə Neftçilər Xəstəxanası ölkədə birnömrəli səhiyyə ocağı idi. Burada işləyəcəyimi eşidəndə çox sevindim. Atam da neftçi idi. Neftçilərin necə fədakar, zəhmətkeş olduqlarını atamın qabarlı əllərindən bilirdim. Mənə doğma olan insanların sağlamlığının qayğısına qalmağı özüm üçün həm də mənəvi borc hesab edirdim. O zaman bura qapalı xəstəxana idi. Yalnız neftçilər müalicə olunurdular. Bir il işlədikdən sonra məni baş tibb bacısı təyin etdilər. Artıq 41 ildir ki, burada çalışıram".

Baş tibb bacısı kimi Elmira Xasmətova bu gün yalnız tibbi prosedurların idarə olunmasına deyil, həm də xəstəxana kollektivində nizam-intizam və pasiyent-tibb personalı mühitinin qorunmasına cavabdehdir. 1985-ci ildən etibarən taleyini Mərkəzi Neftçilər Xəstəxanasına bağlayan tibb bacısı peşəkarlığını artırmağa ciddi yanaşıb. Çalışdığı bu illər ərzində beynəlxalq və regional səviyyəli çoxsaylı kurs və konfranslarda, İstanbulda keçirilən 23-cü Ulusal Qastroenteroloji Konqresində təmsil olunub, "Qastrointesional Endoskopi Hemşireleri ve Teknisyenleri Derneği"nin, eləcə də "Qastroenteroloji Hemşireleri Derneği"nin ixtisasartırma kurslarını uğurla başa vurub. Bu davamlı inkişaf yolu onun yalnız təcrübəli tibb bacısı deyil, həm də yeniliyə açıq, daim öyrənən, peşəsinə məsuliyyətlə yanaşan mütəxəssis olduğunu təsdiqləyir.

İllər keçdi, nəsillər dəyişdi, çalışdığı tibb ocağında neçə-neçə gənc tibb bacısı onun rəhbərliyi altında püxtələşdi. "Xəstə əvvəl insan, sonra pasiyentdir". Bu fikir onun peşə fəlsəfəsinin əsası, fəaliyyətinin isə yolgöstərən ruhudur. Bəlkə də elə buna görə xəstələr onu əzizləri, doğmaları kimi qəbul edirlər.

Mərkəzi Neftçilər Xəstəxanasının direktoru Musa Abbasov onun haqqında belə dedi: "Elmira xanım baş tibb bacısı kimi yalnız tibbi proseslərin düzgün təşkili ilə kifayətlənmir, həm də kollektivdə nizam-intizam, qarşılıqlı hörmət və mənəvi birlik mühiti yaranmasında əvəzsiz xidmət göstərir, gənc əməkdaşlara peşə sirlərinin öyrədilməsində qayğısını və biliyini əsirgəmir. Ən çətin anlarda belə təmkinini itirməməsi, fövqəladə hallarda çevik qərarlar verməsi, eyni zamanda xəstənin gözünə baxıb onu sakitləşdirə bilməsi onun peşəkarlığını tamamlayan ən mühüm keyfiyyətdir. Elmira xanımın peşəkarlığı və insanlığı o səviyyədədir ki, ağrının nə olduğunu bəlkə də xəstədən daha çox anlayır. Çünki insanı dinləməyi bacarır, dinləmək isə bəzən müalicənin yarısıdır".

Tibb bacısı işlədiyi bu 41 il ərzində minlərlə insan onun qayğısı ilə yenidən sağlamlığına qovuşub. Elmira xanım danışdıqca insanın ağlına bir fikir hakim kəsilir: "Səhiyyə yalnız müalicə etmək deyil, həm də mərhəmətdir. O isə bu peşənin ustadlarından biridir. Ağ xalatı ilə illərboyu insanlara ümid paylayan bu xanım sübut edib ki, şəfqət zamanla köhnəlmir, əksinə, dərinləşir, böyüyür. Onun həyatı təkcə bir tibb bacısının taleyi deyil, bütövlükdə şəfqət bacılarının görünməyən zəhmətinə, gecə-gündüz yorulmadan çalışan, insan sağlamlığını öz həyatlarının bir parçasına çevirən fədakar insanların hekayəsidir. Çünki elə peşələr var ki, onların dəyəri vicdanla ölçülür.

Elmira xanım deyir ki, 2020-ci ildə COVID-19 pandemiya elan olunanda insanlar təlaş içində idilər, nə edəcəklərini bilmirdilər. Bu qorxulu virusun insanlarla "davranış"ı hələ sirr idi: "Xəstəxanamızda COVID-lə mübarizəyə qoşulan üç tibb bacısından biri də mən idim. Gecəmizi gündüzümüzə qatıb çalışdıq..."

Elmira Xasmətova 2020-ci il sentyabrın 27-sini göz yaşı ilə xatırlayır: "Sentyabrın 27-si bazar günü idi. Ali Baş Komandan İlham Əliyevin televiziya ilə xalqa müraciətini eşidən kimi xəstəxanaya yollandım. O qədər həyəcanlı idim ki... Birbaşa döyüş zonasına getmək istəyirdim. İllərdir torpaq həsrətinə son qoymaq üçün canını fəda edən gənclərimizlə, qəhrəman oğullarımızla bir yerdə olmaq istəyirdim. Xəstəxanaya çatanda gördüm ki, hətta məzuniyyətdə olan həkimlərimiz də xəbəri eşidib döyüş zonasına getmək üçün növbəyə dayanıblar".

Elmira xanımla söhbət zamanı birmənalı olaraq qəbul edirsən ki, 60 illik ömrünün 41 ilini eyni xəstəxanada insanlara xidmətə həsr edən bu xanım, sadəcə, baş tibb bacısı yox, şəfqətin, mərhəmətin və sədaqətin canlı ünvanıdır. Onun ömür yolu sübut edir ki, şəfqət bacısı yalnız ixtisas deyil, insan taleyinə cavabdeh müqəddəs bir missiyadır. O, illərboyu qazandığı fəxri fərman, "Tərəqqi" medalı və digər mükafatlarla yanaşı, ən ali dəyəri - insanların dualarında yaşamağı bacarıb. Ailədə iki övladına necə qayğıkeş və dayaqdırsa, xəstələr üçün də elə şəfqət bacısıdır.

*Elşən QƏNİYEV,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

# Qadın istərsə...

**Qadınlar tarixboyu cəmiyyətin müxtəlif sahələrində mühüm rol oynayıblar. Onlar yalnız ailənin dayağı deyil, həm də elm, təhsil, mədəniyyət, siyasət və iqtisadiyyat kimi sahələrdə uğurları ilə seçilən güclü şəxsiyyətlər olublar. Müasir dövrdə isə qadınların fəaliyyəti daha da genişlənib. Bəzən kişilərin üstünlük təşkil etdiyi peşələrdə belə qadınların uğurla çalışdığını görürük. Bu gün qadınlar müəllimlikdən mühəndisliyə, pilotluqdan hərb sahəsinə qədər müxtəlif istiqamətlərdə fəaliyyət göstərir, məsuliyyətli və çətin peşələrdə öz sözlərini deyirlər. Bu dəyişikliklər cəmiyyətin inkişafının, qadınların öz gücünə inamının və stereotiplərin tədricən aradan qalxmasının nəticəsidir.**

Son illərdə ictimai nəqliyyat sahəsində də qadınların fəaliyyətinə daha çox rast gəlinir. Bu gün bir qadını sükan arxasında görmək artıq təəccüb doğurmur. Lakin bu sahədə çalışan qadınların sayı hələ də çox deyil. Məhz buna görə də ictimai nəqliyyatda çalışan hər bir qadın sürücü müəyyən mənada stereotipləri qırır, cəmiyyətə yeni bir nümunə təqdim edir, həmcinslərinin yolunu açır.

Belə qadınlardan biri də uzun illərdir avtomobil idarə edən və hazırda ictimai nəqliyyat sahəsində çalışan Rəna Cəfərovadır. Onun həyat yolu, peşəyə olan sevgisi və qarşılaşdığı çətinliklər qadınların istənilən sahədə uğur qazana biləcəyinin parlaq nümunəsidir.

### Uşaqlıq marağından peşə seçiminə gedən yol

1987-ci il təvəllüdlü Rəna Cəfərova Bakıda dünyaya göz açıb. Onun həyatında avtomobillərin həmişə xüsusi yeri olub. Həmsöhbətimin sözlərinə görə, avtomobillərə marağı hələ uşaqlıq illərindən başlayıb. Bu maraq zaman keçdikcə daha da güclənərək həyatının ayrılmaz hissəsinə çevrilib. O, artıq 25 ildən çoxdur ki, avtomobil idarə edir.

Yeniyetməlik yaşlarından sükan arxasına keçən Rəna illər keçdikcə bu sahədə təcrübəsini artırsa da, sürücülüyə gəlişi tədricən olub. Orta məktəbi bitirdikdən sonra pedaqoji sahədə təhsil alıb, Azərbaycan Dövlət Pedaqoji Kollecini bitirib və bir müddət informatika müəllimi kimi fəaliyyət göstərib. Müsahibim deyir ki, təhsil sahəsində çalışdığı illər onda insanlarla ünsiyyət qurmaq, məsuliyyət və nizam-intizam kimi vacib keyfiyyətləri daha da möhkəmləndirib.

Sonrakı illər Rəna xanım özünü müxtəlif sahələrdə sınasa da, avtomobil idarə etmək sevgisi azalmayıb. Və nəhayət, bir gün bu sevgi onu ictimai nəqliyyat sahəsinə gətirib çıxarıb. Hazırda Rəna Cəfərova sərnişindaşıma sahəsində fəaliyyət göstərir, avtobus idarə edir və hər gün yüzlərlə insanın təhlükəsiz şəkildə mənzilbaşına çatdırılmasının məsuliyyətini daşıyır. Onun sözlərinə görə, bu peşəni seçməsində əsas səbəb məhz sükan arxasında olmaq sevgisi və insanlara xidmət etmək istəyidir.

### "Bu qadın işi deyil" dedilər

İctimai nəqliyyat sahəsində çalışan qadınların qarşılaşdığı ən böyük problemlərdən biri cəmiyyətdə mövcud olan stereotiplərdir. Sükan arxası daha çox kişilərlə əlaqələndirildiyi üçün qadın sürücülər bəzən təəccüb və ya şübhə ilə qarşılanır. Rəna Cəfərova da fəaliyyətə başladığı ilk vaxtlarda belə münasibətlə üzləşib. Onun sözlərinə görə, əvvəlcə bəzi insanlar bu peşənin qadınlar üçün uyğun olmadığını düşünür, bəziləri isə açıq şəkildə "bu qadın işi deyil" deyərək fikirlərini bildirir.

Belə yanaşmalar bu gənc qadını yolundan döndərməyib. Əksinə, o, öz işi ilə bu fikirlərin yanlış olduğunu sübut etməyə çalışıb. Bu yolda isə ən böyük dəstəyi ailəsindən alıb. Ailəsinin ona olan inamı Rəna xanıma motivasiya verib. Bir övlad anası olan müsahibim deyir ki, həmişə gücü, dözümü həyatın çətin sınaqlarından çıxmağa ona stimul verib.

Zaman keçdikcə həm yaxın çevrəsi, həm də sərnişinlər onun işinə olan məsuliyyətini və peşəkarlığını dəyərləndirməyə başlayıblar. Bu gün isə ətrafındakı insanlar onunla qürur duyduqlarını bildirirlər. Rənanın sözlərinə görə, ictimai nəqliyyat sürücüsünün işi təkcə avtomobil idarə etməkdən ibarət deyil. Bu peşə səbir, diqqət və yüksək məsuliyyət tələb edir.

Hər gün yolda müxtəlif vəziyyətlərlə qarşılaşmaq mümkündür. Rənanı ən çox narahat edən məqamlardan biri yol hərəkəti qaydalarına əməl etməyən sürücülərdir. Buna baxmayaraq, o, belə situasiyalarda sakit qalmağa çalışdığını deyir. Həmsöhbətimin sözlərinə görə, stresli anlarda ən vacib məsələ diqqəti yalnız yola yönəltməkdir. Çünki sükan arxasında olan hər bir sürücü təkcə özünün deyil, sərnişinlərin də təhlükəsizliyinə cavabdehdir.



### İstək, zəhmət, inam

Rəna Cəfərova ictimai nəqliyyat sahəsində işləmək üçün xüsusi təlimlərdən keçib. O hesab edir ki, yaxşı sürücü olmaq üçün yalnız təcrübə deyil, həm də davamlı öyrənmək və özünü inkişaf etdirmək vacibdir.

Sürücü xanımın iş günü səhər tezdən başlayır. O, marşrut üzrə sərnişinləri təhlükəsiz şəkildə mənzilbaşına çatdırmaq üçün diqqətlə və məsuliyyətlə çalışır. Gün ərzində müxtəlif insanlarla qarşılaşmaq isə onun işini daha maraqlı edir. İlk iş günündən danışan həmsöhbətim deyir ki, həmin gün olduqca həyəcanlı olub. Lakin zaman keçdikcə bu həyəcan yerini özünəinamla əvəz edib.

Hər bir peşədə olduğu kimi, avtobus sürücülüyündə də insanı motivasiya edən müxtəlif məqamlar var. Rəna xanım üçün isə ən böyük həvəsləndirmə sərnişinlərin göstərdiyi hörmət və minnətdarlıqdır. Ən çox eşitdiyi söz isə "çox səliqəli sürürsünüz" ifadəsidir. Bu cür sözlər onun üçün, sadəcə, kompliment deyil, həm də işinə verilən dəyərin göstəricisidir. Belə anlar bütün yorğunluğu unutdurur və insanın gördüyü işin nə qədər əhəmiyyətli olduğunu xatırladır.

Rəna xanım hesab edir ki, qadınlar da bu işi ən az kişilər qədər peşəkar şəkildə yerinə yetirə bilirlər. O arzulayır ki, gələcəkdə ictimai nəqliyyat sahəsində çalışan qadınların sayı daha da artsın. Çünki bu həm cəmiyyətin inkişafını, həm də qadınların öz gücünə inamını göstərən mühüm göstəricidir. Rəna Cəfərova qadınlara müraciət edərək deyir ki, zərif cinsin hər bir nümayəndəsi özünə inanmalı və məqsədinə doğru qətiyyətlə irəliləməlidir. Bu güclü xanımın həyat yolu göstərir ki, istək, zəhmət və inam olduqda insan qarşısına qoyduğu bütün məqsədlərə mütləq çatır.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Heydər Əliyev Sarayında "Yalnız mədəniyyət" adlı musiqili tamaşa nümayiş olunub

**Heydər Əliyev Sarayında dahi şair, yazıçı, dramaturq Hüseyn Cavidin xatirəsinə həsr olunan "Yalnız mədəniyyət" adlı musiqili tamaşa nümayiş olunub.**

AZƏRTAC xəbər verir ki, tədbirdə Leyla Əliyeva iştirak edib.

Səhnə əsərinin quruluşçu rejissoru Əbdülqəni Əliyev, ssenari müəllifləri Afaq Vasifqızı, Lalə Əliyevadır. Dahi şair Hüseyn Cavidin obrazına Xalq artisti Eyyub Yaqubov həyat verib. Tamaşada Xalq artisti Mehriban Zəki, tanınmış musiqiçi Vaqif Əsədov, pianoçu-bəstəkar Gülsüm Eldarova, aktyorlar Elşən Əsgərov, Natiq Abdullayev, Oqtay Kazımov, Emil Bağırzadə və digərləri, həmçinin C.Cahangirov adına







Xor kollektivi, Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri yer alıb.

Musiqili tamaşada dramaturqun həyat və yaradıcılığını əks etdirən təsirli səhnə fraqmentləri, kövrək sevgi xətti, pyeslərdən parçalar, incə lirika nümunələri səsləndirilib. Xalq artisti Eyyub Yaqubovun ifa etdiyi mahnılar tamaşanın bədii-estetik dəyərini daha da artırıb.

# Leyla Əliyeva Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində olub

**Leyla Əliyeva Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində (BBMM) olub.**

AZƏRTAC xəbər verir ki, BBMM-in icraçı direktoru Rəvan Həsənov Leyla Əliyevaya mərkəz haqqında məlumat verib. Bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fərmanı ilə 2014-cü ildə yaradılan mərkəz Azərbaycanın multikulturalizm modelinin öyrənilməsi, qorunması və beynəlxalq səviyyədə təbliği istiqamətində mühüm layihələr həyata keçirir, beynəlxalq təşkilatlarla əməkdaşlıq edir. Hər il beynəlxalq səviyyəli konfranslar, elmi seminarlar, "dəyirmi masa"lar və forumlar təşkil olunur. Bu tədbirlərdə müxtəlif ölkələrdən alimlər, tədqiqatçılar, ekspertlər və ictimai xadimlər iştirak edərək multikulturalizm, dinlərarası dialoq və mədəniyyətlərarası əməkdaşlıq mövzularını müzakirə edirlər.





Prezident İlham Əliyevin "Azərbaycanı dünyada multikulturalizm mərkəzi kimi tanıtmaq" təşəbbüsünə əsasən mərkəz "Azərbaycan multikulturalizmi" fənninin yerli və xarici ölkə universitetlərində tədrisi layihəsini həyata keçirir. Bu layihə çərçivəsində dünyanın 27 aparıcı universitetində "Azərbaycan multikulturalizmi" fənni tədris olunub. Eyni zamanda ölkənin 40-a yaxın universitetinin magistratura səviyyəsində bu fənnin tədrisi aparılır, ölkənin ali təhsil müəssisələrinin bakalavr səviyyəsində "Multikulturalizmə giriş" əsas fənn kimi tədris edilir.

Qeyd olunub ki, mərkəz Azərbaycanın tarixi, mədəniyyəti ilə bağlı kitablar, monoqrafiyalar, elmi məqalələr və metodik vəsaitlərin, tarixi xəritələrin çap olunmasına, BBMM-in təşkilatçılığı ilə keçirilən yerli və beynəlxalq konfransların materiallarının nəşrinə, həmçinin Azərbaycanda yaşayan etnik azlıqların dillərində kitabların hazırlanmasına xüsusi diqqət ayırır. Bu nəşrlər həm ölkə daxilində, həm də beynəlxalq akademik mühitdə təqdim olunur.

Sonra mərkəzin fəaliyyətinə dair film nümayiş etdirilib. Leyla Əliyeva mərkəzin nəşrləri ilə tanış olub.

Leyla Əliyeva Azərbaycanın multikultural dəyərlərinin qorunması və dünyada tanıdılması istiqamətində həyata keçirilən layihələrin əhəmiyyətini vurğulayıb. Xüsusilə islamofobiya, antisemitizm və ksenofobiyaya həsr olunan konfransların keçirilməsini, Azərbaycanın xristianlıq irsinin dünyada tanıdılması istiqamətində görülən işləri yüksək qiymətləndirib. Mərkəzin fəaliyyətində gənclərlə işin təşkil olunmasına verilən önəmin Azərbaycan multikulturalizminin tanıdılması istiqamətində mühüm rol oynadığını bildirib. Eyni zamanda BBMM-in müxtəlif xalqlar arasında anlaşmanın və mədəniyyətlərarası dialoqun inkişafına mühüm töhfə verdiyini qeyd edib.

Leyla Əliyeva mərkəzin kollektivi ilə həmsöhbət olub, onlarla şəkil çəkdirib.

Qeyd edək ki, Leyla Əliyeva Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurasının üzvüdür.

# Leyla Əliyeva Bakı Xoreoqrafiya Akademiyasının qonağı olub







**Leyla Əliyeva Bakı Xoreoqrafiya Akademiyasının qonağı olub. Görüşdə mədəniyyət naziri Adil Kərimli də iştirak edib.**

AZƏRTAC xəbər verir ki, Leyla Əliyeva Bakı Xoreoqrafiya Akademiyasının rəhbərliyi, şagird və tələbələri, pedaqoji heyəti ilə görüşüb, akademiyanın fəaliyyəti, eləcə də dərs otaqları və məşq zalları ilə tanış olub. Daha sonra Bakı Xoreoqrafiya Akademiyasının tələbələri qonaqlar üçün "Vals" ("Yatmış gözəl" baletindən) və "Qazağı" rəqsini ifa ediblər.

# Şəhid analarının iştirakı ilə iftar süfrəsi təşkil edilib





**Martın 6-da Heydər Əliyev Fondunun dəstəyilə "Mənim oğlum qəhrəmandır!" layihəsi çərçivəsində Müqəddəs Ramazan ayı və 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə tədbir təşkil olunub.**

Müqəddəs Ramazan ayına təsadüf edən tədbir çərçivəsində iftar süfrəsi açılıb.

Tədbirdə Azərbaycanın müxtəlif bölgələrindən olan qəhrəman şəhidlərimizin anaları, ailə üzvləri iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, Leyla Əliyeva da şəhid ailələri ilə birlikdə iftar süfrəsində iştirak edib, onlarla həmsöhbət olub.

Tədbir torpaqlarımızın bütövlüyü uğrunda döyüşmüş qəhrəman şəhidlərimizin xatirəsinə ehtiramın, onların ailələrinə dövlət və cəmiyyət qayğısının ifadəsi olaraq keçirilib.

Tədbirdə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun şücaətindən, ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olan Vətən oğullarının qəhrəmanlığından danışılıb, Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin ruhuna dualar oxunub, Uca Yaradandan dünyada sülhün, ölkəmizdə əmin-amanlığın bərqərar olması dilənib.

Şəhid ailələrinin adından çıxış edən Azərbaycanın Milli Qəhrəmanı, şəhid general-mayor Polad Həşimovun anası Səmayə Həşimova şəhid ailələrinin daim diqqət mərkəzində saxlanıldığını bildirib, qayğı və ehtirama görə minnətdarlığını ifadə edib.

Daha sonra Azərbaycanın tanınmış incəsənət xadimləri çıxış ediblər.







Qeyd edək ki, Vətən uğrunda şəhid olan qəhrəman oğullarımızın yad edildiyi, onların bizə əmanət qoyduqları ailələrin iştirak etdiyi "Mənim atam qəhrəmandır" və "Mənim oğlum qəhrəmandır" layihələri çərçivəsində silsilə tədbirlər təşkil olunur. Bu cür tədbirlər şəhid ailələrini bir araya gətirərək dövlətin və Azərbaycan xalqının daima onların yanında olduğunu bir daha hiss etdirir. Bu tədbirlər şəhid ailələrinə diqqət və qayğının, onların qəhrəman övladlarının xatirəsinə ehtiramın ifadəsi olmaqla yanaşı, bu istiqamətdə dövlət tərəfindən görülən işlərə dəstək məqsədi daşıyır.

# Azərbaycan qadını müdrikliyin, fədakarlığın və gücün rəmzidir

**Azərbaycan xalqının tarixində qadının xüsusi və əvəzsiz yeri olub. Qadınlarımız əsrlər boyu zəkası, müdrikliyi, sədaqəti və mərdliyi ilə seçilərək cəmiyyətimizin inkişafına böyük töhfələr veriblər. Qədim zamanlardan bu günə Azərbaycan qadını cəmiyyətimizin inkişafında, dövlətin möhkəmlənməsində və milli kimliyimizin formalaşmasında əvəzsiz xidmətlər göstərib.**

Azərbaycan qadınının xarakterində xüsusi bir güc və mənəvi ucalıq var. O, hər zaman ailəsinin dayağı olub, çətin zamanlarda xalqımızın yanında dayanıb. Tarixin müxtəlif dövrlərində qadınlarımız ana və həyat yoldaşı olmaqla yanaşı, həm də qəhrəman, ziyalı, müəllim, elm adamı və dövlət xadimi kimi fəaliyyət göstəriblər. Onların hər biri xalqımızın inkişafına öz töhfəsini verib və adlarını tariximizin şərəfli səhifələrinə yazdırıblar.

Azərbaycan qadını milli mədəniyyətimizin və mənəvi dəyərlərimizin qoruyucusudur. Xalqımızın zəngin folklorunun, adət-ənənələrinin və ailə dəyərlərinin nəsildən-nəslə ötürülməsində qadınların rolu əvəzsizdir. Onlar, sadəcə, ailə ocağını qorumaqla kifayətlənməyiblər, həmçinin övladlarına vətənə sevgi, milli kimlik və yüksək mənəvi dəyərlər aşılayıblar. Məhz bu səbəbdən Azərbaycan qadını hər zaman hörmət və ehtiramla yad edilib.

XX əsr dünyada qadınların ictimai həyatda fəallığının artdığı bir dövr kimi yadda qalıb. Bu proses Azərbaycandan da yan keçməyib. Qadınlarımız həm Azərbaycan Xalq Cümhuriyyəti dövründə, həm də sonrakı mərhələlərdə cəmiyyətin müxtəlif sahələrində fəal iştirak edərək ölkəmizin inkişafına öz töhfələrini veriblər. Azərbaycan qadınları bir çox ölkədən daha əvvəl seçki hüququ əldə ediblər. 1919-cu ildə qadınlara səsvermə hüququnun verilməsi Azərbaycan cəmiyyətinin demokratik dü-



şüncəsinin və inkişaf səviyyəsinin bariz göstəricisidir. Bu, bir daha sübut edir ki, qadınlarımız tarix boyu cəmiyyətin fəal üzvü olublar. Onlar daim ölkənin ictimai-siyasi həyatında iştirak edir, dövlətin inkişafında mühüm rol oynayırlar. Azərbaycan qadınlarının elm və təhsil sahəsində irəliləyiş əldə etməsi ölkəmizin tərəqqisinə böyük təsir göstərib.

Müstəqillik dövründə Azərbaycan qadınlarının fəaliyyəti daha da genişlənib. Müasir Azərbaycan qadını həm də siyasət, iqtisadiyyat, elm, mədəniyyət və digər sahələrdə uğurla fəaliyyət göstərir. O, həm qayğıkeş ana, həm də bacarıqlı rəhbər, ziyalı və ictimai xadim kimi cəmiyyətin inkişafında mühüm rol oynayır. Bu gün Azərbaycan qadını dövlət idarəçiliyində, parlamentdə, diplomatiyada və sahibkarlıq sahəsində mühüm mövqelər tutur.

Ölkəmizdə həyata keçirilən dövlət siyasəti də qadınların cəmiyyətdə fəal iştirakını dəstəkləyir. Müstəqil Azərbaycan Respublikasının qanunvericiliyi qadınların hüquqlarını qoruyur və onların kişilərlə bərabər imkanlara malik olmasını təmin edir. Azərbaycan Konstitusiyası kişi və qadının hüquq bərabərliyini təsbit edir və bu istiqamətdə mühüm hüquqi baza yaradır. Qanun qarşısında bərabərlik prinsipi Azərbaycan qadınlarının cəmiyyətin bütün sahələrində öz potensialını nümayiş etdirməsinə imkan verir.

Azərbaycan qadınının cəmiyyətdəki yüksək mövqeyi xalqımızın mental dəyərləri ilə də sıx bağlıdır. Xalqımız qadına həmişə böyük hörmətlə yanaşıb, onu ailənin və cəmiyyətin müqəddəs dayağı hesab edib. "Ana", "Vətən", "Torpaq" kimi müqəddəs anlayışların bir-biri ilə əlaqələndirilməsi də qadına verilən yüksək qiymətin göstəricisidir. Ana obrazı xalqımızın düşüncəsində müqəddəslik rəmzi kimi qəbul olunur.

Azərbaycan qadını, sadəcə, sülh və inkişaf dövrlərində yox, çətin zamanlarda da öz gücünü və iradəsini nümayiş etdirib. Xalqımızın tarixində baş verən ağır sınaqlar zamanı qadınlar böyük fədakarlıq göstərib, vətən uğrunda mübarizədə ön sıralarda dayanıblar. Onlar həm arxa cəbhədə çalışıb, həm də milli ruhun qorunmasında mühüm rol oynayıblar.

Azərbaycan qadını həm də yüksək mənəviyyatın və humanizmin daşıyıcısıdır. Onun mərhəməti, qayğıkeşliyi və fədakarlığı cəmiyyətin mənəvi inkişafında mühüm rol oynayır. Qadınlar ailədə sevgi və harmoniyanın qorunmasında, övladların düzgün tərbiyəsində və sağlam cəmiyyətin formalaşmasında əsas mövqeyə sahibdirlər.

Bu gün Azərbaycan qadını dünya miqyasında da öz bacarığını və potensialını nümayiş etdirir. Müxtəlif beynəlxalq layihələrdə, elmi konfranslarda, mədəni tədbirlərdə və diplomatik platformalarda ölkəmizi layiqincə təmsil edən qadınlarımız Azərbaycan dövlətinin və xalqının nüfuzunu daha da yüksəldirlər.

Azərbaycan qadını bütövlükdə xalqın gücüdür. Onun mərdliyi, sədaqəti və yüksək mənəvi keyfiyyətləri bütün bəşəriyyət üçün nümunədir.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

**On gün əvvəl Xocalıda Soyqırımı Memorialının açılışından sonra Prezident İlham Əliyev sakinlərlə söhbət edərkən ona saçları dağların qarından bəyaz bir qadın da yaxınlaşdı. Uzun illərin ayrılığından sonra doğma yurdu ilə görüşündən yaranan sevinc keçmişin acı xatirələrinə qarışmışdı. Həyəcanı səsindən hiss olunurdu. O, üzünü Prezidentə tutaraq 15 il əvvəl Goranboyda qaçqınlar və məcburi köçkünlər üçün salınmış məhəllədə olan söhbəti xatırladı: "Cənab Prezident, 2011-ci ildə Siz mənim evimdə çıxış etmisiniz. Siz mənə orada söz verdiniz ki, vaxt gələcək, torpaqlarımız alınacaq, sizə bundan da gözəl evlər tikiləcək. Şükür..."**

# "Hər birinizi evimə qonaq dəvət edirəm"

## Xocalı soyqırımında üç körpəsini itirmiş Sədaqət ana doğma yurduna dönməyə hazırlaşır... bu dəfə üç nəvəsi ilə



Xocalısına qovuşan qadının bu minnətdarlığı, bu sözləri dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə xalqımızın qazandığı möhtəşəm qələbənin, yurd-yuvasına dönən insanların məmnunluğunun, xoşbəxtliyinin əks-sədası idi. Bu həm də Prezident İlham Əliyevin hər işdə, hər sahədə sözübütövlüyünün, sözünün də imzası qədər kəsərli və etibarlı olduğunun, verdiyi vədə sədaqətinin daha bir təsdiqi idi.

Sədaqət dedik. Elə bu qadının adı da Sədaqətdir, Sədaqət Hüseynova. Onun və ömür-gün yoldaşı İsaq Ağayarovun yaşadıqları Xocalı müsibətləri həm də sədaqətin, sevginin və mənəvi bütövlüyün bir sınağı olub. Sədaqət xanımla bu barədə 2017-ci ilin fevralında Goranboyda, məskunlaşdıqları həmin o evdə söhbət etmişdik. Aradan xeyli vaxt keçsə də, qeyd dəftərçəmə baxmadan və diktafonumun düyməsini basmadan o söhbətimizi cümlə-cümlə, bəlkə də kəlmə-kəlmə yadıma salıram.

İsaqla Sədaqət 1980-ci ildə evlənmişdilər. Ulduzları barışmışdı, gözəl yuva qurmuş, isti ailə ocağı yandırmışdılar. Bu xoşbəxt cütlüyün üç fidan balası vardı. Nəbi 11, Sevinc 8, Raman 7 yaşında idi. Cavan ailə İsaqın valideynləri ilə birlikdə yaşayırdı.

1988-ci ildən başlayaraq bütün Xocalı sakinləri çox çətinliklər çəkdilər. İstər ərzaq sarıdan, istərsə də daim vahimə, səksəkə içində yaşamaqdan.

1992-ci ilin fevralında Xocalıda vəziyyət lap kəskinləşəndə qayınanası təkid edir ki, Sədaqət uşaqları da götürüb vertolyot meydançasının yaxınlığında yaşayan bacısıgilə getsin. Çünki fürsət düşən kimi burada vertolyota minib Xocalıdan çıxmaq, uşaqları xilas etmək şansı yarana bilərdi. O zaman İsaq gecə-gündüz postda, ön mövqedə keşik çəkirdi. Beləliklə, bir ailə üç hissəyə parçalanmışdı.

- Fevralın 25-dən 26-na keçən gecə tankların, pulemyotların nəriltisindən yer-göy titrəyirdi. Evin divarları, tavanı sanki bu dəqiqə uçub töküləcəkdi. İçəridə işıq yanmırdı, bayırda yer qarla örtülü idi.

Sədaqət xanım bunları mənə astadan, az qala pıçıltı ilə danışırdı. Elə bil hıçqırığının onu boğacağından qorxurdu. Bir də ki, İsaq bu söhbətləri eşitməməli idi. Çünki əsəbləri çox gərgin idi. Bu barədə eşidəndə, yaxud danışanda kişinin halı dəyişirdi. Ona görə də Sədaqətin göz yaşını silə-silə qalxıb, üstəlik ev sahibinin oturduğu otağın qapısını möhkəm bağlayıb söhbətinə davam etdiyi də yaxşı yadımdadır:

- İki bacı bir-birimizin üzünə baxdıq və heç nə demədən elə baxışlarımızla bir-birimizi başa düşdük. Çıxmaq lazım idi.

Beləcə, iki qadın yeddi uşaqla yola çıxır. Qarqar çayına üz tuturlar. Uşaqları qucaqlarına alıb çaydan keçirirlər. Bundan sonra əlçatmaz-üyetməz, səmti-istiqaməti bilinməyən, fəlakət və faciə dolu bir yol başlanır.

Xocalıdan çıxanda Sədaqətin 33 yaşı, bacısı Saranın 35 yaşı var idi. Xocalıda doğulub böyümüşdülər. Hansı səmtdə hansı bölgənin yerləşdiyini də yaxşı bilirdilər. O müdhiş gecədə Ağdam tərəfə yollanırlar. Lakin qaranlıq və şaxta onları necə karıxdırırsa, hava işıqlaşanda az qala Xankəndiyə çatdıqlarını görürlər. Yolu dəyişəndən sonra böyük bir dəstə ilə rastlaşıb ona qoşulurlar. Abdal-Gülablıya çatmağa az qalmış ermənilərin atəşlərinə məruz qalırlar.

Öndə gedən cavan oğlanlar, kişilər işarə ilə bildirirlər ki, irəliyə gəlməyin. Bununla belə, vəhşiləşmiş erməni dığaları günahsız insanları güllələbaran edir. Bacılar uşaqların və özlərinin salamat qaldıqlarına şükür edib ara sakitləşəndən sonra yenidən yola düzəlirlər. Onlar artıq beş gün-beş gecə idi ki, ac-susuz çöllərdə, meşələrdə idilər.

Qan qarın üstü ilə şırım açaraq arx kimi axırdı. İki qadın və yeddi uşaq qanlı izlərin üstü ilə addımlayaraq irəliləyirdilər. Və bundan sonra elə olaylar baş verir ki, onları sözlə ifadə etmək çətindir…

Uşaqlar yemək, su istəyirdilər. Tez-tez soruşurdular ki, bəs atamız hanı? Niyə gəlib bizə kömək etmir?

Bu zaman Sədaqətin həyat yoldaşı İsaq başqa bir səmtdə faciə yaşayırdı. O, evə dönəndə Sədaqət artıq uşaqları da götürüb Saragilə getmişdi. İsaq atasını qabağa salıb anasını kürəyinə götürərək odun-alovun içindən birtəhər çıxır. Var-gücünü toplayıb irəliyə gedir, anasını belindən düşürüb geriyə qayıdır, qız-gəlinə, uşaqlara irəliləməkdə kömək edir və yenidən irəli qaçıb anasını kürəyinə götürür.

Söhbətimiz zamanı Sədaqət o günlərin hər anını ürəyinin daxili fəryadı ilə xatırlayırdı:

- Biz pərən-pərən düşmüşdük. Bilirdim ki, İsaqın macalı olsa, mütləq özünü bizə çatdırar. Amma uşağı necə başa salasan?.. Taqətdən düşmüş bacım birdən-birə qarın üstünə çökdü. Ona yalvardım ki, "Sara, qalx, uşaqları bu zülmdən qurtaraq". Onu qaldırmağa çalışdım. Amma artıq gec idi... Bundan sonra təbiətin və taleyin amansız şaxtası mənim gözümün qarşısındaca ömür çiçəyimin üçünü də soldurdu. Bacımın üç ciyərparəsi də kol dibində donub qalmışdı. Son gücümü toplayaraq Saranın salamat qalmış böyük qızının əlindən tutub irəliləməyə çalışdım. Bundan sonra nələr olduğu yadımda deyil. Gözümü açanda özümü Ağdam hospitalında gördüm.

Daha sonra Sədaqəti M.Mirqasımov adına Respublika Klinik Xəstəxanasına gətirirlər. Orada ayaqlarını əməliyyat edirlər. Sədaqət bu əməliyyatın nədən ibarət olduğunu bilmir. Lakin əməliyyatdan bir-iki gün sonra xəstəxanada çəkiliş aparan Türkiyə jurnalistləri həkimdən xahiş edirlər ki, Sədaqətin ayaqlarını onlara göstərsin. Həkim mələfəni qaldıranda Sədaqət görür ki, don vurmuş barmaqlarını kəsiblər...

Danışdıqca Sədaqət o günləri sanki təzədən yaşayırdı:

- Artıq iki ay idi xəstəxanada müalicə olunurdum. Bir gün tibb bacısı gəlib dedi ki, səni dəhlizdə bir kişi gözləyir. İsaq idi, məni çox çətinliklə axtarıb tapmışdı. Ondan xahiş etdim ki, çıxıb getsin. Üzünə baxa bilmirdim. Elə bilirdim bundan sonra bizim birgə həyatımız artıq mümkün deyil. Nə gizlədim, mənə elə gəlirdi ki, barı tükənmiş, qol-budağı kəsilmiş bir ağacam, kötüyəcən qurumuşam.

Lakin İsaq bu təklifi yaxına belə buraxmaq istəmir. Deyir ki, nə danışırsan, mən səni heç vaxt tək qoymaram! Bu müharibə elliklə hamımız üçün gəlib, tək ikimizin faciəsi deyil. Bundan sonra İsaq hər gün xəstəxanaya gəlir. Sədaqət öz dediyini, İsaq da öz dediyini təkrar edir.

Nəhayət, Sədaqət ömür-gün yoldaşının sədaqəti qarşısında ram olduğunu söyləyir:

- Xəstəxanadan təzəcə çıxmışdım. Sağ qalmış qohumlarımla bir yerdə idim. Bir də gördüm ki, qayınanam, qayınatam, bir neçə nəfər ağsaqqal və həyat yoldaşım qaldığım yerə gəliblər. Hamı susurdu. İsaq ağsaqqallardan üzr istəyib üzünü mənə tutdu. Dedi ki, Sədaqət, sonluğu ağlagəlməz faciə ilə bitən 12 illik ailə həyatımızı qorxunc bir yuxu kimi arxada qoyub səninlə təzədən evlənmək istəyirəm.

Beləliklə, ailənin sağ qalan üzvləri yenidən birləşərək Naftalan şəhərində sanatoriyada məskunlaşırlar. 1993-cü ildə onların bir körpəsi dünyaya göz açır. Uşağa Xocalıda itirdikləri 7 yaşlı balaca şəhid Ramanın adını verməklə ailə ruhu mələk kimi göylərə çəkilmiş üç nakam övladının iyini ondan almağa çalışır. Beləliklə, evdə bir oğul böyüməyə başlayır. Üç il sonra isə Ramanın bacı payı da dünyaya gəlir...

Sədaqət xanımla budəfəki, yəni bir neçə gün əvvəlki görüşümüz qiyabi oldu - telefonla söhbətləşdik. Ailə hələ Goranboyda yaşayır. Yaxın vaxtlarda Xocalıya köçəcəklər. Orada təmiri başa çatmaqda olan evləri onların yolunu gözləyir. Sədaqət deyir ki, İsaqla gedib o evimizdə, o həyatimizdə vaxtilə ayaq açmış üç körpəmizin izlərini axtaracağıq…

Amma nə yaxşı ki, təsəlliləri də var. Sədaqətlə İsaqın vaxtilə sönmüş ocağı yenidən yanır, solmuş bağında ağaclar yenidən pöhrə verib. "İndi Muradımız, Əlimiz, Elcanımız - üç nəvəmiz var, - dedi telefonda Sədaqət. - İnşallah, görüşərik. Bəri başdan sizi Xocalıya, evimə qonaq dəvət edirəm".

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Bizim Natalya

**"Bu qədim və gözəl şəhərdə dünyaya göz açıb, onun mavigözlü, şıltaq Xəzərini sevməmək, vurulmamaq olarmı?" Həmsöhbətimizin sualımıza cavabı belə olur: "Əlbəttə, olmaz. Mümkünsüzdür"...**



Natalya Fatyanova əsrarəngiz Xəzərə heyranlığından danışır. O, 1992-ci il fevralın 21-də Bakı şəhərində dünyaya gəlib.

Natalyanın anası Svetlana Aleksandrovna Fatyanova uzun illərdir ki, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin "ASCO Mühəndislik" MMC-də işləyir. Aparıcı mühəndisdir. Atası Vladimir Anatolyeviç Fatyanov isə Paris Kommunası adına gəmi təmiri zavodunda çalışıb. Vladimir Anatolyeviç cavan ikən dünyasını dəyişib. Onda Natalyanın altı yaşı var imiş. Natalya Fatyanova kədərlə xatırlayır: "Atam da, babam da Paris Kommunası adına gəmi təmiri zavodunda işləyirdilər. 1998-ci ildə onlar birlikdə qəzaya düşdülər. Atam da, babam da vəfat etdi. O vaxt balaca olsam da, atamı xatırlayıram. Onunla bağlı yaddaşımda qalan xatirələr az olsa da, onları tez-tez yada salıram. Bir də uşaqlıqdan indiyədək anamla həmişə atamın məzarını ziyarətə gedirik. Atamdan sonra anam ailə qurmadı. Məni - yeganə övladını böyütdü".

Natalya Fatyanova Bakı şəhəri 20 saylı tam orta məktəbdə əla qiymətlərlə oxuyub. Elə şagird ikən də fəallığı ilə seçilib.

Hələ kiçik yaşlarından Xəzərin gah sahillərinə baş qoyub sakit-sakit ləpələnən, gah da şahə qalxan dalğalarına baxa-baxa xəyallar qurmağı sevib. Deyir ki, elə uşaqlıq çağlarından arzularında hər zaman dəniz olub. Təkcə dənizə vurğunluğuna görə deyildi. Natalya Fatyanova dənizçi peşəsinin ənənəyə çevrildiyi bir ailədə dünyaya gəlib. Dənizçilərin əhatəsində boya-başa çatıb, onların dənizçi həyatı, işi, qarşılaşdıqları çətinliklər haqqında danışdıqları əhvalatları həmişə böyük maraqla dinləyib. Sonra bu maraq arzuya çevrilib: "Belə deyə bilərəm ki, bizdə ailə söhbətləri daha çox dənizlə bağlı olub. Babamın qardaşları Neft daşlarında, gəmilərdə işləyiblər. Ağlım kəsəndən görmüşəm ki, bir yerə nə zaman toplansaq, onlar öz işlərindən, zavoddan, dənizdən, gəmidən, texniki məsələlərdən danışıblar", - Natalya Fatyanova deyir.

Natalya uşaqlıq illərindən həyatını dənizdən uzaqda təsəvvür etməyib. Odur ki, istəyi yalnız ailə ənənəsini davam etdirmək olmayıb. Böyüdükcə arzusu məqsədə çevrilib. O həm də Azərbaycanda gəmiqayırma və gəmi təmiri sahələrinin inkişafına töhfə vermək niyyətində olub. Natalya danışır ki, dənizçi peşəsinə onu yönəldən olmayıb: "Heç kim deməyib ki, bu peşəni seç. Bizim ailədə belə bir qayda var, böyüklər seçimlərimizə müdaxilə etmir, "yox, bunu etmə" demirlər. Qərarı öz öhdəmizə buraxırlar, deyirlər ki, qoy istədiyin kimi olsun, əgər səhv etsən, bil ki bu, sənin səhvindir. Bu cür münasibət bizi məsuliyyətli olmağa sövq edib. Dediyim kimi, kimsənin müdaxiləsi olmadan mən uşaqlıqdan dənizçi peşəsini seçəcəyimi düşünürdüm. Yalnız bircə dəfə vəkil olmaq xəyalına düşdüm. Onda da anam etiraz etmədi, sadəcə, mənə düşünməyi tövsiyə etdi. Qəlbimin səsini dinlədim. Qəti qərara gəldim ki, mən dənizçi olacağam".



Natalya Fatyanova 2009-cu ildə tam orta məktəbi əla qiymətlərlə bitirib. Arzularını reallaşdırmaq üçün sənədlərini Azərbaycan Dövlət Dəniz Akademiyasına verib. Tələbə adını qazanıb. Akademiyada "Dəniz texnikası və texnologiyaları mühəndisliyi" ixtisası üzrə təhsil almağa başlayıb. Bu ixtisası seçməsi həm ailə ənənələrinin davamı, həm də öz arzusunu reallaşdırması olub.

Natalya bildirir: "2010-cu ildə, mən qəbul olunanadək Azərbaycan Dövlət Dəniz Akademiyasında qızlar oxumurdular. İlk dəfə biz altı nəfər qız həmin akademiyanın tələbəsi olduq. Uğurlu başlanğıc oldu. Bizdən sonra hər il Azərbaycan Dövlət Dəniz Akademiyasına oğlanlarla yanaşı, qızlar da qəbul edilirlər. Artıq mexaniklər və şturmanlar arasında da qızlarımız var".

O, bir tərəfdən qohumlarının yolunu davam etdirmək istəyir, digər tərəfdən isə müasir və etibarlı texnologiyalar yaratmağa imkan verən elmi və mühəndis fəaliyyətinə can atırdı.

Tələbəlik illərində Natalya Fatyanovanın elmi araşdırmalara böyük marağı olduğu müəllimlərinin diqqətindən yayınmayıb. O, gənc tədqiqatçı kimi yüksək bacarıqlara malik olduğunu nümayiş etdirib. Natalya həmin vaxtları belə xatırlayır: "Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevə həsr olunmuş elmi konfranslarda iştirak etdim və bu konfransların nəticələrinə görə mükafatlara layiq görüldüm. 2014-cü ildə Azərbaycan Dövlət Dəniz Akademiyasını bitirdim və eyni ixtisas üzrə magistratura təhsili almağa başladım. Bununla yanaşı, akademiyada "Gəmi energetik qurğuları və gəmiqayırma" kafedrasında tədris ustası kimi əmək fəaliyyətinə başladım".

Təhsilin əvvəlki mərhələlərində olduğu kimi, o, magistratura pilləsini də yüksək göstəricilərlə başa vurub. 2016-cı ildə Natalya Fatyanova magistraturanı fərqlənmə diplomu ilə bitirib və Azərbaycan Dövlət Dəniz Akademiyasının "Gəmi energetik qurğuları" kafedrasına assistent vəzifəsinə təyin edilib.

Natalya Fatyanova "Gəmiqayırma və gəmi təmiri texnologiyası" ixtisası üzrə doktorantura təhsilinə başlayıb. 2025-ci ildə "Lak-boya örtüklərində nanodoldurucuların istifadəsi ilə gəmi gövdəsinin korroziya dözümlüyünün yüksəldilməsi" mövzusunda dissertasiyasını uğurla müdafiə edərək texnika elmləri üzrə fəlsəfə doktoru dərəcəsi alıb.

Onun elmi-tədqiqat işi müasir lak-boya materiallarının hazırlanması və tətbiqinə həsr olunub, bu da dəniz şəraitində gəmi gövdələrinin istismar etibarlılığını və davamlılığını artırır. Aparılan tədqiqatların nəticəsi olaraq, Natalya Fatyanova nanodoldurucularla təkmilləşdirilmiş lak-boya kompozisiyası üzrə ixtiraya malik olub. Deyir ki, bu kompozisiya yüksək korroziyaya qarşı müqavimətə malik olub, gəmiqayırma və gəmi təmiri sahələri üçün praktik əhəmiyyət daşıyır.

Natalya Fatyanova elmi-pedaqoji fəaliyyətlə yanaşı, ölkənin ictimai-siyasi həyatında da fəal iştirak edən gənclərimizdən biridir: "Mən Yeni Azərbaycan Partiyasının Səbail rayon təşkilatının üzvüyəm. Tədbirlərdə fəal iştirak edirəm. Həm də "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətində Yeni Azərbaycan Partiyasının Ərazi Partiya Təşkilatının sədr müavini vəzifəsini icra edirəm", - Natalya Fatyanova bildirir.

Öyrənirik ki, ictimai-siyasi sahədə aktiv və ardıcıl fəaliyyətinə görə Natalya Fatyanova dəfələrlə fəxri fərmanlar və təşəkkürnamələrlə təltif edilib. Yeni Azərbaycan Partiyasının 30 illiyi münasibətilə o, Səbail rayon təşkilatı tərəfindən fəxri fərmanla mükafatlandırılıb. 2022-ci ildə Natalya Fatyanova "Biz Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin elmi-siyasi irsini öyrənirik" siyasi kursunu fərqlənmə ilə bitirib.

Gənclərin vətənpərvərlik ruhunda tərbiyəsində göstərdiyi xidmətlərə görə Natalya Fatyanova Azərbaycan Respublikasının Milli Qəhrəmanlarını Tanıtma İctimai Birliyi tərəfindən fəxri diplomla təltif olunub.

Azərbaycan dilini çox yaxşı bildiyindən söz düşəndə Natalya təbəssümlə deyir: "Azərbaycan mənim doğma vətənim, Azərbaycan dili doğma dilimdir. Ona görə mən çalışıram ki, Azərbaycan dilini mükəmməl bilim. Doğrudur, orta məktəbdə rus bölməsində oxumuşam. Amma indi Azərbaycan Dövlət Dəniz Akademiyasında Azərbaycan dilində dərs deyirəm.

Mən bu ölkədə dünyaya gəlmişəm. Valideynlərim də Azərbaycanda doğulub, böyüyüblər. Hətta valideynlərimin ata-anası da burada doğulublar. Mən yüngül atletika ilə məşğul olmuşam. Sonra zədələndiyimə görə daha məşğul ola bilmədim. İdmançı kimi demək olar ki, çox ölkədə oldum. Onda bir daha əmin oldum ki, mən Azərbaycandan başqa heç yerdə yaşaya bilmərəm".

Onun gələcəklə bağlı bütün arzularında, düşüncələrində, planlarında çox sevdiyi Bakı şəhəri və onun haqqında danışmaqdan doymadığı Xəzər dənizi var. Onun üçün Bakı təkcə doğulduğu şəhər deyil, həm də elmi axtarışlarının, arzularının və gələcək planlarının mərkəzidir. Uşaqlıqdan sevdiyi Xəzər dənizi isə artıq, sadəcə, heyranlıq obyekti deyil - onun elmi fəaliyyətinin, mühəndis düşüncəsinin və peşəkar uğurlarının ilham mənbəyidir. Əzmkarlığı, zəhmətkeşliyi və vətənə bağlılığı ilə Natalya Fatyanova sübut edir ki, məqsədə inamla gedən yol gec-tez uğura aparır.

Arzuları çoxdur. Natalya Fatyanova danışır ki, hər zaman öz üzərində işləyir, yenilik axtarışındadır: "Bizim "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" tərəfindən belə bir ideya həyata keçirildi. 1941-1945-ci illərdə, müharibə dövründə ən cavan gəmi kapitanı olmuş Şövkət Səlimova haqqında film çəkildi. Onda müraciət etdim və o filmdə mən də balaca bir rol oynadım. Bu, mənim üçün xoş bir yenilik oldu. Gələcək planlarıma gəlincə, əlbəttə ki, həm pedaqoji, həm də elmi fəaliyyətimi davam etdirmək istəyirəm. Yeni elmi məqalələr üzərində işləyirəm, araşdırmalar aparıram".

Natalya Fatyanova ölkəmizdə gənclərin bilik və bacarıqlarını göstərmələri üçün yaradılan şəraitdən razılıq edir: "Respublikamızda ardıcıl olaraq elmin, təhsilin və ictimai-siyasi həyatın inkişafına töhfə verə biləcək yüksəkixtisaslı kadrların hazırlanmasına yönəlmiş dövlət siyasəti həyata keçirilir. Bu, hər bir gəncə öz arzularını reallaşdırmaq imkanı yaradıb. Mən də bu imkanlardan yararlanaraq, həm təhsil, həm də elmi sahədə uğurlara imza atmağa çalışıram. Dövlətin gənclərə göstərdiyi diqqət və dəstək bizləri daha çox çalışmağa və daha yüksək hədəflərə doğru irəliləməyə ruhlandırır. Əminəm ki, bu cür təşviqlər sayəsində gələcəkdə daha çox gənc alim və mütəxəssis ölkəmizin inkişafına dəyərli töhfələr verəcək".

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Əlləri torpağa, ümidi gələcəyə bağlı kənd qadınının hekayəsi



**Azərbaycan qadını sevgi, güc, səbir, mərhəmət, şəfqət nümunəsi və vətəninin bağrından doğan bir çiçəkdir. Azərbaycan anası gücün və zərifliyin birləşdiyi bir dəyər, həyatın hər çətinliyinə, hər sınağına sinə gərən, bütün zamanlarda qəlbindəki yumşaqlığı və sevgini qoruyan müqəddəs varlıqdır. O, ailəsinin qəhrəmanıdır, vətəninin övladıdır, dünyaya gələcək nəsillər üçün ümid işığıdır.**

Bu xüsusiyyətlərin ən parlaq nümunəsini kənddə yaşayan qadınların zəhmət dolu həyatında görmək mümkündür. Kənd qadını səhər tezdən oyanan ilk adamdır. Dan üzü sökülədə, günəşin ilk işığında yavaşca ayağa qalxar və bütün bir kəndin həyatını canlandırar. Torpağın sükutunu pozar, çiçəklərin başını qaldırar, heyvanlara yem, toyuq-cücəyə dən verər. Hər gün eyni sükutda, amma hər zaman yeni bir başlanğıcda həyatını davam etdirər.

Kənd qadını torpağın əmanətini öz içində daşıyan qoruyucudur. Hər daşın altına baxar, hər ağacın gövdəsindəki izləri hiss edər, quşların cəh-cəhini, yağışın, küləyin nəğməsini dinləyər. Yorulub əldən düşsə belə heç vaxt geri çəkilməz. Mənəvi gücü, sevgisi və torpağa bağlılığı onu həyatın bütün çətinliklərinə sinə gərən bir qadın halına gətirər. Sahib olduğu güc, əslində, onun içindəki sonsuz sevgidən gəlir - ailəsinə, el-obasına, dünyasına duyduğu sevgidən. Bəzən sərt, bəzən yumşaq, bəzən də kövrək və duyğusal olar, amma hər zaman həyat doludur kənd qadını.

Çəmən qoxulu, zəhmət ətirli qabarlı əlləri torpağın bərəkətini və qüdrətini eyni anda hiss edər. Çünki onun hər toxunuşunda, hər nəfəsində həyat ritmi var. Ailəsinə, kəndin hər insanına, ağacına, daşına duyduğu sevgi onun ən böyük gücüdür. Həyatın ən ağır anlarında belə kənd qadını çəkdiyi əziyyətləri unudar. Çünki hər günün sonunda gələcək ümidini görər. Gündəlik işlərin içində özünü bəzən kəşf edər, bəzən də itirər. Hər çətinlikdən sonra güclü bir qadın kimi yenidən doğar. Onun gücü həyət-bacanı səliqəyə salmaq, bağ-bağatı becərmək, əkin-biçini yerinə yetirmək deyil. O, gücü səbrindən, dözümündən, inamından və iradəsindən alır.

Kənd qadını torpaqla nəfəs alır, zəhmətlə yaşayır, ailəsinə, övladlarına canı-qanı ilə bağlı olur. Çünki o, hər zaman savaşan bir döyüşçüdür. Bu savaşı həyatda qalmaq, ailəsini qorumaq, özünü itirməmək, arzularını həyata keçirmək üçündür. Kəndli qadını bu savaşda qalib edən mənəvi gücü, sabaha inamı, səbri, zəhməti, fədakarlığı və hər çətinliyə sinə gərməyidir. Hərdən bu qələbənin fonunda tənhalıq hissinə də qapıla bilir. Lakin bunu kimsəyə bildirmir, həmin "yük"ü öz çiyinlərində təkbaşına daşıyır, ürəyinin ən dərin guşəsində gizlədir.

Bəzən gecələr ulduzlara baxar və düşünər: "Bu həyat arzuladığım qədər gözəl oldumu? Mən özümü tapdımmı?" Səhər isə gecəki düşüncələrin üstündən bir xətt çəkərək yeni bir ümidlə oyanar, həyatın çətinliklərinə sinə gərər və öz yoluna davam edər. Çünki bu zəhmətkeş qadın mübarizə aparmaqdan yorulmaz, ruhu nə qədər sərt olarsa-olsun, yenə də ümidlə doludur.

Ancaq kənd yalnız zəhmətkeş qadınlardan ibarət deyil. Burada öz biliyi və düşüncəsi ilə önə çıxan, fərqli bir parıltı ilə seçilən, ağlı və bilgisi ilə həm ailəsinə, həm də cəmiyyətə işıq saçan ziyalı qadınlar da var. Kənddəki ziyalı qadının içindəki işıq cəmiyyətə faydalı olmağı, öyrənməyi və öyrətməyi arzulayan bir qəlbin təzahürüdür. Kəndin ziyalı qadını həm torpağa toxunur, həm də kitab səhifələrini çevirərək, elmin gücünü, müdrikliyin işığını özündə birləşdirir. Kənddə o, hər kəsə müdrik bir ana, həkim, müəllim, bələdçi və bir yolgöstərəndir. Sadə görüntünün içindəki mənəvi zənginlik hər kəlməsindəki ağıllı düşüncələrindən qidalanır. Sözü torpağı əkib-biçən əlləri qədər güclüdür. Kəndin unudulmuş ənənələrinə bağlı olmasına baxmayaraq, müasir dünyanın tələblərini qəbul edən ziyalı qadın təhsilin və bilginin gücünü dərk etdiyi üçün daim öyrənir. Kəndə gətirdiyi yeniliklərlə yalnız öz həyatını deyil, həm də ətrafındakıların taleyini dəyişdirə bilir. Fəlsəfəsi sadəlikdəki dərinlikdən və kəndin sakitliyindəki müasirliyi tapmaqdan ibarətdir. Hər addımında bir dəyişiklik yaradır. Kəndin təbiətini qoruyaraq, müasir düşüncə ilə gələcəyin yollarını aydınlatmağa çalışır. Həyatında hər şey - həm keçmişin dərsləri, həm də gələcəyin ümidləri bir məna daşıyır. Onun gözlərində torpağın və müasir dünyanın harmoniyasını tapmaq mümkündür. Kəndin sükutunda böyüdükcə, dünyanı daha geniş görür və el-obanın qəhrəmanı olmaqla yanaşı, gələcəyə ümid və inam aparan bir körpü qurur. Ziyalı kənd qadını ənənələrlə müasirliyin, zəhmətlə ideyaların, torpaqla elmin vəhdətidir. O, hər addımında özünün və ətrafındakıların yaxşı günlərinə doğru irəliləyir.

Torpağın bağrından çıxan sadə, zəhmətkeş, çöldə-bayırda çalışan qadın da, müəllim, həkim, sahibkar olan ziyalı xanım da sabahın qurucusudur. Hər bir kənd qadını həyatı ilə dərs, zəhməti ilə bir əhvalat, sevgisi ilə nağıldır. Kənd qadını həyatın özüdür, bu torpağın ruhunu, bu dünyanın sadə, amma qüdrətli qanunlarını öz varlığında təcəssüm etdirən bir həyat hekayəsidir. Kənddə yaşayan qadın bəzən nəğmə kimi həzin, lirik və kədərli olsa da, hər zaman öz ritmini qoruyan melodiyadır. Onun varlığı kəndin varlığıdır, nəfəsi torpağın nəfəsidir. Kənd qadını, əslində, təbiətin ən sadiq və ən gözəl təsviri, kəndin ən maraqlı nağılıdır.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# Komitə sədri Uşaq Səfirlər Məclisinin Neftçala rayonu üzrə nümayəndə və fəalları ilə görüşüb

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova Uşaq Səfirlər Məclisinin Neftçaladakı nümayəndə və fəalları ilə görüşüb.**



B.Muradova məclisin uşaq iştirakçılığının təşviqi və hüquqlarının qorunması baxımından komitənin uğurlu layihələrindən biri olduğunu diqqətə çatdırıb. Qeyd edib ki, layihə uşaq iştirakçılığını, onların ölkə üzrə şəbəkələşməsini, həm yaşadıqları regionda, həm də ölkə miqyasında gedən ictimai proseslərə qoşulmasını şərtləndirən və ona şərait yaradan mühüm platformadır.

Komitə sədri uşaqların qərarqəbuletmə prosesində fəal iştirakının digər uşaqların da hüquqlarının müdafiəsinə, onların liderlik bacarıqlarının formalaşmasına, sosial məsuliyyət hissinin güclənməsinə töhfə verdiyini bildirib. O, uşaqlara fəaliyyətlərində uğurlar arzulayıb və onların cəmiyyətin inkişafına töhfə verən layihələrdə iştirakının vacibliyini diqqətə çatdırıb.

Tədbirdə Neftçala rayonu üzrə nümayəndə və fəallar həyata keçirdikləri sosial layihələr və gələcək təşəbbüsləri barədə məlumat veriblər. Görüş zamanı qarşılıqlı fikir mübadiləsi aparılıb, uşaqların təklif və fikirləri dinlənilib, onların təşəbbüslərinin dəstəklənməsi istiqamətində müzakirələr aparılıb.

*S.CAVADOV,*
*"Azərbaycan"*

# Qazax rəsmən Azərbaycanın "İdman Paytaxtı" oldu

## Bu münasibətlə rayonda açılış mərasimi keçirilib

**Məlum olduğu kimi, Qazax şəhəri 2026-cı il üçün Azərbaycanın "İdman paytaxtı" elan edilmişdir. Bu münasibətlə rayonda "Qazax İdman Paytaxtı-2026"nın açılış mərasimi keçirilmişdir.**



Mərasimdə rayon icra hakimiyyətinin başçısı Rəcəb Babaşov, gənclər və idman naziri Fərid Qayıbov, keçən il "İdman Paytaxtı" olmuş Qəbələnin RİH başçısı Səbuhi Abdullayev, Respublika Ağırlıqqaldırma Federasiyasının vitse-prezidenti Firdovsi Umudov, idman federasiyalarının əməkdaşları, rayonun təhsil, səhiyyə və mədəniyyət müəssisələrinin kollektivləri, şəhid ailələri, gənclər, ictimaiyyət nümayəndələri iştirak etmişlər.

Açılış mərasimi "Qarabağ Azərbaycandır!" abidə kompleksinin ziyarəti ilə başlamışdır. İştirakçılar Vətən müharibəsi şəhidlərinin xatirəsinə ucaldılmış abidə kompleksini ziyarət edərək xatirələrinə ehtiramlarını bildirmişlər. Sonra qonaqlar Ümummilli Lider Heydər Əliyevin adını daşıyan parkda təşkil olunmuş sərgiyə baxış keçirmiş, Qazax Rayon Heydər Əliyev Mərkəzi tərəfindən Ulu Öndərin və Prezident İlham Əliyevin dövlətçilik siyasətindən bəhs edən kitabların və ölkəmizdə idman siyasətindən bəhs edən nəşrlərin sərgisi ilə tanış olmuşlar. Qazax Dövlət Rəsm Qalereyasının təşkil etdiyi rəsm sərgisi də maraqla qarşılanmışdır. "Avey" Dövlət Tarix-Mədəniyyət Qoruğunun təşkil etdiyi sərgidə isə müxtəlif dövrləri əks etdirən eksponatlar, eləcə də Molla Pənah Vaqif və Molla Vəli Vidadi muzeylərinin birgə təşkil etdikləri sərgidə xalça və misgərlik məmulatları nümayiş etdirilmişdir. Sonra idmanın sərbəst güləş, cüdo, ağırlıqqaldırma, qol güləşi, boks, karate, futbol, şahmat, voleybol idman növləri üzrə nümunəvi çıxışlar olmuşdur. Açılış mərasimi çərçivəsində qonaqlar həmçinin Heydər Əliyevin abidəsini ziyarət etmişlər.

Gənclər və İdman Nazirliyi, Azərbaycan Həmkarlar İttifaqları İdman Təşkilatları Assosiasiyası, Azərbaycan Güləş Federasiyası və "Arkoz Qazax Sement Zavodu" MMC arasında əməkdaşlıq memorandumu imzalandıqdan sonra Qazax Ədəbiyyat Muzeyinin qarşısında idman paradı olmuşdur.

Açılış mərasimində rayon icra hakimiyyətinin başçısı Rəcəb Babaşov çıxış edərək tədbir iştirakçılarını, qonaqları, şəhid ailələrini, qaziləri, idmançıları, idmansevərləri salamlamış, əlamətdar gün münasibətilə ürək sözlərini söyləmişdir. Bildirmişdir ki, son illər Qazax bir sıra respublika yarışlarına, turnirlərə evsahibliyi etmişdir. Rayon idmançıları 2025-ci il ərzində beynəlxalq yarışlarda 15-i qızıl, 10-u gümüş, 14-ü bürünc olmaqla, 39, respublika səviyyəli yarışlarda 27-si qızıl, 14-ü gümüş, 21-i bürünc olmaqla 62 medal qazanmışlar.

Gənclər və idman naziri Fərid Qayıbov və keçən il Azərbaycanın "İdman Paytaxtı" olmuş Qəbələnin RİH başçısı Səbuhi Abdullayev çıxış edərək "Qazax İdman Paytaxtı-2026"nın açılış mərasiminin yüksək səviyyədə təşkil olunmasını diqqətə çatdırmışlar. Sonra "İdman Paytaxtı" layihəsinin rəmzi açarı Qəbələdən təhvil alınaraq Qazax rayonuna təqdim edilmişdir. Əməkdar idman ustası və Əməkdar məşqçi, respublika Ağırlıqqaldırma Federasiyasının vitse-prezidenti Firdovsi Umudov çıxış edərək Qazax ictimaiyyətini, idmançıları əlamətdar gün münasibətilə təbrik etmiş, qazaxlı idmançılara gələcək idman karyeralarında uğurlar arzulamışdır.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

# YAP Göygöl rayon təşkilatının yaradılmasının 33 illiyi qeyd edilib

**Göygöldə Yeni Azərbaycan Partiyası rayon təşkilatının yaradılmasının 33 illiyinə həsr olunmuş yığıncaq keçirilmişdir.**



Yığıncaq iştirakçıları əvvəlcə, partiyanın yaradıcısı Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət etmiş, önünə gül dəstələri düzmüşlər. Vətən uğrunda canından keçmiş şəhidlərin əziz xatirəsi birdəqiqəlik sükutla yad edildikdən sonra Yeni Azərbaycan Partiyasının keçdiyi şərəfli yoldan bəhs edən videoçarx nümayiş olunmuşdur.

Yığıncağı giriş sözü ilə açan rayon icra hakimiyyətinin başçısı Vüqar Novruzov Yeni Azərbaycan Partiyasının ölkəmizin həyatında gördüyü işlərdən, Ulu Öndər Heydər Əliyevin siyasi irsinin davam etdirilməsi istiqamətində görülən işlərdən danışmışdır. Sonra YAP rayon təşkilatının sədri Vüqar İsayev hesabat məruzəsi ilə çıxış etmişdir. Milli Məclisin deputatı Kamran Bayramov, YAP Veteranlar Şurasının üzvü Tahir Məmmədov və başqaları partiyanın dövlət quruculuğunda, ölkədə sabitlik və inkişafın təmin edilməsində müstəsna xidmətlərindən söz açmışlar.

Sonda YAP-ın fəal üzvlərinə fəxri fərmanlar, partiya sıralarına yeni qəbul olunmuş bir qrup şəxsə üzvlük vəsiqələri təqdim edilmişdir.

*S.ƏLİYEV,*
*"Azərbaycan"*

# AFAQ layihəsi çərçivəsində Füzulidə qadın fermerlərə avadanlıqlar təqdim olunub

**Füzuli rayonunda "Aqrar Tədarük və Təchizat" ASC-nin təşkilatçılığı, "PAŞA Holding"in maliyyə dəstəyilə "Aqrar Fəaliyyətli Azərbaycan Qadınları" (AFAQ) layihəsi çərçivəsində 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə xanım fermerlərlə görüş keçirilib.**



Kənd Təsərrüfatı Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüşün əsas məqsədi kənd təsərrüfatının inkişafına töhfə verən qadın fermerlərin iqtisadi fəallığının artırılmasına, eləcə də onların bilik və bacarıqlarının gücləndirilməsinə dəstək göstərmək olub. Layihə çərçivəsində Füzuli rayonunda fəaliyyət göstərən "Zəfəran" və "Şamama" qadın qruplarına avadanlıq dəstəyi göstərilib. Bu çərçivədə 30 qadın fermer avadanlıq dəstəyi ilə təmin olunub. Bununla yanaşı, Aqrar Xidmətlər Agentliyinin təlimçi dəstəyi ilə inkubator avadanlığından istifadə üzrə praktik təlim təşkil edilib. Təlim zamanı iştirakçılara avadanlığın düzgün istismarı, məhsuldarlığın artırılması və istehsal prosesində keyfiyyət standartlarının qorunması ilə bağlı praktiki biliklər verilib.

8 Mart Beynəlxalq Qadınlar Günü ərəfəsində keçirilən bu görüşü yüksək qiymətləndirən qadın fermerlər bildiriblər ki, kənd yerlərində qadın sahibkarlığının təşviqinə və onların iqtisadi müstəqilliyinin gücləndirilməsinə verilən bu töhfə onların fəaliyyətini daha da stimullaşdırır.

Qeyd edək ki, AFAQ layihəsi qadınların kənd təsərrüfatında rolunun gücləndirilməsi, onların məşğulluq imkanlarının artırılması və sosial-iqtisadi rifahının yüksəldilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

## Həftənin iqtisadi icmalı

# Enerji və texnologiyada irəliləyiş, dünya bazarında qiymət dəyişmələri



İqtisadiyyatda baş verən əsas hadisələr hər gün, hər həftə sürətlə dəyişdiyi üçün Azərbaycan iqtisadiyyatı ilə bağlı xəbərlər, bazar tendensiyaları və analitik göstəricilər gündəmdə qalır. "Həftənin iqtisadi icmalı"nda biz həftə ərzində iqtisadiyyatda baş verən əsas hadisələri, maliyyə bazarlarındakı inkişafı, istehlak və ixrac-idxal göstəricilərini araşdıraraq oxuculara aydın və qısa icmal təqdim edəcəyik. İcmal oxuculara iqtisadi vəziyyəti anlamaqda kömək edəcək, doğru qərar qəbul etmək imkanı yaradacaq. Təqdim olunan məlumatlar gələcək həftələrdə baş verə biləcək tendensiyaları qiymətləndirmək üçün də faydalı olacaq.

Bu həftə iqtisadi gündəmdə xüsusilə diqqətçəkən məsələ Prezident İlham Əliyevin imzaladığı sərəncamla "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı"nın təsdiqi oldu. Fəaliyyət Planı ölkənin gələcəyinə yönəlmiş əhəmiyyətli dəyişikliklər və islahatları özündə ehtiva edir. Bu islahatların həyata keçirilməsi üçün bir sıra mühüm addımlar atılıb. Onlardan biri də dövlət başçısının fərmanı ilə "Azərbaycan Respublikasında rəqəmsallaşma, elektron hökumət, süni intellekt və innovasiya sahələrində fəaliyyətin təkmilləşdirilməsi" istiqamətində yeni tədbirlərin və strategiyaların həyata keçirilməsidir. Fərmana əsasən, rəqəmsal inkişaf və innovasiyaları sürətləndirmək məqsədilə yeni bir qurum - Rəqəmsal İnkişaf Şurası yaradılıb. Şura Azərbaycanda rəqəmsal yenilikləri koordinasiya edəcək və dövlətin bütün sahələrində texnologiyaların tətbiqi və inkişafını sürətləndirəcək.

* * *

Rəqəmsal inkişaf və innovasiyalar sahəsində atılan bu addımlarla yanaşı, ölkəmiz beynəlxalq platformalarda da fəal iştirakını davam etdirir. Martın 1-də Azərbaycan Birləşmiş Millətlər Təşkilatının Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyası (UNESCAP) tərəfindən Banqkokda keçirilən 13-cü Regional Forumda təmsil olunub. Dayanıqlı inkişafla bağlı məsələləri əhatə edən forumda Azərbaycanın sədrliyi ilə "Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) nail olunması üzrə regional tərəqqinin və imkanların nəzərdən keçirilməsi"nə dair sessiyası keçirilib. Sessiyada Asiya və Sakit Okean regionunda DİM-lər üzrə əldə olunan nəticələr və tərəqqi təhlil olunub. Forum çərçivəsində Azərbaycanın rəhbərliyi ilə "Yekun hesabatlılıq, nümayəndə heyətlərinin səlahiyyətlərinin nəzərdən keçirilməsi, məruzə sessiyaları və ümumi öhdəliklərin müzakirəsi" üzrə plenar müzakirələr keçirilib.

* * *

Həftənin önəmli iqtisadi hadisələrindən biri Azərbaycanın kosmik sənayesinin ilk dəfə Barselonada keçirilən beynəlxalq sərgidə təmsil olunmasıdır. Sərgidə ölkəmizin kosmik texnologiyaları və innovativ layihələri nümayiş etdirilib, həmçinin beynəlxalq tərəfdaşlarla əməkdaşlıq imkanları müzakirə edilib. Bu, Azərbaycanın kosmik sektorunun inkişafında yeni mərhələ kimi qiymətləndirilir və innovasiya potensialının genişlənməsinə töhfə verir.

* * *

Martın 3-də Bakıda keçirilən "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının 12-ci və "Yaşıl Enerji" Məşvərət Şurasının 4-cü iclasları regionda enerji siyasətində əhəmiyyətli addımlar kimi diqqət çəkib. Nazirlər, nazir müavinləri və digər yüksəksəviyyəli nümayəndələrin iştirak etdikləri iclasda Azərbaycan və Avropa İttifaqı daxil olmaqla, 27 ölkə, 11 beynəlxalq maliyyə institutu və təşkilat, eləcə də 49 enerji şirkəti iştirak edib. Toplantının açılışından sonra "Cənub qaz dəhlizi" sessiyası: "Cənub qaz dəhlizi"ndə davamlı uğur və yeni inkişaf mərhələsi" və "Yaşıl enerji" layihələri üzrə plenar sessiyalarla davam edib. Xatırladaq ki, "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlər toplantısı 2015-ci ilin fevral ayından etibarən keçirilir.

* * *

Regionun enerji və dayanıqlı inkişaf prioritetlərinə uyğun olaraq, bu həftə Bakı daha bir əhəmiyyətli tədbirə - "Mərkəzi Asiya - Azərbaycan "Yaşıl Enerji" Dəhlizi" üzrə birinci inkişaf mərhələsinin Texniki-İqtisadi Əsaslandırma (TİƏ) sənədinin müzakirəsinə həsr olunmuş ilk seminara evsahibliyi edib. Tədbirdə Azərbaycan, Qazaxıstan və Özbəkistandan yüksəksəviyyəli dövlət nümayəndələri, ötürücü sistem operatorları, tənzimləyici qurumlar, həmçinin Asiya İnkişaf Bankı (AİB), Asiya İnfrastruktur və İnvestisiya Bankı (AİİB) və digər maraqlı tərəflər iştirak ediblər. Qeyd edək ki, "Mərkəzi Asiya-Azərbaycan "Yaşıl Enerji Dəhlizi"nin texniki-iqtisadi əsaslandırması Asiya İnkişaf Bankı (AİB) və AİİB ilə tərəfdaşlıq çərçivəsində hazırlanır və 2025-ci ilin aprel ayında imzalanmış Anlaşma Memorandumu ilə dəstəklənir.

* * *

İqtisadi hadisələrdən bəhs edərkən xüsusi vurğulamalıyıq ki, ölkəmizdəki qabaqcıl şirkətlər yalnız enerji deyil, həm də telekommunikasiya sahəsində beynəlxalq səviyyədə diqqət çəkirlər. Üç gün öncə "AZCON Holding"in şirkətlərindən olan "Aztelekom" MMC telekommunikasiya infrastrukturunun dayanıqlılığı və süni intellektyönümlü şəbəkə həllərinin tətbiqi sahəsində əldə etdiyi nəticələrə görə, beynəlxalq "Ultra-Broadband Resilient Network for AI Development" mükafatına layiq görülüb. Təqdim olunan mükafat "Aztelekom"un yalnız sürət və əhatə dairəsi baxımından deyil, həm də şəbəkənin etibarlılığı, elastikliyi və gələcək texnoloji tələblərə hazırlıq səviyyəsi üzrə beynəlxalq standartlara uyğun inkişaf etdiyini təsdiqləyir.

* * *

Həftə dünya enerji və qiymətli metallar bazarında əhəmiyyətli dəyişikliklərlə müşahidə olunub: Azərbaycan neftinin qiyməti 86 dolları ötüb, ümumiyyətlə, dünya birjalarında neft bahalaşıb. Qızılın isə bir troya unsiyasının qiyməti 39,4 dollar artaraq 5174,1 dollar təşkil edib.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Qusarda mərmər bağacığına qarşı mübarizə gücləndirilir

**Qusar Rayon İcra Hakimiyyətində keçirilən budəfəki şura iclası ciddi narahatlıq doğuran məsələlərdən birinə - mərmər bağacığının yayılmasının qarşısının alınmasına həsr edilmişdir.**

İcra nümayəndələri, bələdiyyə sədrləri, mütəxəssislər və aidiyyəti səlahiyyətli şəxslərin iştirak etdikləri iclasda rayon ərazisində mövcud vəziyyət geniş müzakirə olunub. Tədbirdə mərmər bağacığının yayılma dinamikası, onun kənd təsərrüfatına və yaşıllıqlara vurduğu zərər, eləcə də qarşıda duran əsas vəzifələr barədə məlumat verilib. Bildirilib ki, zərərvericiyə qarşı mübarizə sistemli, koordinasiyalı və davamlı şəkildə aparılmalıdır.

Məsələni daim ciddi nəzarətdə saxlayan rayon icra hakimiyyətinin başçısı Sahir Məmmədxanov tərəfindən aidiyyəti qurumlara konkret tapşırıqlar verilib, operativ tədbirlərin gücləndirilməsi, monitorinqlərin artırılması və maarifləndirmə işlərinin genişləndirilməsi xüsusi vurğulanıb. Bir daha bildirilib ki, karantin zərərvericisinə qarşı mübarizə aparmaq hər kəsin borcudur. Rayon ərazisində yaşayan bütün vətəndaşlara müraciət edilərək vurğulanıb ki, hər kəs öz həyətyanı sahəsində və təsərrüfatında diqqətli olmalıdır. Ziyanverici müşahidə olunduğu halda dərhal müvafiq qurumlara məlumat verilməlidir. Yalnız birgə səylər nəticəsində mərmər bağacığının yayılmasının qarşısını almaq və rayonun təbii sərvətlərini qorumaq mümkündür.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

# "Çovdar nekropolu" kitabı ictimaiyyətə təqdim edilib



**5 mart 2026-cı il tarixində Daş Salnamə Muzeyində Heydər Əliyev Fondunun və "AzerGold" QSC-nin dəstəyi, AMEA-nın Arxeologiya və Antropologiya İnstitutunun iştirakı ilə həyata keçirilən "Çovdar nekropolu" arxeoloji tədqiqat layihəsinin nəticələrini əks etdirən elmi-kütləvi nəşrin təqdimat mərasimi keçirilib.**

Tədbir çərçivəsində əvvəlcə qonaqlar sərgi ilə tanış olublar. Sərgidə arxeoloji qazıntılar zamanı aşkar edilən maddi-mədəni irs nümunələri nümayiş etdirilib.

Tədbiri giriş nitqi ilə açan Zakir İbrahimov layihəyə göstərilən xüsusi diqqətə və dəstəyə görə Heydər Əliyev Fonduna, fundamental tədqiqata görə AMEA-nın Arxeologiya və Antropologiya İnstitutuna təşəkkürünü bildirib. Qeyd edilib ki, "Çovdar nekropolu" 2019-cu ildən həyata keçirilən və "AzerGold" QSC-nin ən uzunmüddətli sosial-mədəni layihələrindən biridir.

Beş ay davam edən qazıntılar zamanı Son Tunc və Erkən Dəmir dövrlərinə aid 156 qəbir və 6000-dən çox maddi-mədəniyyət nümunəsi - silahlar, əmək alətləri, məişət və bəzək əşyaları aşkarlanıb. Araşdırmalara yerli alimlərlə yanaşı, İtaliya, Yaponiya və Türkiyədən olan mütəxəssislər cəlb olunub, ilk dəfə insan qalıqlarından DNT analizləri aparılaraq, hər nümunədən 13 milyona yaxın DNT molekulu oxunub və laboratoriyada emal edilib. Nəticədə Çovdar əhalisinin ətraflı demoqrafik təhlili, orta yaş həddi, qohumluq əlaqələri və ölüm səbəbləri müəyyən edilib. Nəticələr göstərib ki, nekropolda dəfn olunan insanlar yerli - Qafqaz mənşəli olub və ərazidə 400 ildən artıq müddətdə yaşayıblar.

Tədbirdə çıxış edən Milli Məclisin deputatı, Heydər Əliyev Fondunun Beynəlxalq əlaqələr departamentinin rəisi Soltan Məmmədov layihənin qədim köklərimizin öyrənilməsi baxımından mühüm əhəmiyyət daşıdığını qeyd edib. Fondun Azərbaycanda və ölkə hüdudlarından kənarda arxeoloji tədqiqatların dəstəklənməsi və milli irsin beynəlxalq səviyyədə tanıdılması istiqamətində həyata keçirdiyi layihələrdən bəhs edən S.Məmmədov tapıntıların ölkəmizin qədim insan mədəniyyətinin mərkəzlərindən biri olduğunu yenidən sübut etdiyini bildirib.

Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Orxan Abbasov rayon ərazisində erkən Tunc dövründən başlayaraq müxtəlif tarixi mərhələlərə aid çoxsaylı arxeoloji abidələrin mövcud olduğunu diqqətə çatdırıb. Onun sözlərinə görə, hazırda rayonda 49 daşınmaz tarix-mədəniyyət abidəsi dövlət qeydiyyatına alınıb və Çovdar nekropolunun tədqiqi rayonun mədəni irsinin daha da zənginləşməsinə töhfə verib.

Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Səbinə Hacıyeva çıxışında layihənin ölkədə tarixi-mədəni irsin qorunması sahəsində həyata keçirilən dövlət siyasəti baxımından əhəmiyyətini vurğulayıb.

AMEA-nın Arxeologiya və Antropologiya İnstitutunun direktoru Fərhad Quliyev tapıntıların beynəlxalq standartlara uyğun olaraq tədqiq edildiyini bildirib. Çovdar nekropolunun metal nümunələri baxımından bu günədək aşkar edilmiş ən zəngin abidə olduğunu qeyd edib. İtaliyanın Piza şəhərində aparılan spektral analizlərin nəticələri göstərir ki, məmulatların hazırlanmasında müxtəlif metal ərintilərindən istifadə olunub. Bu isə həmin dövrdə bölgədə ibtidai metallurgiyanın müəyyən inkişaf səviyyəsinə çatdığını göstərir. Şüşə muncuqlar və kauri qabıqları isə qədim icmaların Aralıq dənizi və digər regionlarla iqtisadi-mədəni əlaqələrinin mövcudluğunu təsdiqləyir.

Qeyd edək ki, "AzerGold" QSC-nin 2019-cu ildə Çovdar Emal Sahəsində apardığı tikinti işləri zamanı aşkar edilib. "Çovdar nekropolu" kitabı arxeoloji ekspediyanın bir neçə il davam edən araşdırmalarının nəticələrini əks etdirən elmi-publisistik nəşrdir. Azərbaycan və ingilis dillərində hazırlanan kitabın məqsədi Çovdar nekropolunun zəngin tarixi-mədəni irsini geniş ictimaiyyətə təqdim etmək, milli irsin təbliğinə töhfə verməkdir.

## OXUCULARIN NƏZƏRİNƏ

Hörmətli oxucular!

"Azərbaycan Nəşriyyatı"nda aparılacaq əsaslı təmir işləri ilə bağlı "Azərbaycan" qəzetinin redaksiyası aşağıda göstərilən ünvana köçmüşdür:

**Mətbuat prospekti, 23L**

**"Azərbaycan Nəşriyyatı" MMC, 4-cü mərtəbə**

# Kiyev və Moskva arasında növbəti hərbi əsir mübadiləsi baş tutub

**Rusiya və Ukrayna yeni hərbi əsir mübadiləsi aparıblar. Martın 6-da Kiyevin nəzarətində olan ərazidən 300 rus hərbçisi geri qaytarılıb və bunun əvəzində Ukrayna Silahlı Qüvvələrinin əsirlikdə olan 300 hərbi qulluqçusu vətənə dönüb.**



Bundan bir gün əvvəl isə Ukrayna və Rusiya arasında "200-ə 200" formulu çərçivəsində daha bir hərbi əsir mübadiləsi baş tutub. Ukrayna Prezidenti Volodimir Zelenski bunu martın 5-də "Teleqram"da elan edib. Rusiya Müdafiə Nazirliyi məlumatı təsdiqləyib.

"Bu gün 200 ukraynalı ailə çoxdan gözlənilən xəbəri aldı: yaxınları evə qayıdır", - deyə V.Zelenski yazıb. O qeyd edib ki, bunlar Mariupol və Donetsk, Luqansk, Xarkov və Zaporojye bölgələrinin müdafiəçiləri - Ukrayna Silahlı Qüvvələrinin əsgərləri, Dövlət Xüsusi Nəqliyyat Xidməti, sərhədçilər və Milli Qvardiya üzvləridir.

Prezidentin sözlərinə görə, mübadilə vasitəçilərin dəstəyi ilə baş tutub. "Ukraynaya kömək edən hər kəsə minnətdaram. Bu mübadilənin həyata keçirilməsində göstərdiyiniz dəstəyə görə ABŞ-yə təşəkkür edirəm", - deyə o əlavə edib.

Öz növbəsində Moskva da ABŞ və BƏƏ-nin vasitəçilik səylərini qeyd edib. Rusiya Müdafiə Nazirliyi əsirlikdən qurtulan rus hərbçilərinin hazırda Belarusda olduqlarını və orada psixoloji və tibbi yardım aldıqlarını açıqlayıb. Daha sonra onlar müalicə və reabilitasiya üçün Rusiyaya aparılacaqlar.

Danışıqlardakı Rusiya nümayəndə heyətinin rəhbəri Vladimir Medinski bir müddət öncə Cenevrədə əsir mübadiləsi ilə bağlı əldə edilən razılaşmalar barədə açıqlama vermişdi.

Daha əvvəl - fevralın 5-də Kiyev və Moskva arasında "157-nin 157-yə" əsir mübadiləsi baş tutmuşdur. Ötən ay Hərbi Əsirlərlə Davranış üzrə Koordinasiya Qərargahı 150 ukraynalı hərbçi və 7 mülki şəxsin azad edildiyini açıqlamışdı. Onların yarısından çoxu Mariupolun müdafiəsi zamanı əsir götürülmüşdü.

Bundan əlavə, qanunsuz məhkum edilmiş ukraynalılar da evlərinə qaytarılıblar. Keçmiş məhbusların ən kiçiyi 23 yaşlı hərbçi Mariupolun müdafiəsindən sonra Rusiya məhkəməsi tərəfindən ömürlük həbs cəzasına məhkum edilmişdi. "Ukrainski Novini" qəzetinin yazdığına görə, azad edilən əsirin ən böyüyü 63 yaşındadır.

Rusiya Federasiyasına isə əsgərlər və Kursk bölgəsinin sakini olan 3 mülki şəxs qaytarılmışdı.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*




# Xocalıya növbəti köç

## Təzəbinə və Seyidbəyli kəndlərinə 67 nəfər qayıtdı

**Martın 6-da Xocalı rayonuna növbəti köç prosesi həyata keçirilib.**







Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-ın bölgə müxbirinə verilən məlumata görə, Xocalı rayonunun Təzəbinə kəndinə 51 nəfərdən ibarət 9 ailə, Seyidbəyli kəndinə isə 16 nəfərdən ibarət 4 ailə köçürülüb. Beləliklə, ümumilikdə 13 ailə olmaqla 67 nəfər doğma yurduna qayıdıb.

Xocalı şəhərində ailələrə yeni evlərinin açarlarını təqdim edən Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin icraçı direktorunun müavini Mahmud Əfəndiyev sakinləri doğma torpaqlarına qayıtmaları münasibətilə təbrik edib, onlara yeni evlərində xoşbəxt və firavan həyat arzulayıb. O, həmçinin Xankəndi şəhərinin, Xocalı və Ağdərə rayonlarının ərazilərində aparılan genişmiqyaslı bərpa-quruculuq və tikinti işləri barədə məlumat verib. Bildirib ki, sakinlərin burada rahat, təhlükəsiz yaşayışı üçün bütün zəruri infrastruktur yaradılıb. Hər iki kənddə sakinlər elektrik enerjisi, təbii qaz və içməli su ilə tam təmin olunublar.

Qeyd edək ki, "Böyük qayıdış" proqramı çərçivəsində işğaldan azad edilmiş ərazilərə mərhələli şəkildə köç prosesi davam etdirilir.

# Bilmək istəyirəm

**- Əmək məzuniyyəti zamanı məzuniyyət haqqının hesablanması ilə bağlı yeni qaydalar məzuniyyətdən istifadə etməyərək kompensasiya alan işçilərə də şamil edilirmi? Hesablama zamanı əməkhaqqına əlavələr, mükafatlar və birdəfəlik mükafatlar nəzərə alınmalıdırmı?**

*Süsən DADAŞOVA,*
*Şirvan şəhəri*

- Sualınıza cavab olaraq bildiririk ki, Əmək Məcəlləsinin 139-cu maddəsinin tələblərinə görə, məzuniyyət vaxtı üçün ödənilən orta əməkhaqqı hesablanarkən əməyin ödənilməsinin qüvvədə olan sisteminə daxil olmayan birdəfəlik ödənişlər istisna edilməklə, həmin məcəllənin 154-cü maddəsinin birinci hissəsi ilə müəyyən edilmiş əməkhaqqı anlayışına daxil olan bütün növ ödəmələr nəzərə alınır. Sözügedən əməkhaqqı anlayışına - müvafiq iş vaxtı ərzində əmək funksiyasını yerinə yetirmək üçün əmək müqaviləsi ilə müəyyən edilmiş, işçinin gördüyü işə (göstərdiyi xidmətlərə) görə işəgötürən tərəfindən pul və ya natura formasında ödənilən gündəlik və ya aylıq məbləğ, habelə ona edilən əlavələrin, mükafatların və digər ödənclərin məcmusu daxildir.

Məzuniyyət vaxtı üçün orta əməkhaqqının hesablanması zamanı nəzərə alınan və alınmayan ödənişlərin geniş siyahısı, habelə məzuniyyət vaxtı üçün orta əməkhaqqının əmsallaşdırılması qaydası müvafiq icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Nazirlər Kabineti) tərəfindən müəyyən edilir.

Bildiririk ki, Nazirlər Kabinetinin 25 avqust 1999-cu il tarixli 137 nömrəli qərarı ilə "Məzuniyyət vaxtı üçün orta əməkhaqqının hesablanması zamanı nəzərə alınan və alınmayan ödənişlərin Geniş Siyahısı" təsdiq edilmişdir. Siyahıya görə, nəzərə alınan ödənişlərə aşağıdakılar aiddir:

- faktiki işlənmiş vaxt üzrə tarif (vəzifə) maaşı;
- müəssisə, idarə və təşkilatlarda qüvvədə olan əməyin ödənilməsi sistemləri üzrə ödənilən mükafatlar, Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 774 nömrəli fərmanı ilə təsdiq edilmiş "Dövlət qulluqçularının mükafatlandırılmasının növləri və qaydaları haqqında Əsasnamə"də nəzərdə tutulan kollektiv və fərdi mükafatlar;
- kompensasiya və həvəsləndirici xarakter daşıyan daimi əmsallar və əlavələr (əmək şəraiti ağır və zərərli olan işlərdə və iqlim şəraitinə görə işləmək üçün əlverişli olmayan iş yerlərində, gecə vaxtı yerinə yetirilən işə və çoxnövbəli iş rejiminə, peşələrin (vəzifələrin) əvəz edilməsi, elmi dərəcəyə, fəxri ada, qulluq stajına, xidmət illərinə, ixtisas dərəcəsinə, hakimiyyət səlahiyyətlərinin icrasına, xüsusi rütbə maaşına (əlavəsinə) görə və s.) və Azərbaycan Respublikasının icra hakimiyyəti orqanlarının rəhbər işçilərinə və şəhər (rayon) icra hakimiyyəti başçılarına səlahiyyətlərinin icrası ilə bağlı təmsilçilik xərclərinin ödənilməsi üçün əlavə pul təminatı;
- uşağın yedizdirilməsi üçün ayrılmış fasilələrin ödənilməsi;
- iş vaxtından artıq iş saatlarının ödənilməsi;
- istirahət, səsvermə, iş günü hesab edilməyən bayram və ümumxalq hüzn günlərində işə görə ödənilmə;
- işçinin təqsiri olmadan zay (yararsız) sayılan məhsulun istehsalına, boşdayanmaya, hasilat normalarını yerinə yetirmədiyinə, soyuq və isti havalar şəraitində fasilələrə və işin dayandırılmasına görə ödəmələr;
- müvəqqəti əvəzetməyə görə ödəmə;
- qanunvericilikdə işçilərin iş yerlərinin və orta əməkhaqqının saxlanıldığı, əvvəlki əməkhaqqı ilə yeni iş yerindəki əməkhaqqı arasındakı fərq ödənildiyi və əvvəlki vəzifəsi (peşəsi) üzrə əməkhaqqı saxlanıldığı hallarda;
- məcburi işburaxma dövrünün ödənilməsi;
- əmək, təhsil və yaradıcılıq məzuniyyəti dövründə saxlanılan orta əməkhaqqı;
- əmək qabiliyyətini müvəqqəti itirməyə , hamiləliyə və doğuma görə müavinətlər;
- qəzet, jurnal, nəşriyyat, radio və televiziya, informasiya agentliklərinin ştatlarında olan ədəbi işçilərə ədəbiyyat qonorarı fondlarından verilən qonorarlar, daimi xarakter daşıyan müəlliflik, artist qonorarları və quruluş haqqı.

Nəzərə alınmayan ödənişlərə isə aşağıdakılar daxildir:

- birdəfəlik xarakteri daşıyan əlavə mükafatların bütün növləri, yubiley və bayram günləri, anadan olan günlər ilə bağlı və digər analoji hallarda verilən həvəsləndirici ödənclər (mükafatlar da daxil olmaqla);
- işçinin öz vəzifəsinə aid olmayan ayrı-ayrı tapşırıqların yerinə yetirilməsinə görə ödəmələr;
- əmək alətlərinin, vasitələrinin və digər əşyaların amortzasiyasına görə pul əvəzi;
- maddi yardım şəklində verilən müxtəlif növ ödənişlər;
- ezamiyyət ilə bağlı verilən ödəmələr, çöl xərcləri, daimi işi yolda olan, yaxud gediş-gəliş və ya gəzəri xarakter daşıyan işçilərə ödənilən əlavələr, bilavasitə tikintidə çalışan işçilər üçün səyyar xarakterli işə görə, işin növbə metodu ilə yerinə yetirilməsinə görə əlavələr;
- ayrı-ayrı işçilərə pulsuz verilmiş mənzil, kommunal xərclərin, yanacağın, nəqliyyatda gediş biletlərinin dəyəri və ya onların kompensasiyası;
- işçilərə verilən iş paltarlarının, iş ayaqqabılarının və başqa fərdi mühafizə vasitələrinin, sabunun, başqa yuyucu vasitələrin, südün və müalicə-profilaktika qidalarının dəyəri;
- qanunvericilikdə nəzərdə tutulmuş hallarda pulsuz qidaların dəyəri (pulsuz kollektiv yeməklər, müəssisənin mənfəətinin hesabına işçilərə pulsuz və ya güzəştli şərtlərlə verilən yeməklər);
- sanatoriya-kurort müalicəsinə və istirahət evlərinə yollayışların dəyəri;
- başqa əraziyə işə keçirildikdə və yaxud köçdükdə mənzil kirayəsi və əmlakın daşınması üzrə xərclərin ödənilməsi;
- istehsalatdan tam və ya qismən ayrılmaqla təhsil almağa göndərilmiş işçilərə müəssisə və təşkilatlar tərəfindən ödənilən təqaüdlər;
- yarış, baxış və müsabiqə qaliblərinə verilən pul mükafatları;
- gənc mütəxəssislərə ali və yaxud orta ixtisas təhsil müəssisəsini qurtardıqdan sonra verilən məzuniyyət zamanı müəssisələr, idarələr, təşkilatların hesabına ödənilən müavinətlər;
- mülki-hüquqi müqavilələr üzrə işlərin yerinə yetirilməsinə görə ödəmələr;
- istifadə edilməmiş əmək məzuniyyətlərinə görə kompensasiya.

Göründüyü kimi, istifadə edilməmiş əmək məzuniyyətlərinə görə kompensasiya məzuniyyət vaxtı üçün orta əməkhaqqının hesablanması zamanı nəzərə alınmayan ödənişdir.

Əmək Məcəlləsinin 144-cü maddəsinə görə, əmək müqaviləsinə xitam verilməsinin səbəbindən və əsasından asılı olmayaraq işçiyə işdən çıxan günədək hər hansı şərt və ya məhdudiyyət qoyulmadan istifadə etmədiyi bütün iş illərinin əsas məzuniyyətlərinə görə kompensasiya ödənilməlidir. Eyni zamanda Konstitusiya Məhkəməsi Plenumunun 18 fevral 2026-cı il qərarı ilə Azərbaycan Respublikası Konstitusiyasının 25-ci və 149-cu maddələrinin tələbləri nəzərə alınmaqla, əmək müqaviləsinə xitam verilərkən işçiyə bütün iş illərinin istifadə etmədiyi Azərbaycan Respublikası Əmək Məcəlləsinin 115-117 və 118-1-ci maddələrində göstərilən əlavə məzuniyyətlərinə görə, istifadə olunmamış əsas əmək məzuniyyəti üçün müəyyən edilmiş qaydada və məbləğdə hesablanan kompensasiyanın verilməsi təmin edilməlidir.

**Sualları cavablandırdı:**
**Paşa SƏFƏROV,**
**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü**

«AZƏRBAYCAN»
qəzetinin reklam xidməti
539-49-20

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Prokurorluğunun rəhbərliyi və kollektivi Baş Prokurorluğun veteranı

**BABA RÜSTƏMOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə

az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3366
Sifariş 318

Qiyməti 60 qəpik